

# Asif Ata (İnam Ata)

**ASİF ATA (İNAM ATA)**

# ON QUTSAL BİTİQ

**(Mütləqə İnam Fəlsəfəsi və Ruhaniyyatı)**

***Doqquzuncu Bitiq:***

# İÇDƏN YARANMA

Atakənd-36

**Türkün (İlk) Ruhaniyyat Ocağı –**
**Asif Atanın (İnam Atanın)**
**Mütləqə İnam Ocağı**

**Tərtibatçısı və ön sözün yazarı: Soylu Atalı**

**Asif ATA**
On Qutsal Bitiq (On Müqəddəs Kitab) külliyyatının Doqquzuncu Bitiqi – İçdən Yaranma. 118 səh. Atakənd.

Asif Atanın "Onluğu" Türk xalqından başlayan Yeni Bəşər İnamının nəzəri əsaslarını və fəlsəfəsini özündə daşıyır. Ona görə də dünyabaxış özüllü bu kitabı təkcə yurdumuzun oxucularına deyil, bütövlükdə İnsanlığa təqdim edirik.

Doqquzuncu Bitiq olan "İçdən Yaranma" – İnamın yeddi Kitabını özündə birləşdirir: Dünyaçılıq – İnsançılıq; Kamilləşmə Əməli; Daxildən Gerçəkləşmək; Gerçəkliyi Ötmək; Özündən Yüksək; Dünyadan Üstün; Bütövlük Həqiqəti.

# Dünya İçindən Yaranır

Mütləqim, Müqəddəsim, ulu peyğəmbərim Asif Ataya – İnam Ataya ali səcdə ilə sözümə başlayıram.

Bundan sonra yaşamağın fəlakətli gedişatından xilas axtaran bəşəriyyətin gələcəyi Asif Ata varlığına bağlıdır. Mütləqə İnam insanın özü qarşısında yaratdığı uçurumdan onu adlatmağa zəmin yaradır.

Mütləqə İnama qədər nisbi ideallara tapınmaqla insanlığın sonuna gəlib çıxdı dinlər. Dinlərin nisbi müqəddəsliyindən, nisbi həqiqətindən ayrılmağın vaxtıdır. İnsan yalnız Mütləq Ölçü ilə yaşayıb var ola bilər. O, nisbi ölçülərlə heyvanilik səviyyəsinə endi. Bu səviyyə ilə varlığı ayaqda tutan bütün ruhani məziyyətləri itirməkdədir, itirməyə doğrudur. İnsan ata ola bilmir, ana ola bilmir, qardaş ola bilmir, bacı ola bilmir, dost ola bilmir, vətənli ola bilmir, nəhayət, gələcəkli ola bilmir. İnsanın texnika erasında gələcəyə işıq yandırmaq arzuları puç oldu. İndi o, insanilik yüzilinin işıqlandırdığı dünyaya üz tutmalıdır.

Dünyanı hər şeydən başladılar, dünya yarımçıq oldu. Bəşəriyyətin xoşbəxtlik idealı mənasız eksperimentlər girdabında ilişib qaldı. Asif Ata deyir dünyanı İnsanlaşma ideyasından başlamaq gərəkdir, – texnologiyalaşan dünya İnsaniləşən dünya ilə əvəz olunmalıdır. İnsaniləşən dünya necədir, necə oluşur – bunu Onun (Asif Atanın) Qutsal Bitiqlərindən öyrənmək olar.

Sayğılı oxucular, indi sizə Asif Atanın "Qutsal Onluq"undan "İçdən Yaranma" Bitiqini – kitabını təqdim edirik. "Qutsal Onluq" Asif Atanın 45 kitabını özündə birləşdirir. Ocaq 45 kitabı məzmunlarına görə təsnifatlaşdırmış və uyğun məzmunluları bir arada birləşdirmişdir. Beləliklə, 10 + 3 cilddə bütün kitablar sistem halına gətirilmişdir.

"İçdən Yaranma" İnamın 7 kitabını özündə birləşdirir. Asif Atanın bir çox kitabalrı həcmcə kiçik ölçülü kitablardır. Bu kitablarda dünyanın heç bir düşüncə, fikir adamından örnək göstərilmir, heç kimin dediyi, kitabı, heç bir hadisə, heç bir proses şərh olunmur. Hətta Asif Ata özü özünü belə, şərh eləmir. ("Gerçəkliyi Ötmək" kitabı istisnadır, çünki kitab bədii fəlsəfi tənqid yönündə yazılmışdır). Tam olaraq, mahiyyət üstə fikir söylənilir. Fikir kitabı, düşüncə kitabı, məzmun kitabı adlandırmaq olar Asif Atanın hər bir kitabını.

“İçdən Yaranma”nın birinci kitabı “Dünyaçılıq – İnsançılıq” adlanır. Bu kitabda təbiətə münasibətin yeni ölçüdə dərk olunması aşkara çıxır. Burada təbiətə indiyə qədər ən çox panteist yanaşma ölçüsü Mütləqçilik ölçüsü ilə əvəz olunur, təbiətin mahiyyəti İnsaniliklə vəhdətdə götürülür. Ümumən təbiətə münasibət Mütləqə münasibət səviyyəsində izah olunanda təbiətə qarşı davranışların təzadları, ziddiyyətləri həllini tapır. Təbii ki, bu münasibətdə təbiətlə Mütləq eyniləşdirilmir. Mütləq – təbiətin daşıdığı mahiyyətdir...

İnsan təbiətə poetik yanaşanda ona bəslədiyi münasibət ideala bənzəyir. Ancaq gerçəklikdə bu münasibət qorunub saxlanılmır. Ümumiyyətlə, nə poeziya, nə də fəlsəfə ictimai problemləri həll edə bilmədi. Cəmiyyətin yaratdığı problemlər insanın təbiətə olan münasibətinin üzərinə çökdü. Asif Ata göstərir ki, bu ziddiyyətləri yalnız ruhaniyyat aradan qaldıra bilər. Ancaq ruhaniyyatı O, dini məzmunla eyniləşdirmir. Əksinə, təbiətə münasibətin əyilməsinin dinin Allahçılıq ideyasına bağlı olaraq, daha kəskin şəkil alması vurğu edilir. Bunun başlıca səbəbi odur ki, dində Allah təbiətüstü qüvvə kimi sunulur. Bununla da təbiət mahiyyətsizləşdirilir. Ancaq Asif Atada dünya Dünyalıqla vəhdətdə götürülür. Ona görə də təbiət mahiyyətinə doğma olur.

Dünyaçılıq – dünyanı bütöv götürmək və onu dərk eləməkdir.

Bitiqdəki (kitabdakı) “Kamilləşmə Əməli” insanı öz mahiyyətinə yetirir. Kitabda vurğulanır ki, Tanıma – Kamilləşmənin təməlidir. Deməli, insani yaşamaq Özünü, Dünyanı tanımaqdan, bilməkdən başlayır.

Kitabda “özüylədöyüş”ün nəliyi, necəliyi öyrədilir, əmələ başlamanın yolu izah olunur.

Adam başqasının davranışına irad tutur, acıqlanır. Bu o deməkdir ki, adam başqasının üzərində hakimlik eləmək istəyir. Başqasına münasibətdə özünü necə aparmaq əxlaqın birinci şərtidir. Başqasına münasibətdə yadlaşmaq, yağılaşmaq – içdə qəbahət becərmək, mənəviliyi inkar etməkdir. Başqasına insani münasibət, başqasının haqqını, azadlığını tanımaq – onda özünün insani keyfiyyətlərini görməkdir. Başqa sözlə, başqasılaşmaqdır, özünün insani kamilliyini təsdiq etməkdir.

Vətənə, xalqa, bəşərə münasibət də başqasına qarşı olan münasibətin doğruluğu, doğmalığı üzərində qurulur.

İnsan özündə İnam, İdrak, Mənəviyyat, İradə yaradır. Yəni, ruhunu bərpa edir, onu kamil səviyyəyə çatdırır. Yalnız bundan sonra o, ictimai şərlə döyüşə bilər. Özündə kamil ruh yaratmayan insana mübariz insan demək olmaz.

Bitiq "Daxildən Gerçəkləşmək" kitabı ilə davam edir. Asif Ata deyir Dünya Özündən yaranır. Yəni dünyadakıların təzahür etdiyi Dünyalıq dünyanın özündədir. Dünya qıraqdan yaradılmır və qıraqdan idarə olunmur. Dünyanın qıraqdan yaradılmasını iddia eləmək onu mahiyyətsiz bir biçimə çevirməkdir. Mahiyyətsiz dünya ilə insanın heç bir əlaqəsi yaranmaz. Bu cəhətdən dinin dünyaya münasibəti antidünyadır...

Asif Atada dünyanın mahiyyəti onun Dünyalıq adlı özümlüyüdür. İnsanın İnsanilik adlanan mahiyyəti də Dünyalıqla birdir. Ona görə də insanın kamilləşməsi – əslində Dünyalıq adlı mahiyyətə qovuşmasıdır. İnsanın dünya sevgisi onun öz İnsani mahiyyətinə olan münasibətidir. Allaha, yəni transendentala meyil edən adamın özünü sevməsi – əslində xudbinlikdir. Çünki Allahın, yəni transendentalın insana dəxli yoxdur.

Dünyalığa meyil edən insanın özünü sevməsi – əslində dünyanı sevməsidir. Çünki Dünyalıq onun özümlüyüdür. Dünya insanın gözündə mənalıdır, o, fani, oyun-oyuncaq deyil. İnsan dünyanı dərk elədikcə başqa bir dünya axtarmır, əslində başqa bir dünyanın olduğuna inanmır da.

...Dünya daxildən gerçəkləşir və daxildəkini ifadə edir.

"Gerçəkliyi ötmək" kitabında Mənanın vəsfi şeir örnəkləri vasitəsilə izah olunur. Gerçəklikdəki adilikləri, keçicilikləri görən ruh Mənaya can atır. İctimai həyatda bu, ən çox şeiriyyət vasitəsilə ifadə olunub. Həyata sığmayan ruh poeziyalaşır, təxəyyül şeiriyyət vasitəsilə Məna yoluna düşür...

– Həyatda bioloji döyüş görürlər, güzəran qurmağı bacarmaqda hünər görürlər, rəqabətdə qalib olmağı aqibət sayırlar. Həyatı ölümlüyə bərabər götürürlər. Əslində isə həyat sirlərlə, əsrarlarla zəngindir. Buna görədir ki, insanda yaşamaq eşqi tükənmir. İnam həyatı fani sayanları rədd edir. Öyrədir ki, həyat özündə özündən Yüksək olanı gəzdirir. İnsanın məqsədi həmin Yüksək olana yetməkdir; həyatı itirməmək, həyat vasitəsilə ölümsüzlüyü dərk eləməkdir. Həyatı itirməmək – yəni həyatın özündəki özündən Yüksəyi itirməməkdir.

Dünya dərk olunandır, çünki özündə özündən Yüksək olanı gəzdirir. Dünyanın qıraqdan yaradılıb idarə olunduğunu qəbul eləmək dünyanı dərk eləməməkdir. Çünki qıraqdan yaradılan dünya mahiyyətsizdir. Mahiyyətsizin dərk olunması anlamı isə yoxdur. Mahiyyətsiz bir şeyi dərk eləmək – yoxluğa düşməkdir. "Özündən Yüksək" kitabında yuxarıda vurğulananları anlamaq başa gəlir.

Bitiqdəki kitablardan biri də "Bütövlük Həqiqəti" adlanır. Hər bir kitab adlarından göründüyü kimi, Asif Atanın Mütləqə İnam Dünyabaxışının məzmununu aşkara çıxarır. Bu kitabda ideal-gerçəklik münasibətlərinin mənasını anlamaq və öyrənmək olur.

Həyat gerçəklikdə adiləşir, bəsitləşir, cılızlaşır. Gerçəklik səviyyəsində idrak adiliyə, bəsitliyə, cılızlığa qulluq edir. Ancaq bütövlüyə can atan insan gerçəklik səviyyəsində həyatla barışmır. O, həyatı ideala yüksəltməyə, bənzətməyə çalışır. Daim ideal çağırışına doğru meyillənir, ideal tələblərinə əməl etmək istəyir. Bununla da insani münasibətləri tükənməkdən, həyatı ölməkdən qoruyur. Əslində Ali Həyat yaradır...

Asif Ata bəşəriyyətin ideya tarixində yeni mərhələ başlayıb – yeniləşdirir dünyaya, həyata, insana münasibəti. Yenidən yaradır uçulanı, dağılanı. Dünyaya münasibəti dəyişməklə əsilləşdirir. Bunun üçün dünyanın Özümlüyünə dayanır – Dünyanın Dünyalıq Mənasına İnam yaradır.

Mahiyyətsizləşdirilən Dünya Mahiyyətləşən Dünyaya Yüksəlir.

Atamız Var olsun!

**Soylu Atalı**
*Mütləqə İnam Ocağının Yükümlüsü*

## *İNSANLAŞMAQ*

Zəmanə İnamını – İnamsızlıq saydım.
İnam yaratdım.

Zəmanə İdrakını – İdraksızlıq saydım.
İdrak yaratdım.

Zəmanə Mənəviyyatını – Mənəviyyatsızlıq saydım.
Mənəviyyat yaratdım.

Zəmanə İradəsini – İradəsizlik saydım.
İradə yaratdım.

Zəmanə Amalını – Amalsızlıq saydım.
Amal yaratdım.

Zəmanə Əməlini – Əməlsizlik saydım.
Ocaq qaladım.
Təqiblərə yüksəldim. Ata çağırıldım.

Bəşərin nicatı – İnsanlaşmaqdadır.
İnsanlaşın – İnsanlaşdırın...

*Şölə Ayı, 7-ci il. Bakı.*
*(İyun, 1985-ci il).*

# 𐰓𐰇𐰤𐰖𐰀𐰲𐰃𐰞𐰶 – 𐰃𐰤𐰾𐰀𐰤𐰲𐰃𐰞𐰶

# DÜNYAÇILIQ – İNSANÇILIQ

## (Otuz doqquzuncu Müqəddəs Kitab)

## 1. Təbiət – İnsan

Qədim Türk Təfəkküründə Təbiət İnsanlaşırdı, İnsan Təbiətləşirdi.

Sonradan Obyekt–Subyekt əlaqələrində Təbiət İnsana qarşı, İnsan Təbiətə qarşı qoyuldu – bu da İnsan–Təbiət Yadlığına Yaradı.

***Təbiət İnsan deyil, İnsan da Təbiət deyil – ancaq hər ikisinin Mahiyyəti Birdir.***

## 2. Əlaqə

***İnsan Təbiətə Yazılır, həm də Təbiəti Yazır.***

## 3. Qənimlik

Cəmiyyətin İnsan üzərində Ağalığı artdıqca, İnsanın Təbiət üzərində Ağalığı da artdı.

***Cəmiyyət İnsan Qənimi oldu – İnsan Təbiət Qənimi.***

## 4. Döyüş – Sevgi

İnsan Təbiətin Təzahürləriylə döyüşüb – Mahiyyətiylə Döyüşməyib.

İnsan Təbiətin Mahiyyətini həmişə sevib.

***İnsan Təbiəti sevə-sevə Təbiətlə Döyüşüb.***

***İnsan Yaşamaq üçün Təbiətlə Döyüşüb və Təbiəti sevə-sevə Yaşayıb.***

## 5. Gedişat

***Təbiətçilik*** – Cansızı Canlandırdı, – orda Daşın da Canı var.

***Cəmiyyətçilik*** – Canlını Cansızlaşdırdı – orda İnsan da cansızdır.

## 6. Xassələr

***Təbiətçilik*** – materializm deyil – burda cismanilik – Ruhaniləşir.

Təbiətçilik – Ruhaniyyatçılıqdır əslində.

***Allahçılıq*** – İdealizm deyil, burda hakimlik ifadə olunur.

Allahçılıq – Hakimiyyətçilikdir əslində.

## 7. Bölünmə

Fəlsəfənin İdealizmə və Materializmə bölünməsi Həqiqətin ikiləşməsini yaratdı.
Əslində isə Həqiqət Birdir.
***Bu səbəbdən də Fəlsəfi Bölünmə Həqiqətsizliyə Yaradı.***

## 8. Fərq

***Dünyadan Üstünlük – Həqiqətdir.***
Dünya Üstülük – Cəfəngiyyatdır.
***Dünyadan Üstünlük – Dünyadan Yaranır, Dünya Üstülük – Dünyasızlıqdan.***

## *9. Zərurilik*

***Elm*** – İnsanlaşan Təbiət, Təbiətləşən İnsan görümündən Ayrılır, ***Sənət*** onu natam bərpa edir, ***İnam onu tam bərpa etməlidir.***

## 10. Dünya – Dünyalıq

Dünyanın Məqsədi – ***Dünyalığı*** Yaşatmaqdır.
Dünyalıq Durduqca – Dünya Yaşayır və Dünyalığı Yaşadır.

## 11. Fərq

***Tanrı*** Dünyanı Təmsil edir, bu səbəbdən də Dünyadan asılı olur.
***Allah*** Dünyanı İdarə edir, bu səbəbdən də Dünya Allahdan asılı olur.
Tanrıçılıq – ***Dünyaçılıqdır*** əslində, Din – ***Allahçılıq.***
***Qədim Türklər – Allahçı olmayıblar, Dünyaçı olublar.***

## 12. Müstəqil Dünya – Müstəqil İnsan

Dünyaçılıq – İnsançılıqla Təndir.

Dünya Allahdan asılı olmadığı dərəcədə – İnsan da Qismətdən Asılı olmur.

### 13. Əfasanələşən Mahiyyət

Əməldə Dünyanın Mahiyyətinə Yetməyən İnsan Təxəyyüldə Mahiyyətə Yetir – ancaq onu Əfsanələşdirir.

Mahiyyət İnsana Əfsanəvi Biçimdə görünür və o, Əfsanəyə inanır.

Mifologiyanın Mahiyyəti bundan ibarətdir.

### 14. İdrak – Təxəyyül

Mifologiya – Təxəyyül İzharıdır – İdraka Yarayan.

### 15. Mahiyyət Birliyi

***Materializm*** – Dünyada cismanilik Birliyi görür.

***İdealizm*** – Dünyada İdrakilik Birliyi görür.

***Dualizm*** – Dünyada Cismanilik və İdrakilik Ziddiyyəti görür.

Əslində isə Dünyada Mahiyyət Birliyi mövcuddur; ***Dünyanın Mahiyyəti Birdir – Təzahürü min.***

### 16. Bütövlük Fəlsəfəsi

***Dialektikada*** – Müstəqil hadisə yoxdur – Hadisələr Biri-Birindən Asılıdırlar, Biri-Birinə keçirlər.

***Metafizikada*** – Hadisələr Biri-Birindən Təcrid olunur.

Əslində isə Hadisələr Müstəqil olduqları dərəcədə Biri-Birinə Bağlıdır; Biri-Birinə Bağlı olduqları dərəcədə Müstəqildirlər.

***Bütövlük Fəlsəfəsi gərək İdraka – Həqiqətə çatmaq üçün.***

### 17. Dünyaçılıq – Mütləqilik

***Materializm*** – Dünyaçılıq deyil – Cismaniçilikdir.

***İdealizm*** – Dünyaçılıq deyil – İdeyaçılıqdır.

***Dünyaçılıq – Mütləqçilikdir – yəni Əzəli, Əbədi, Sonsuz, Kamil Dünyalığa İnamdır.***

## 18. Təzad

***Allahçılıq*** – Tanrıçılığın davamı deyil, İnkarıdır.

***Tanrıçılıqda İnsan Dünyalaşır – Allahçılıqda Bəndələşir.***

***Tanrıçılıq*** – Bu Dünyanı sevdi, ona görə də o Dünyaya Ehtiyacı olmadı.

***Allahçılıq*** – Bu Dünyanı sevmədi, ona görə də o Dünyaya Ehtiyacı oldu.

## 19. Fərq

Tanrıçılıq – Allahçılıqdan Üstündür – ancaq Mütləqçilikdən Əksikdir, çünki burada Dünya Dünyalıq Təməlindən məhrumdur.

## 20. Dünyaçılıq – Mahiyyətçilik

Dünyaçılıq – Dünyaya Uymaq deyil – onun Mahiyyətinə, Mənasına Yetməkdir – onu Mahiyyətinə, Mənasına Yetirməkdir.

## 21. Təzad

Günəşi – Tanrı saymaq, Suyu – Tanrı saymaq, Dağı – Tanrı saymaq, Göyü – Tanrı saymaq – ***Dünyanı Tanrı saymaqdır.***

Günəşi İnsanlaşdırmaq, Suyu İnsanlaşdırmaq, Dağı İnsanlaşdırmaq, Göyü İnsanlaşdırmaq – ***İnsanı Dünyalaşdırmaqdır.***

***Allah – Günəşə, Suya, Dağa, Göyə Sahib oldu, onları Dünyanın əlindən aldı – İnsansızlaşan Dünyada İnsan özünə o Dünya axtardı.***

## 22. Mənfəət – İbadət

Təbiətdən Mənfəət götürən İnsan – həm də ona İbadət edirdi.

Mənfəət Təbiətə Münasibətin aşağı pilləsiydi, Yuxarı pillədə Təbiətə İbadət dururdu.

Sonradan Mənfəət özü İbadət oldu və İnsanın Təbiət üzərində Ağalığı Yarandı, yəni Mahiyyətcə ***Ağalıq İbadətləşdi.***

Beləliklə İnsan Təbiətdən Ayrıldı və Dünyada Təkləndi.

## 23. Fərq

***Tanrıçılıq*** – Mütləqçilikdən əksikdir – ancaq ***Allahçılıqdan*** Üstündür.

***Tanrıçılıqda*** Dünya – Dünyalıqdan yox, Dünyadakından yaranır, – ***Mütləqçilikdə*** – Dünya Dünyadakından yox – Dünyalıqdan yaranır.

Ancaq Tanrıçılıqda da Dünya Özündən yaranır – ***Özgədən*** Yaranmır.

## 24. Dünyaüstü Mahiyyətsizlik və Dünya Mahiyyəti

Dünyanın Mahiyyətinə Yetməyən İnsan – Allah icad elədi.

Dünyaüstü Varlıq – Allah – Mahiyyət əvəzi oldu.

***Allahçılıq*** – Dünyanı Mahiyyətsizləşdirdi.

***Tanrı*** – Dünyaüstü Varlıq deyil – Dünyanın özündəkidir.

***Tanrıçılıq*** – Dünya Mahiyyətini inkar etmir; bu baxımdan Allahçılığa Ziddir.

## 25. Tanrıçılıq – Allahçılıq

“Dünya Günəşdən yaranıb” demək – Dünya özündən yaranıb deməkdir.

“Dünyanı Allah yaradıb” demək – Dünya özgədən yaranıb deməkdir.

***Tanrıçılıq*** – Dünyanı Özümləşdirir.

***Allahçılıq*** – Dünyanı Özgələşdirir.

## 26. Tanrıçılıq – İnsançılıq

***Qədim Türkün Tanrısı olan Təbiət – Türkün Ağası deyildi.***

Türk Tanrısına – Təbiətə hökm edirdi.

Təbiət İnsanın Tanrısı idi, həm də İnsanın hökmünə Tabe olurdu.

***Buradakı Tanrıçılıq – İnsançılıq idi əslində.***

### 27. Ərk Hökmü

Qədim Türk Ruhaniyyatında İnsan Təbiətə hökm eləyirdi, Ancaq Ağalıq eləmirdi.

***Çünki İnsanın Təbiətə hökmü istək idi – Ərk idi; İnsan Təbiətə Ərk eləyirdi – bala anasına ərk edən kimi.***

### 28. Təbiətçilik – İnsançılıq

Qədim Türk təfəkküründə Təbiət Ruhu – Allah deyil – İnsandır.

Burada Təbiətin Ruhlaşması – onun İnsani keyfiyyət kəsb etməsi olur – ***Təbiət İnsani yaşayır.***

### 29. Təzad

***Qədim Türk Tanrıçılığı Dünyanı Müqəddəsləşdirdi.***

***Allahçılıq – Dünyanı Faniləşdirdi.***

Tanrıçılıqda Dünya Ucalırdı – Allahçılıqda Alçaldı.

### 30. Dünyaçılıq – Müqəddəslik

Dünyaçı – Dünya Müqəddəsliyini, Dünyadan Üstün İnsan Müqəddəsliyini Təsdiq edir – ***Dünyaüstü Allahçı əsil Müqəddəsliyi rədd edir.***

***Dünyaçılıqda Müqəddəslik Özümləşir – Özgəlikdən Ayrılır.***

### 31. Gedişat

Qədim Türkün Tanrısı Təbiət idi.

***Adamlar Tanrısına Yırtıcı Münasibət bəsləyə bilməzdilər.***

Sonradan Tanrı Allahlaşdı və Adamların Təbiətə qarşı Yırtıcılıq Tüğyanı başladı.

***Bəndələr Təbiətə yağı kəsildilər.***

## 32. Qurbançılıq – Ağaçılıq

Qurbançılığı Allahçılıq yaratdı, burada Ağaçılığın Mahiyyəti bariz şəkildə aşkarlanır!

Əslində Bəndə Allaha Qurban verilir; Rəiyyət Ağaya Qurban verilir.

Aşağı Təbəqə Yuxarı Təbəqəyə Qurban verilir, Təbiət Adama Qurban verilir.

***Qurbançılıq Ağaçılıqdır əslində.***

## 33. Qədimlik – Yenilik

Qədimlik – Köhnəlmir. Yenilik – Köhnəliyi əvəz edir; ***Qədimləşəndə Yaşayır – Köhnələşəndə ölür.***

## 34. Ölümə Acımaq

"Ölüm varsa – Həyat cəfəngiyyatdır" deyirlər ekzistensialistlər.

***Həyat Cəfəngiyyat olsaydı – Ölümə Acımazdıq.***

## 35. Ölüm – Ölümsüzlük

Ölüm – Həyatın Şərtidir.
Ölüm olmasa – Həyat ölər.

## 36. Üstünlük – Əskiklik

***Adam*** – Dünyaüstüçüdür, bu səbəbdən də Dünyadan Əskikdir.
***İnsan*** – Dünyaçıdır, bu səbəbdən də Dünyadan Üstündür.

*Günəş Ayı, 19-cu il. Bakı.*
*(Mart, 1997-ci il).*



# KAMİLLƏŞMƏ ƏMƏLİ

## (Otuz ikinci Müqəddəs Kitab)

# 1. TANIMA – MAHİYYƏTƏ YETMƏ

***Kamilləşmə – Tanımadan Başlayır.***

Gərək Biləsən ki, Dünyanın – Dünyalıq adlı Mahiyyəti Var – Dünya öz Mahiyyətindən Yaranıb.

***Gərək Mahiyyəti Dərk edəsən, Duyasan, Mahiyyətə Əməl edəsən – Yetəsən.***

Gərək Biləsən ki, Həyatın – Həyatlıq adlı Mahiyyəti Var – Həyat öz Mahiyyətindən Yaranıb.

***Gərək Mahiyyəti Dərk edəsən, Duyasan, Mahiyyətə Əməl edəsən – Yetəsən.***

Gərək Biləsən ki, İnsanın – İnsanilik adlı Mahiyyəti Var – İnsan öz Mahiyyətindən Yaranıb.

***Gərək Mahiyyəti Dərk edəsən, Duyasan, Mahiyyətə Əməl edəsən – Yetəsən.***

Gərək Biləsən ki, İnsan Mahiyyəti Bütövdür, Vahiddir, İnsan Təbiəti isə Ziddiyyətlidir, Qarışıqdır, – Təbiəti Mahiyyətə Yüksəltmək gərək.

***Kamilləşmə – Mahiyyətə Yetmək deməkdir – əslində.***

Gərək Biləsən ki, İnsan özündə Mütləqilik gəzdirir; – gərək bu həqiqəti Dərk edəsən, Duyasan, ona Əməl edəsən – Yetəsən.

Gərək Biləsən ki, İnsan Mahiyyət etibarilə Şəraitdən, Mühitdən, Zamandan, Cəmiyyətdən Üstündür; bu həqiqəti Dərk edəsən, duyasan, ona Əməl edəsən – Yetəsən.

Gərək Biləsən ki, İnsan Mahiyyətcə Mütləqiliyə meyl edən Varlıqdır; gərək bu həqiqəti Dərk edəsən, Duyasan, ona Əməl edəsən – Yetəsən.

Gərək Biləsən ki, İnsan Mahiyyətcə Kamilləşməyə qadir olan Varlıqdır, gərək bu həqiqəti Dərk edəsən, Duyasan, ona Əməl edəsən – Yetəsən.

Gərək biləsən ki, İnsan Təbiətində Xeyirlə yanaşı Şər də var; Xeyirə əsaslanıb Şərlə Döyüşmək gərək – ***Bütöv Xeyirləşmək – Şərdən Azad olmaq gərək.***

Gərək Biləsən ki, İnsan Təbiətində ***Canavarlıq*** var; onunla Döyüşmək – ondan Azad olmaq gərək.

Gərək Biləsən ki, İnsan Təbiətində ***İlanlıq*** var; onunla Döyüşmək – ondan Azad olmaq gərək.

Gərək Biləsən ki, İnsan Təbiətində ***Tülkülük*** var; onunla Döyüşmək – ondan Azad olmaq gərək.

Tanıma – Kamilləşmənin Təməlidir...

Dünyanı, Həyatı, İnsanı tanımasan – Kamilləşməzsən...

## 2. ÖZÜNDƏKİ CANAVARLA DÖYÜŞ

İnsanda Canavarlıq Var – İnsana qarşı, Təbiətə qarşı, Dünyaya qarşı Yırtıcılıq Var, Harınlıq Var, Həsəd Var, Qəsd, Zəbt, Hakimiyyət, Kin-Küdurət Amansızlığı Var.

***Canavarlıqla Döyüş – Canavarlığı Əməlsizləşdirməkdir.***

Canavarlığın hökmünə əməl etməməkdir.

Yırtıcılığı Əməlsizləşdirməkdir.

Yırtıcılığı Əməlsiz Qoymaqdır.

***Yırtıcılığı daxildən Qovmaq üçün onu Əməlsiz Qoymaq gərək.***

Yırtıcılığa Tabe olmamaq gərək, onu Əməldən salmaq – Əməlsizləşdirmək gərək.

Hərisliyin – Harınlığın hökmünə əməl etməmək gərək.

Hərisliyi-harınlığı Əməlsiz qoymaq – Əməlsizləşdirmək gərək.

***Həsəd*** Ehtirasına Əməl etməmək, onu Əməlsiz qoymaq – Əməlsizləşdirmək gərək.

***Qəsd*** Ehtirasına Əməl etməmək, onu Əməlsiz qoymaq – Əməlsizləşdirmək gərək.

***Zəbtçilik*** Ehtirasına Əməl etməmək, onu Əməlsiz qoymaq – Əməlsizləşdirmək gərək.

***Hakimiyyət*** Ehtirasına Əməl etməmək, onu Əməlsiz qoymaq – Əməlsizləşdirmək gərək.

***Kin-küdurət*** Ehtirasına Əməl etməmək, onu Əməlsiz qoymaq – Əməlsizləşdirmək gərək.

***Yırtıcılıq*** Əməlləşdikcə – Güclənir; Əməlsizləşdikcə – Zəifləyir.

***Hərislik-harınlıq*** Əməlləşdikcə – Güclənir; Əməlsizləşdikcə – Zəifləyir.

***Həsəd*** Əməlləşdikcə – Güclənir; Əməlsizləşdikcə – Zəifləyir.

***Qəsd*** Əməlləşdikcə – Güclənir; Əməlsizləşdikcə – Zəifləyir.

***Zəbtçilik*** Əməlləşdikcə – Güclənir; Əməlsizləşdikcə – Zəifləyir.

***Hakimiyyətçilik*** Əməlləşdikcə – Güclənir; Əməlsizləşdikcə – Zəifləyir.

***Kin-küdurət*** Əməlləşdikcə – Güclənir; Əməlsizləşdikcə – Zəifləyir.

***Əməl Canavarlıq halını Yaşadır, Əməlsizlik – öldürür.***

***Yırtıcılığa*** Əməl etməmək – İradə Əməlidir.

***Hərisliyə-harınlığa*** Əməl etməmək – İradə Əməlidir.

***Qəsdçiliyə*** Əməl etməmək – İradə Əməlidir.

***Zəbtçiliyə*** Əməl etməmək – İradə Əməlidir.

***Həsədə*** Əməl etməmək – İradə Əməlidir.

***Hakimiyyətçiliyə*** Əməl etməmək – İradə Əməlidir.

***İnsan özündəki canavarlıqla İradə Əməli vasitəsiylə döyüşür: Canavarlığı Əməlsiz qoyur – Kamilliyə doğru İrəliləyir.***

## 3. ÖZÜNDƏKİ TÜLKÜYLƏ DÖYÜŞ

İnsanda ***Tülkülük*** Var – İnsana, Həyata, Dünyaya qarşı ***Riyakarlıq*** Var, ***Ziyançılıq*** Var, ***Yalançılıq*** Var, ***Yalmançılıq*** Var, ***Saxtalıq*** Var.

Özündəki ***Riyakarlığı Əməlsizləşdirmək*** gərək:

Riyakarlığın Hökmünü rədd etmək, onu Əməldən salmaq gərək.

Riyakarlığı yaşadan – Riyakarlığa Əməl etməkdir.

***Riyakarlığa Əməl etməmək – İradə Əməlidir.***

Riyakarlıq əməlləşdikcə Yaşayır – Əməlsizləşdikcə – Ölür.

Riyakarlıq Halını – Riyakarlıq Əməli Yaşadır.

***Əməlsizləşən Riyakarlıq – Ölür.***

***İradə Əməli Riyakarlığı öldürür.***

Özündəki ***Ziyançılığı*** Əməlsizləşdirmək gərək.

Ziyançılığın Hökmünə Əməl etməmək gərək.

Ziyançılığı Əməlsiz qoymaq gərək.

***Ziyançılığı Əməlsiz qoymaq – İradə Əməlidir.***

***Ziyançılıq halını – Ziyançılıq Əməli yaşadır.***

***Əməlsizləşən Ziyançılıq – Ölür.***

***İradə Əməli Ziyançılığı öldürür.***

Özündəki Yalançılığın hökmünü rədd etməlisən, onu Əməlsizləşdirməlisən.

Yalançılıq halını – Yalançılıq Əməli Yaşadır.

Yalançılıq halını – Yalançılıq Əməlindən məhrum etməlisən.

***Yalançılığı Əməldən salmaq – İradə Əməlidir.***

***Əməlsiz Yalançılıq – Ölür.***
***İradə Əməli – Yalançılığı öldürür.***
Özündəki ***Yalmançılığı*** Əməlsizləşdirmək gərək.
***Yalmançılıq halını*** yaşadan Yalmançılıq Əməlidir.
Yalmançılığın hökmünə Əməl etməmək, onu hökmsüz qoymaq gərək.
Yalmançılıq halını – Yalmançılıq Əməli yaşadır. Əməlsiz Yalmançılıq – Ölür.
***İradə Əməli Yalmançılığı öldürür.***
Özündəki Saxtalığı Əməlsizləşdirmək gərək.
Saxtalığın hökmünü Əməlsiz qoymaq gərək.
***Saxtalığı Əməlsizləşdirmək – İradə Əməlidir.***
Saxtalıq halını Saxtalıq Əməli Yaşadır.
***Əməlsizləşən Saxtalıq – Ölür.***
İradə Əməli – Saxtalığı öldürür.
Kamilləşmə Gücü – İrsiyyətdən Üstündür; ona Qalib gəlməyə Qadirdir; İnsan özüylə Döyüş vasitəsiylə özünü Yaradır – İnsaniliyə Yaramaq səviyyəsinə Yüksəlir.
İnsan Özündəki Tülküylə İradə Əməli vasitəsiylə Döyüşür: – Tülkülüyü Əməlsiz qoyur – Kamilliyə doğru İrəliləyir.

## 4. ÖZÜNDƏKİ İLANLIQLA DÖYÜŞ

İnsanda İlanlıq Var – Dünyaya, Həyata, İnsana qarşı Zəhərçilik, Çalğıçılıq, Zalımlıq, Yağılıq, Bədçilik Var.
Gərək Zəhərçiliyin hökmünə Əməl eləməyəsən, – Zəhərçiliyi Əməlsizləşdirəsən.
Zəhərçilik halını Yaşadan – Zəhərçilik Əməlidir.
***Zəhərçilik Əməlsizləşəndə ölür.***
Zəhərçiliyi Əməlsizləşdirmək – İradə Əməlidir.
***İradə Əməli Zəhərçiliyi öldürür.***
***İlan – çalmasa – ölər.***
Gərək Çalğıçılığın hökmünə Əməl eləməyəsən, – Çalğıçılığı Əməlsizləşdirəsən.
Çalğınçılığı Əməlsizləşdirmək – İradə Əməlidir.
***İradə Əməli  Çalğınçılığı öldürür.***

Gərək ***Zalımlığın*** hökmünə Əməl eləməyəsən, – Zalımlığı Əməlsizləşdirəsən.

***Zalımlıq Əməlsizləşəndə – Ölür.***

Zalımlığı Əməlsizləşdirmək – İradə əməlidir.

İradə Əməli Zalımlığı öldürür.

Gərək Yağılığın hökmünə Əməl eləməyəsən – Yağılığı Əməlsizləşdirəsən.

Yağılıq Əməlsizləşəndə – Ölür.

Yağılığın Əməlsizləşməsi – İradə Əməlidir.

Yağılıq halını – Yağılıq Əməli Yaşadır.

***İradə Əməli – Yağılığı öldürür.***

***Gərək Bədçiliyin hökmünə Əməl eləməyəsən.***

Gərək Bədçiliyi Əməlsiz qoyasan.

Bədçilik halını – Bədçilik Əməli Yaşadır.

***Bədçiliyi Əməlsizliklə öldürmək gərək.***

***İnsan Özündəki İlanla – İradə Əməli vasitəsiylə döyüşür – İlanlığı Əməlsiz qoyur – Kamilliyə doğru İrəliləyir.***

## 5. ÖZÜNDƏKİ İNSANSIZLIQLA DÖYÜŞ

İnsanı İnsan eləyən ***İnamdır.***

Ancaq İnsanda İnamla Yanaşı, ***İnamsızlıq*** da Yaşayır.

İnamsızlıq – İnsana qarşıdır; İnsansızlıq İnsaniliyə qarşıdır.

Gərək İnamsızlığı Əməlsizləşdirəsən, onu Anlayasan, Duyasan – Rədd edəsən.

İnamsızlığı Əməlsizləşdirmək üçün İdrak Əməli gərək, Hissiyyat Əməli gərək, İradə Əməli gərək.

İnamsızlığın Hökmünə Əməl etməmək – İnsanilik Əməlidir.

***İnsanilik Əməli – İnamsızlığı öldürür.***

İnsanı İnsan eləyən – ***İdrakdır.***

Ancaq İnsanda İdrakla Yanaşı, – ***İdraksızlıq*** da Yaşayır.

İdraksızlıq – İdraka qarşıdır; İnsansızlıq – İnsana qarşıdır.

Onu Əməlsizləşdirmək gərək – Anlamaq, Duymaq – Rədd etmək gərək.

İdraksızlığa qarşı İdrak, Hissiyyat, İradə Əməli gərək.

İdraksızlığın hökmünə Əməl eləməmək – İnsanilik Əməlidir.

***İnsanilik Əməli – İdraksızlığı öldürür.***

İnsanı İnsan eləyən – ***Mənəviyyatdır.***

Ancaq İnsanda Mənəviyyatla Yanaşı, ***Mənəviyyatsızlıq*** da Yaşayır.

Mənəviyyatsızlıq – Mənəviyyata qarşıdır;

İnsansızlıq – İnsana qarşıdır.

Onu Əməlsizləşdirmək gərək – Anlamaq, Duymaq – Rədd etmək gərək.

Mənəviyyatsızlığa qarşı İdrak, Hissiyyat, İradə Əməli gərək.

Mənəviyyatsızlığın hökmünə əməl eləməmək – İnsanilik Əməlidir.

***İnsanilik Əməli – Mənəviyyatsızlığı öldürür.***

İnsanı İnsan eləyən – ***Vicdandır.***

Ancaq İnsanda Vicdanla Yanaşı, ***Vicdansızlıq*** da Yaşayır.

Vicdansızlıq – Vicdana qarşıdır; İnsansızlıq – İnsana qarşıdır.

Onu Əməlsizləşdirmək gərək – Anlamaq, Duymaq – Rədd etmək gərək.

Vicdansızlığa qarşı – İdrak, Hissiyyat, İradə Əməli gərək.

Vicdansızlığın hökmünə əməl eləməmək – İnsanilik Əməlidir.

***İnsanilik Əməli – Vicdansızlığı öldürür.***

İnsanı İnsan eləyən – ***Təmənnasızlıqdır.***

Ancaq İnsanda Təmənnasızlıqla Yanaşı, ***Təmənnaçılıq*** da Yaşayır.

Təmənnaçılıq – Təmənnasızlığa qarşıdır; – İnsansızlıq – İnsaniliyə qarşıdır.

***Təmənnaçılığı*** Əməlsizləşdirmək gərək – Anlamaq, Duymaq – Rədd etmək gərək.

Təmənnaçılığa qarşı – İdrak, Hissiyyat, İradə Əməli gərək.

Təmənnaçılığın hökmünə Əməl etməmək – İnsanilik Əməlidir.

***İnsanilik Əməli – Təmənnaçılığı öldürür.***

İnsanı İnsan eləyən – ***Fədakarlıqdır.***

Ancaq İnsanda Fədakarlıqla Yanaşı, ***Xudbinlik*** də Yaşayır.

***Xudbinlik*** – Fədakarlığa qarşıdır; İnsansızlıq – İnsaniliyə qarşıdır.

Gərək Xudbinliyi Əməlsizləşdirəsən – Anlayasan, Duyasan – Rədd edəsən – burada İdrak, Hissiyyat və İradə əməli gərəkdir.

Xudbinliyin hökmünə əməl etməmək – İnsanilik Əməlidir.

***İnsanilik Əməli – Xudbinliyi öldürür.***

Fədakarlıq – ***Cəsarət*** istəyir.

Ancaq İnsanda Cəsarətlə Yanaşı – ***Qorxu*** da Yaşayır.

Qorxu – Cəsarətə qarşıdır; İnsansızlıq – İnsana qarşıdır.
Gərək Qorxunu Əməlsizləşdirəsən – onu Anlayasan, Duyasan – Rədd edəsən, bunun üçün İdrak, Hissiyyat, İradə Əməli gərək.
Qorxunun hökmünə Əməl etməmək – İnsanilik Əməli Tələb edir.
***İnsanilik Əməli – Qorxunu öldürür.***
İnsanı İnsan eləyən – ***İradədir.***
Ancaq İnsanda İradəylə Yanaşı, İradəsizlik də Yaşayır.
Gərək İradəsizliyi Əməlsizləşdirəsən – Anlayasan, Duyasan – Rədd edəsən – bunun üçün İdrak, Hissiyyat, İradə Əməli gərəkdir.
İradəsizliyin hökmünə əməl etməmək – İnsanilik Əməlidir.
***İnsanilik Əməli – İradəsizliyi öldürür.***
İnsan Özündəki İnsansızlıqla İnsanilik Əməliylə Döyüşür, İnsansızlığı Əməlsiz qoyur, Kamilliyə doğru İrəliləyir.

## 6. MÜTLƏQ TƏLƏB

Kamilləşmə Əməli – Naqisliyi Əməlsizləşdirmək Əməlidir – Müdriklik və Hünər Tələb edən.

*Od Ayı, 18-ci il. Bakı.*
*(İyul, 1996-cı il).*

# DAXİLDƏN GERÇƏKLƏŞMƏK

## (Otuz üçüncü Müqəddəs Kitab)

# I. DAXİLİ DÜNYA – ZAHİRİ DÜNYA

***İnsan – Dünyanın Daxilindədir.***

İnsanla Dünyanın Daxili Mahiyyəti – Birdir.

İnsan Dünyaya səthi yanaşanda – Dünyayla Birliyini itirir; – ***Dünya adlanan Doğmasını itirir,*** – öz Mahiyyətindən Ayrılır.

Səthilik, Zahirilik İnsaniliyin gerçəkləşməsinə mane olur; İnsan natam gerçəkləşir; özünə Yetmir, çatmır.

Dünya İnsanın gözündə Zahiriləşdikcə – İnsanilik – Əksilir; Dünya İnsan üçün Səthi gerçəkləşdikcə – İnsanla Dünyanın Ahəngi pozulur; İnsanla Dünya arasında Zahiri münasibət Dünyanı İnsanın gözündə əksildir.

***Əksilmiş Dünya və əksilmiş İnsan yaranır.***

İnsan Dünyanın Daxildən gerçəkləşməsinə inanmasa, – Onu dərk edə bilməz, onunla Özü arasında Birliyi dərk edə bilməz – ***Özünü dərk edə bilməz.***

***Zahirilik – Quyudur; Quyuda Həqiqət adlı Günü görmək olmaz – Gün görmək olmaz.***

# 2. CƏMİYYƏT ZAHİRİLİYİ

***Cəmiyyət – Zahiri Həyatdır;*** İnsanın daxili Mahiyyətini ifadə eləmir; İnsanla Cəmiyyət arasında Daxili Yadlıq var; Cəmiyyət Zahiriliyi İnsanı Əsarətə salır; İnsan cəmiyyətdə İnsaniliyindən Ayrılır; Cəmiyyət – Zahirilik Buxovudur.

***Ağalıq*** – İnsanın Daxili Mahiyyətinə Zidd olan Zahirilikdir; İnsaniliyə qarşı – İnama, İdraka, Mənəviyyata, İradəyə qarşı çevrilmiş Zahirilik Zülmüdür, burada Zahiri – Daxilini ifadə eləmir, – rədd edir.

***Ağalığın*** yaratdığı Nizam – Zahiri Nizamdır: Mahiyyətcə Antiinsani nizamdır: – İnsanı Alətləşdirən, Əşyalaşdıran nizamdır, – Ağalıqda İnsan öz Daxili Mahiyyətindən Ayrı düşür.

***Ağalıq İnsanı İnsaniliyə qarşı çevirir.***

***Ağalığın Yaratdığı nizamda İnsanilik nizamı pozulur.***

***Nökərlik*** – İnsanın Daxili Mahiyyətinə Zidd olan Zahirilikdir – İnsanı Özümlüyündən eləyən: Nökərlikdə Daxili Ləyaqət itir. Nökər Zahiriliyində İnsan özünü itirir.

Nökərliyin yaratdığı nizamda İnsanilik nizamı pozulur.

***Nökərlik Səthiliyində İnsansızlıq Gerçəkləşir:*** – Zahiri Daxilini ifadə etmir – rədd edir.

***Zahiri Daxildən gerçəkləşmir – Daxilə qarşı Gerçəkləşir.***

***Zahirilik Zülmü Yaranır.***

***Təbəqəlik*** – İnsanın Daxili Mahiyyətinə Zidd olan – Zahirilikdir.

İnamsızlıqdır, İdraksızlıqdır, Mənəviyyatsızlıqdır, İradəsizlikdir.

Təbəqəliyin yaratdığı Nizamda İnsanilik Nizamı Pozulur.

İnsansızlıq Nizamı Yaranır.

İnamsızlıq Nizamı Yaranır.

İdraksızlıq Nizamı Yaranır.

İradəsizlik Nizamı Yaranır.

Zahiri Daxilini ifadə etmir – onu rədd edir.

Zahiri Daxiliyə Yad olur.

***Zahirilik Zülmü Yaranır.***

***Cəmiyyətdə İnsanilik Yadlığı Təsdiq olunur.***

***Ağalıq*** – İnsaniliyə Yad olur.

***Nökərlik*** – İnsaniliyə Yad olur.

***Təbəqəlik*** – İnsaniliyə Yad olur.

***Zahiri*** Daxiliyə Yad olur.

***Daxildən Gerçəkləşmək Tələbi yaranır.***

***Ağalığın*** aradan qaldırılması Tələbi yaranır.

***Nökərliyin*** aradan qaldırılması Tələbi yaranır.

***Təbəqəliyin*** aradan qaldırılması Tələbi yaranır.

***Cəmiyyətin Xəlqi Birliklə əvəz edilməsi Tələbi yaranır.***

## 3. DİN ZAHİRİLİYİ

Din İnsanı Özündən eləyir – ***Zahiriləşdirir.***

Dində İnsan Özü olmur, Özünə sahib olmur – ona Allah sahib olur, Dində İnsan özünə Yaramır, – Qismətə düçar olur; Qismətdən çıxa bilmir.

Dində İnsanın öz Dünyası Yoxdur; Allahın Bu Dünyası, O Dünyası var.

Dində Dünyanın ***Özümlüyü*** Yoxdur – Dünyalığı Yoxdur.

Dünyanın – yəni Allah tərəfindən Yoxdan yaradılmışın Varlığı var, – yəni Dünyanın varlığı – Özündən deyil – Allahdandır; – Dünya Daxildən gerçəkləşmir – Zahirdən gerçəkləşir.

Dində Həyatın ***Özümlüyü*** Yoxdur – Həyatlığı Yoxdur, o, Daxildən gerçəkləşmir – Zahirdən gerçəkləşir.

Dində İnsanın ***Özümlüyü*** Yoxdur, – o, Daxildən gerçəkləşmir – Zahirdən gerçəkləşir.

Dini İnamda (əslində İnamsızlıqda) Dünyaya İnam yoxdur, Həyata İnam Yoxdur, İnsana İnam yoxdur; orada İnam Mahiyyəti ifadə eləmir – rədd edir.

Din Özümlüyünü itirmiş Dünyanı, Həyatı, İnsanı təsdiq edir; – onları Özümsüz qoyur – əslində inkar edir.

Dində Dünya Özünü idarə etmir, Həyat özünü idarə etmir, İnsan özünü idarə etmir, onları Allah idarə edir.

***Dünya – Rəiyyətləşir.***

***Həyat – Rəiyyətləşir.***

***İnsan – Rəiyyətləşir.***

Dində İnsan özündən Məhrum olur.

İdrak əvəzinə – cəfəngiyyata tapınır.

Mənəviyyat əvəzinə – Təvəkkülə tapınır.

İradə əvəzinə – İtaətə tapınır.

Din İnsanı Daxili Mahiyyətdən Ayırır – Zahiriliyə qatır.

***Din – Zahiriliyin Daxililik üzərində Ağalığıdır.***

Dinin yaratdığı Nizam – Mənəvi Zülmdür.

Din – Daxildən Gerçəkləşmir, Daxili – Gerçəkləşdirmir; Daxili – Zahiriləşdirir; onu Zahirilik Əsarətinə salır.

Dində İnsansızlıq gerçəkləşir.

***İnsaniliyi gerçəkləşdirmək üçün Dini aradan qaldırmaq gərək.***

## 4. SİYASƏT ZAHİRİLİYİ

Siyasətdə Məqsəd Vasitədən Ayrılır, Əməl Əxlaqdan Ayrılır, Mənfəət Həqiqəti əvəz eləyir; – ***Siyasət – Yalanla Zəngindir, Oyunla Doludur; Nümayişlə – Fəaldır, Şüarla – Tutarlıdır.***

Siyasətçi Hakimiyyət Ehtirasına xidmət eləyir, – cəmiyyətə xidmət eləyir ki, Hakimiyyətini Yaşatsın. Xalqa xidmət eləyən görünür, bilinir; əslində Xalq Hakimə xidmət eləyir. Siyasətçinin əsas Ehtirası – Xalq üzərində Hakimiyyətdir.

Siyasət – Hakimiyyət Ehtirasından Gerçəkləşib – Xalqa məhəbbətdən gerçəkləşməyib, xalqa xidmət – əslində Vasitədir – məqsəd deyil; siyasətçinin Xalqı – Hakimiyyətdir; Hakimiyyəti itirmək – xalqa məhəbbəti itirməkdir.

***Siyasətçi İnamı – Qazanclı İnamdır;***

Siyasətçi Qazanclı olana inanır; onun Qazancdan kənarda İnamı yoxdur.

***Siyasətçi İnamı – Xüsusi İnamdır; – İnamdan Qazanc götürməkdir.***

Bu baxımdan Siyasətçi Ticarətçiyə yaxındır.

Hər ikisi Qazancsız İnama – İnanmırlar.

***Hər ikisinin İnamı – Qazancdır.***

***Bu səbəbdən Siyasətçi – ardıcıl Şəraitçidir,*** – Şəraitə Uyğunlaşır ki, ondan Qazanc götürsün.

***Şərait səviyyəsində Həqiqət Yoxdur, – bu səbəbdən Siyasətçinin Həqiqəti Yoxdur; Siyasətçinin Həqiqəti – Qazancdır.***

***Siyasətçi – ardıcıl Mühitçidir.***

Mühitə Uyğunlaşır ki, – ondan Qazanc götürsün.

***Mühit səviyyəsində Həqiqət Yoxdur; bu səbəbdən də Siyasətçinin Həqiqəti yoxdur. Siyasətçi Həqiqəti – Qazancdır.***

***Siyasətçi – ardıcıl Zamançıdır.***

Zamana Uyğunlaşır ki, ondan Qazanc götürsün.

***Zaman səviyyəsində Həqiqət Yoxdur; – bu səbəbdən də Siyasətçinin Həqiqəti Yoxdur. Siyasətçinin Həqiqəti – Qazancdır.***

***Siyasətçi – ardıcıl Cəmiyyətçidir.***

Cəmiyyətə Uyğunlaşır ki, ondan Qazanc götürsün.

***Cəmiyyət səviyyəsində Həqiqət Yoxdur; bu səbəbdən də Siyasətçinin Həqiqəti yoxdur.***

***Siyasətçinin Həqiqəti – Qazancdır.***

***Siyasətçi İdrakı – Qazanclı İdrakdır.***

Siyasətçi Qazanclı olmayanı – İdraklı saymır.

***Siyasətçi İdrakdan Qazanc götürür.***

Siyasətçi İdrakı Ticarətçi İdrakına Yaxındır.

Ticarətçi Pul qazanır; Siyasətçi Hakimiyyət.

***Hər ikisi Qazanca xidmət eləyir.***

Bu səbəbdən də Siyasətçi İdrakı – ***Şəraitçi*** İdrakıdır; – o, Şəraitə uyğunlaşır ki, ondan Qazanc götürsün.

Siyasətçi İdrakı – ***Mühitçi*** İdrakıdır; – o, Mühitə uyğunlaşır ki, ondan Qazanc götürsün.

Siyasətçi İdrakı – ***Zamançı*** İdrakıdır; – o, Zamana uyğunlaşır ki, ondan Qazanc götürsün.

Siyasətçi İdrakı – ***Cəmiyyətçi*** İdrakıdır; – o, Cəmiyyətə uyğunlaşır ki, ondan Qazanc götürsün.

***Siyasətçi Mənəviyyatı – Qazanclı Mənəviyyatdır – əslində Mənəviyyatsızlıqdır.***

***Siyasətçi Vicdan nümayişindən Qazanc götürür – bu Vicdansızlıqdır.***

***Siyasətçi Təmənnasızlığı – əslində Təmənnadır;***

***Siyasətçi Təmənnasızlıqdan – Təmənna götürür.***

Siyasətçi Fədakarlığı Xudbinlikdən Fərqlənmir.

Siyasətçi Fədakarlıqdan Qazanc götürür.

***Siyasətçinin Mənəviyyatı – Hakimiyyətdir.***

Siyasətçi İradəsi – Hakimiyyətçi İradəsidir.

O, Şəraitə qarşı durmur, – Şəraitə uyğunlaşır ki, ona Hakim olsun.

O, Mühitə qarşı durmur, – Mühitə uyğunlaşır ki, ona Hakim olsun.

O, Zamana qarşı durmur, – Zamana uyğunlaşır ki, ona Hakim olsun.

O, Cəmiyyətə qarşı durmur, – Cəmiyyətə uyğunlaşır ki, ona Hakim olsun.

***Siyasətdə – İnsan İnsaniliyindən Ayrılır ki, Hakimiyyətə Yetsin.***

Siyasət – Zahirilik Hakimiyyətidir – Daxili Mahiyyətə qarşı çevrilən.

İnsan Ruhaniyyatda Daxildən Gerçəkləşir, Zahirilik Hakimliyini rədd edir; Siyasət özgəliyinə qarşı Durur, Özümləşir.

## 5. TƏRƏQQİ ZAHİRİLİYİ

Adamı İnsana Yetirməyən – İnama Yetirməyən, İdraka Yetirməyən, Mənəviyyata Yetirməyən – onu Əşyalaşdıran, Maşınlaşdıran, Əməyi İnsana Yadlaşdıran Tərəqqi – Zahiri Tərəqqidir. Həyatı Zahiriləşdirən, İnsanı Daxili Mahiyyətdən Ayıran, ***Zahirdən gerçəkləşən.***

***Maddi Tərəqqi*** adıyla, ***İctimai Tərəqqi*** adıyla, ***Texniki Tərəqqi*** adıyla Həyatı İnsansızlaşdıran Zahirilik Ağalığıdır.

***Maddi Tərəqqi*** – İnsan üzərində Maddiyyat Ağalığı yaradır.

***Texniki Tərəqqi*** – İnsan üzərində Texnika Ağalığı yaradır.

***İctimai Tərəqqi*** – İnsan üzərində cəmiyyət Ağalığı yaradır.

Zahiri Daxili üzərində Ağalıq eləyir.

***Zahirilik Hakimiyyəti Yaranır.***

***Zahirilik Həyatı bürüyür, – Çoxalır, Artır, Daxililik Azalır.***

***Əksik Tərəqqi Yaranır.***

Tərəqqidə Zahirə İnam Daxilə İnamı Üstələyir – Zahiri möhtəşəmlik Daxili İnsaniliyə üstün gəlir.

***Maşına daha çox bel bağlayan İnsan Vicdana daha az bel bağlayır.***

Tərəqqidə İdrak Zahiriləşir; – Mahiyyətçiliyindən Ayrılır; – İradə Alətləşir; Tərəqqi – İradəni Alətləşdirir – Maddi Zənginlik Yaradan Tərəqqidə İnsan Mənən hədsiz dərəcədə Yoxsullaşır.

Zahiri Tərəqqi Daxili Tərəqqiyə çevrilmir, Adam İnsan olmur; İnam Tərəqqisi Yaranmır, İdrak Tərəqqisi Yaranmır, Mənəviyyat Tərəqqisi Yaranmır, İradə Tərəqqisi Yaranmır.

***Zahirilik İnsan Həyatına Hakim olur.***

***İnsana Daxili Tərəqqi gərək, İnsanilik Tərəqqisi; onda İnsan Zahirilik Ağalığından xilas olar; Daxildən Gerçəkləşər, özünə Yetər, Əməlinə sahib olar.***

## 6. NİSBİLİK ZAHİRİLİYİ

***Nisbilik – Zahirilikdir.***

***Nisbi Həqiqət*** – Zahiri Həqiqətdir; yəni əslində Həqiqətsizlikdir, – onda Yalan İmkanı Var; – Yalan imkanlı Həqiqət Həqiqət deyil.

***Nisbi Ədalət*** – Zahiri Ədalətdir; yəni əslində Ədalətsizlikdir, – onda Ədalətsizlik İmkanı Var; – Ədalətsizlik imkanlı Ədalət – Ədalət deyil.

***Nisbi Xeyir*** – Zahiri Xeyirdir; yəni əslində Xeyirsizlikdir, – onda Xeyirsizlik İmkanı Var; – Xeyirsizlik imkanlı Xeyir – Xeyir deyil.

***Nisbi İnam*** – Zahiri İnamdır; yəni əslində İnamsızlıqdır, – onda İnamsızlıq İmkanı Var; – İnamsızlıq imkanlı İnam – İnam deyil.

***Nisbi İdrak*** – Zahiri İdrakdır; yəni əslində İdraksızlıqdır, – onda İdraksızlıq İmkanı Var; – İdraksızlıq imkanlı İdrak – İdrak deyil.

***Nisbi Mənəviyyat*** – Zahiri Mənəviyyatdır; yəni əslində Mənəviyyatsızlıqdır, – onda Mənəviyyatsızlıq İmkanı Var; – Mənəviyyatsızlıq imkanlı Mənəviyyat Mənəviyyat deyil.

***Nisbi İradə*** – Zahiri İradədir; yəni əslində İradəsizlikdir, – onda İradəsizlik İmkanı Var; – İradəsizlik imkanlı İradə – İradə deyil.

Bəşərin İnsanilik halı – nisbilik səviyyəsindədir.

***Dostluğu*** – nisbi Dostluq səviyyəsindədir; nisbi Dostluqda – Yağılıq İmkanı Var, – Yağılıq İmkanlı Dostluq – Dostluq deyil.

***Məhəbbəti*** – nisbi Məhəbbət səviyyəsindədir; nisbi Məhəbbətdə – Nifrət İmkanı Var, – Nifrət İmkanlı Məhəbbət – Məhəbbət deyil.

***Tərbiyəsi*** – nisbi Tərbiyə səviyyəsindədir; nisbi Tərbiyədə – Tərbiyəsizlik İmkanı Var, – Tərbiyəsizlik İmkanlı Tərbiyə – Tərbiyə deyil.

***Ailəsi*** – nisbi Ailə səviyyəsindədir; nisbi Ailədə – Ailəsizlik İmkanı Var, – Ailəsizlik İmkanlı Ailə – Ailə deyil.

***Bəşər – Zahiriliyə Yetib; Daxiliyə Yetməyib – Yetişməyib.***

Nisbiyə çatıb – Mütləqə çatmayıb, kamilləşməyib, Daxilləşməyib.

***Daxilləşmək gərək, Kamilləşmək gərək ki, Özünə çatasan.***

## 7. MADDİYYATÇILIQ ZAHİRİLİYİ

***Maddiyyatçılıq – Maddiyyat Zəruriliyi deyil – Maddiyyat Hakimliyidir.***

Maddiyyatçılıq – Maddiyyatın İnsan Həyatı üzərində Mütləq Ağalığıdır, Həyatın Maddiyyata həsr olunması, sərf olunmasıdır.

***Maddiyyatçılıqda İnsan ömrünü Maddiyyat sərfinə sərf edir.***

***Maddiyyatçılıq – Qəti, Ardıcıl, Aramsız Zahirilik Ağalığıdır.***

Maddiyyatçı – Təzahürdən başqa – Mahiyyət tanımır; bu səbəbdən də ***Mahiyyətsizdir.***

Hadisədən başqa Məna tanımır, bu səbəbdən də ***Mənasızdır.***

Cismanidən başqa Ruhani tanımır, bu səbəbdən də **Ruhsuzdur.**

Biçimdən başqa – Məzmun tanımır, bu səbəbdən də ***Məzmunsuzdur.***

Vardan başqa – Güc tanımır, bu səbəbdən də ***Gücsüzdür.***

Maddiyyatçı Maddiyyata inandığı dərəcədə Ruhaniyyata inanmır; bu səbəbdən də ***İnamsızdır.***

Vicdan – maddi deyil, – bu səbəbdən də Maddiyyatçı Vicdana inanmır.

***Maddiyyat – Zəruridir.***

Ancaq Maddiyyatçılığı rədd etmək gərəkdir ki, insan Zahirilik əsarətindən azad olsun, Daxili Mahiyyətini gerçəkləşdirsin, – ***Daxildən gerçəkləşsin.***

## 8. DÜNYA BİRLİYİ – ZAHİRİLİYİ

Dünya Müxtəlifliyiylə – Birdir, – Müxtəliflikdən Ayrılan, Müxtəliflikdən kənarda, Müxtəliflik üzərində Təşkil edilən Xüsusi Dünya Birlikləri – Zahiri Birliklərdir.

***Ümumbəşərilik*** adlanan, ***İnteqrasiya*** adlanan, ***Millətlərin biri-birinə Yaxınlaşması*** adlanan, ***Yeni Dünya Qaydası*** adlanan Birliklər – Ağalıq Alətləridir – Zorakı Ağalığın Mədəni Ağalıqla əvəz edilməsidir.

Ümumbəşərilik Milliliyin Daxilində olmalıdır, Millilikdən Ayrılan xüsusi Ümumbəşərilik, Millətdən kənar Ümumbəşərilik, Millətüstü Ümumbəşərilik – Zahiri Ümumbəşərilikdir – Zorakı Ağalığın Mədəni Ağalıqla əvəz edilməsidir.

***Dünyəvi Birlik Təşkilatları – Dünya üzərində Ağalığı əbədiləşdirmək üçündür, Təşkilatlaşan Dünya – İtaətləşən Dünyadır.***

Dünya Birliyi adıyla Dünya Təzədən "Fəth olunur", – "mədəni surətdə" Fəth olunur.

Müxtəlifliklərdən Ayrılan Dünya hədsiz dərəcədə Zahiriləşir.

Müstəqil ölkələri Dünyaçı Təşkilatlarda Birləşdirirlər – Qeyri-Müstəqil "Müstəqillik" Yaradırlar.

***Eyniləşənlər Birliyi peyda olur.***

***Zahiri Birlikdə Müxtəliflik, Müstəqillik itir.***

Müxtəliflik, Müstəqillik itən Yerdə Ağalıq möhkəmlənir.

Ölkələri biri-birilərinə o tərzdə yaxınlaşdırırlar ki, ölkələr özlərinə bənzəməsinlər.

***Milli özünəməxsusluq – "Dünyaçı özgəyaməxsusluğa" çevrilir.***

***"Dünyəvi" Özgəçilik Milli Özümlüyü əvəz eləyir.***

Kommunistlər millətlərin biri-birilərinə Qovuşmasını, yox olmasını, Vahid millət, Vahid dövlət yaranmasını istəyirdilər. İndi kapitalistlər Vahidləşmə İdeyasını "sivilizasiyalı yollarla" həyata keçirirlər; "millətləri yox etmirlər" – "Birləşdirirlər", – Zahiriləşdirirlər.

***Kapitalist öz Xeyri üçün kommunizmdən bəhrələnir.***

***Dünya üzərində Birlik Təhlükəsi dolanır – Millətlərə qarşı çevrilən.***

***Millət – Bəşərin Daxildən gerçəkləşməsidir.***

***Bəşəri – Millətdən Ayırırlar ki, ona Ağalıq eləsinlər.***

***Millətləri – Zahiri Birliklərdən qorumaq gərək, Bəşərin Daxili Varlığını yaşatmaq gərək, Daxili gerçəkliyi Zahirilik Zülmündən Azad etmək gərək.***

## 9. DAXİLDƏN TƏZƏLƏNMƏK

***İnsan Həyatı – Dəyişir, ancaq Təzələnmir, çünki Zahirdən dəyişir, Daxildən Dəyişmir.***

İnsan Daxildən Dəyişməlidir ki, Həyat Təzələnsin. Zahiriliyə Üstün gəlsin, Daxildən Gerçəkləşsin – ***Daxilləşsin!***

*26 Arzu günü, Qürub Ayı, 18-ci il, Bakı.*
*Avqust, 1996-cı il.*

# GERÇƏKLİYİ ÖTMƏK

***(Şeiriyyət Ruhu)***

**(On səkkizinci Müqəddəs Kitab)**

## I

Şeiriyyət Əbədinin, Sonsuzun, Kamilin ifadəsidir; bu səbəbdən də o, Keçicini, Sonlunu, Qeyri-Kamili ötür; – Gerçəkliyi Mahiyyətə yüksəldir.

Şeiriyyət Nisbini Mütləqə çatdırır; – Gerçəklikdə Gerçəklikdən artıq olanı görür; Şeiriyyətdə Gerçəklik Əbədiləşir, Sonsuzlaşır, Kamilləşir.

Şeiriyyət Hadisəni sadəcə təsvir etmir, Mahiyyətə qaldırır, – Mahiyyət Gerçəklikdən Böyükdür, Artıqdır, Yüksəkdir; bu səbəbdən də Şeiriyyət Gerçəkliyi ötür.

Gerçəkliyə bərabər Şeiriyyət olmur – Şeiriyyət Ehtiyacı –əslində Gerçəkliyi ötmək Ehtiyacıdır.

## II

***Fələk sənin uca sərvinin kölgəsinə sığınmışdır.***

***Dünya öz İşığını sənin gözəlliyindən alır.***

***Ayın üzü onun camalı qarşısında bir qara xal kimiydi.***

***Onun gözəlliyi qarşısında göyün gözləri qamaşdı".***

***Onun çaldığı xoş havaları eşidərkən, Zöhrə ulduzu fələyin dövrəsinə fırlanırdı.***

***Şirinin səsinin məlahətindən havadakı quşlar, dənizdəki balıqlar yatırdı.***

***Ən iti küləklər belə bu atın ayağının tozuna çata bilməyəcəkdir.***

*(Nizamidən)*

Bu sətirlərdə Yalan yoxdur; burada Biçim Mahiyyətə çatır: – təxəyyül Mənaya xidmət eləyir, Xülyaya xidmət eləmir; – bənzətmələr Mənanı ifadə eləyir.

Şeir Gerçəkliyi təqlid etmir – tamamlayır.

Şeiriyyət əslində Gerçəkliyə qarşı durur; Gerçəklik Şeiriyyəti qane etmir; əks təqdirdə Şeiriyyətə ehtiyac olmazdı; gerçəklik Şeiriyyəti əvəz edərdi.

Gerçəkliyi Mahiyyətə yüksəldən Şeiriyyət – Gerçək Mahiyyətsizliyi inkar etməkdə, rədd etməkdə, lənətləməkdə qətidir.

“Əsası külək üzərində qurulmuş bu dünyaya çox da bel bağlama”.

“Dünyada heç bir şey daimi deyil, ona görə də dünyanın bütün varı bir dinara dəyməz”.

***Qalx ayağa, cahanla vidalaşıb köç daha,***
***Fitnə-fəsad yurdunda qala bilməz köç daha.***

***Özü qoca, qəlbi dar dünyaya bax, gəl indi,***
***Boyasına aldanıb sanma təzə gəlindi.***

***Fələk çadır qurubdur, gendən xoşdur süfrəsi,***
***Qan qoxuyur kasası, daim boşdur süfrəsi.***

***Aləm sənin məhbəsin, bilməlisən, bilməli,***
***Şimşək olub aləmə gülməlisən, gülməli.***

***Dünya həmişə iki üzlü olmuşdur –***
***O sənə gah rumlunu, gah zəncini göstərir.***

*(Nizamidən)*

Gerçəkliyi ötmək – Gerçəkliyin Mahiyyətinə yüksəlmək – gerçək Mahiyyətsizliyə qarşı durmaq, onu rədd etmək, inkar etmək bir şeydir: Gerçəkliyin Mənası – Əbədidir, Sonsuzdur, Kamildir, Təzahürü – Keçicidir, Sonludur, Qeyri-Kamildir: birini ötməsən, o birinə çatmazsan;

Gerçəkliyin Mənası – Gerçəklikdən artıqdır; bu səbəbdən də Ruh, İdrak, Mənəviyyat – Gerçəklikdə Nisbidə, Keçicidə, Qeyri-Kamildə dayanmır; onlardan yüksəyə qalxır; –

Şeiriyyət bu Ülvi, Əzəli İnsani Tələbatdan yaranıb.

## III

Şeiriyyət – daxili gözdür – o, zahiri gözün görmədiyini görür.

Şeiriyyətdə Gerçəklik özündən artıq görünür – Mahiyyətə bərabər, hadisələrdən Yüksək.

Şeiriyyət gerçəklik həddini ötür, Mahiyyət hədsizliyinə çatır; Şeiriyyət Gerçəkliyə Məna hədsizliyi gətirir.

***Şəmi-tövhidi-hidayətdir üzün,***
***Surəti-həqdən kinayətdir üzün,***
***Bibidayət, binəhayətdir üzün,***
***Həm nəhayət, həm bidayətdir üzün.***

*(Nəsimi)*

Sifətdəki Müqəddəsatı zahiri göz görə bilməz; Gerçək Görüm səviyyəsində sifət ülviliyi görünməz, sifətin Mənası – sifətdən artıqdır; Cismaniliyin Mənası – Ruhanidir; Ruhani Cismanilikdən artıqdır, yüksəkdir, böyükdür – cismanilikdə ruhaniliyi görmək üçün cismanini ötməlisən, Mahiyyətə çatmaq üçün Təzahürü ötməlisən.

***Aşiqə iman ilə dindir üzün,***
***Bir adi bütxaneyi-çindir üzün,***
***Əbcədü tahavü yasindir üzün,***
***Ərşi-Kursi Turi-sindir üzün.***

*(Nəsimi)*

Surətdə Din-İman görmək üçün Sifətə – İnam, İdrak, Mənəviyyat, İradə Mütləqiliyindən baxmaq gərək:

***Ey Süleyman məntiqində quş dili öyrənməyən,***
***Divə uymuşsan, anunçün tabei-əfsanəsən.***

*(Nəsimi)*

Şeiriyyət əslində çətin görümdür, ağır görümdür, xüsusi görümdür; Gerçəkliyə sığmayan görümdür: Mənanı görmək üçün Gerçək Görümü ötməlisən.

***Yazılıdır səhfəsində surətin inna-fətəh,***
***Şərf-hərf anın üzündə xətti-Quran gizlidir.***

*(Nəsimi)*

Şeiriyyət Dünyada, İnsanda, Həyatda Gerçək keyfiyyətlərdən yüksək olan keyfiyyətlər görür; Gerçək Təzadlardan yüksək olan Təzadlar görür; Gerçək Vəhdətdən artıq olan Vəhdət görür;

Şeiriyyətdə əslində təzə gerçəklik peyda olur – Mənaya, Mahiyyətə çatan.

***Zahid mənəm, abid mənəm, asi mənəm, fasiq mənəm,***
***Mömin mənəm, kafir mənəm, mən külli-insan olmuşam.***

*(Nəsimi)*

Gerçək genişlikdən artıq genişlik kəsb edir İnsan şeiriyyətdə; – Gerçək Zənginlikdən artıq Zənginlik kəsb edir; Gerçəklik həddindən çıxır – hədsizlik qazanır və bu, Yalan olmur – Həqiqət olur, Məna aşkarlanır, Mahiyyət aşkarlanır.

***Gəl gör məni batində kim, nə gizli gəncəm fanisiz,***
***Zahirdə gör bu surəti aləmdə viran olmuşam.***

*(Nəsimi)*

Daxildə, Mahiyyətdə, Mənada İnsan – sonsuzdur, əzəlidir, əbədidir, kamildir; Zahirdə – Sonludur, Keçicidir, Qeyri-Kamildir; Şeiriyyət daxildəki İnsanı görür, göstərir; – Zahirdə Zahirə sığmayanı görür – göstərir; – Hürufi Dünyabaxışı Şeiriyyətə doğmadır.

***Haqq-təala adəm oğlu özüdür.***
***Otuz iki həqq kəlamı sözüdür.***
***Cümlə-aləm bil ki, allah özüdür.***
***Aləm ol candır ki, günəş üzüdür.***

*(Nəsimi)*

Dünyanın mənasına çatmaqla – dünya mənasızlığını rədd etmək birdir şeiriyyətdə; İnsaniliyə yaramayan Gerçəklik – İnkara layiqdir.

***Ey ruhu-qüdüs, cifeyi-murdarə yapışma,***
***Gülzari-cinani qoyuban xarə yapışma.***

***Cifədir dünya, anın talibləri adi gilab,***
***Olma kəlb anın kim, oldu adı murdar, istəmə.***

***Varlığı fanidir, ey qafil, bəqasız dünyanın,***
***Şol bəqasızdan bəqa mümkün deyil var, istəmə.***

***Cahanı tərk edib bezdim cahandan,***
***Cahan oldum, cahan oldum haçandan.***

*(Nəsimi)*

Gerçəkliyə qarşı Dünyanın Mahiyyəti, Keçiciliyə qarşı Əbədilik, Sonluya qarşı Sonsuzluq, Qeyri-Kamilliyə qarşı Kamillik – Şeiriyyət Dünyasının Əzəli Tələbləri bunlardır.

## IV

Füzuli Fikri Zaman-Mühit-Şərait Fikrinə qarşıdır; Füzuli Duyğusu Zaman-Mühit-Şərait Duyğusuna qarşıdır; Füzuli Eşqi Zaman-Mühit-Şərait Eşqinə qarşıdır; Füzuli Əməli Zaman-Mühit-Şərait Əməlinə qarşıdır; Füzulilik – Gerçəkliyi ötür, Müqəddəsliyə çatır.

***Dövr sərməsti-şərabi-qəflət etmiş aləmi,***
***Munca sərməstin tamaşasinə bir huşyar yox.***

Füzuli sərməstliyi Dövran sərməstliyinə qarşıdır; Füzuli sərməstliyi – Eşqdir, Dövran sərməstliyi – Xurafat; bu səbəbdən də Füzuli sərməstliyi əslində ayıqlıqdır, oyaqlıqdır; Dövran sərməstliyi isə Yuxudur; Füzuli sərməstliyi – İşıqdır, Dövran sərməstliyi – Zülmət; Füzuli sərməstliyi – Həqiqətdir; Dövran sərməstliyi – Yalan; Füzuli sərməstliyi – Kamillikdir, Dövran sərməstliyi – Naşılıq; Füzuli öz sərməstliyiylə Gerçəkliyi ötür, Müqəddəsliyə çatır.

***Eşq dərdiylə xoşam, əl çək əlacımdan, təbib,***
***Qılma dərman kim, həlakim zəhri-dərmanındadır.***

Füzuli Dərdi Dövran Dərdinə qarşıdır – Eşq Dərdi Dərman istəməz, Dövran Dərdi, Var Dərdi, Dövlət Dərdi, Xof Dərdi, Kef Dərdi dərman istəyər, Eşq Dərdi – Təbibdir: – Füzuli dərdində Gerçəkliyi ötür, Müqəddəsliyə çatır.

***Mərəzi-dərdi-eşqəm tərki-aləmdir muradım kim,***
***Bu naxoş mülkdə əyləndikcə zəhmətim artar.***

Füzuli İstəyi Dövran istəyinə qarşıdır: – Eşqin gücüylə dünyadan yüksəyə qalxmaq diləyir Füzuli; – Ülvi mərəzində o, Gerçəkliyi ötür, Müqəddəsliyə çatır.

***Ey olan sakini-məscid nə bulubsan, bilməm,***
***Buriyasında onun buyi-riyadən qeyri?***

Füzuli İnamı – Dövran İnamına qarşıdır; Riyaya, Boyaya qarşıdır; Eşq vasitəsilə Riyayla, Boyayla Döyüşür Füzuli; Gerçəkliyi ötür, Müqəddəsliyə çatır.

***Fəzayi-eşqi kim gördüm, səlahi-əqldən durəm,***
***Məni rüsva görüb eyb etmə, ey naseh ki, məzurəm.***

Füzuli İdrakı Dövran Əqlinə qarşıdır: O gerçək Əql səddini aşır, bu səbəbdən də divanəlik sayılır; Füzuli ləyaqəti Dövran ləyaqətinə qarşıdır; bu səbəbdən də ləyaqət sayılmır, qəbahət sayılır; Füzuli Divanəliyi Dövran ağlıyla döyüşür; Füzuli Rüsvayçılığı Dövran ləyaqətiylə döyüşür; Füzuli Divanəliyində, Rüsvayçılığında Gerçəkliyi ötür, Müqəddəsliyə çatır.

***Bəlayi-eşqü dərdi-dust tərkin qılmazam, zahid,***
***Nə müştaqi-behiştəm sən kimi, nə talibi-hurəm.***

Füzili İnamı Dövran Xülyasına qarşıdır, burada cənnət nəşəsinə, hurilər eyşinə yer yoxdur: Eşqin gücüylə Füzuli Dövran Yalanıyla döyüşür – Gerçəkliyi ötür, Müqəddəsliyə çatır.

***Çox olduqca qəmi-dərdim rahi-eşq içrə xoşhaləm,***
***Füzuli, şad olub, şükr etməyimmi, nemətim artar.***

Füzuli Varı – Dövran Varına qarşıdır: Eşq Sərvətiylə Zəngindir Füzuli; – Eşq Varıyla o, Dövranla döyüşür: Gerçəkliyi ötür, Müqəddəsliyə çatır.

***Giriftari-qəmi-eşq olalı azadeyi-dəhrəm,***
***Qəmi-eşqə məni bundan betər, yarəb, giriftar et.***

Füzuli Aşiqliyi Dövran əsarətinə qarşıdır; Füzuli Aşiqliyin Gücüylə Dövran əsarətiylə döyüşür, Gerçəkliyi ötür, Müqəddəsliyə çatır.

***Hər küdurətdən məni pak etdi seyli-xuni dil,***
***Şükr lillah, atəşi-eşqin məni yandırır pak.***

Füzuli halı Dövran halına qarşıdır; Küdurətdən azad, pak aşiq Mənəviyyatı Dövran halıyla – həqarət və hərcayiliklə döyüşür; Saflığın Gücüylə Füzuli Gerçəkliyi ötür, Müqəddəsliyə çatır.

***Dəyirman danə üçün cizgidir, bihudə dövr etməz.***
***Mücərrədsən, könül, vəhm etmə çərxin inqilabindən.***

Füzuli Təcridi Dövran ötəriliyinə, keçiciliyinə, qeyri-kamilliyinə, dəyişkənliyinə qarşıdır: Təcrid vasitəsiylə Füzuli Dövran Mahiyyətsizliyiylə döyüşür; – Gerçəkliyi ötür, Müqəddəsliyə çatır.

***Həyat sərf edibən, dərd qılmışam hasil,***
***Sirişki-Alü ruxi-zərd qılmışam hasil.***

Füzuli Həyatı Dövran həyatına qarşıdır: İlahi Dərd qazanıb Füzuli hərcayi Sevinclilər arasında; İlahi Kədərində Gerçəkliyi ötüb, Müqəddəsliyə çatıb.

***Ey Füzuli, navəki-ahimlə aldım intiqam,***
***Dönə-dönə gərçi bidad etdi çərxi-dun mənə.***

Füzuli Ahı Dövrana qarşıdır; Füzuli Ahı Dövranla döyüşür; Füzuli Ahında Dövranı ötür, Müqəddəsliyə çatır.

***Rahi-eşq içrə mənə ancaq fəna məqsud idi,***
***Şükr kim, məqsudə yetdim, intizarım qalmadı.***

Füzuli Qisməti Dövrana qarşıdır: Aşiq Fədailiyi Dövranla döyüşür; – Gerçəkliyi ötür, Müqəddəsliyə çatır.

***Ey Füzuli, el qamu əğyarım oldu yar üçün,***
***Suzi dildən qeyri bir dilsuz yarım qalmadı.***

Füzuli Yanğısı Dövrana qarşıdır: Ürək Yanğısının Gücüylə döyüşür Dövranla Füzuli; Gerçəkliyi ötür, Müqəddəsliyə çatır.

***Hər tərəf yüz qəm həlakim qəsdin imiş, tanrıyçün,***
***Bir dəm ey gözdən axan xünabə qıl pünhan məni.***

Füzulinin göz yaşı Dövrana qarşıdır – Göz yaşı Füzulini dövrandan qoruyur, Füzuli göz yaşıyla Dövranla döyüşür – Gürçəkliyi ötür, Müqəddəsliyə çatır.

***Yaşım təxti-rəvandır, taci-zərrin şöleyi-ahim,***
***Görün kim, dövləti-eşq ilə nə sultanlığım vardır.***

Füzuli Ahı Dövrana qarşıdır: Dövran sultanlığına qarşı sultanlıqdır: Ahıyla döyüşür Dövranla Füzuli – Gerçəkliyi ötür, Müqəddəsliyə çatır.

***Ey Füzuli, müttəsil dövran müxalifdir mana,***
***Ğaliba ərbabi-istedadı dövran istəməz.***

Füzuli istedadı Dövrana qarşıdır, istedad Dövranla döyüşür; Gerçəkliyi ötür, Müqəddəsliyə çatır.

***Ruzi-hicrandır, sevin, ey mürgü-ruhim kim, bu gün***
***Bu qəfəsdən mən səni əlbəttə azad eylərəm.***

Füzuli hicranı Dövrana qarşıdır: Hicran Əzabıyla, Dəhşətiylə Dövranı rədd edir Füzuli; Gerçəkliyi ötür, Müqəddəsliyə çatır.

***Tövqi-zənciri-cünun dairəyi-dövlətdir,***
***Nə rəva kim, məni ondan çıxara zəfi-tənim.***

Füzuli “Divanəliyi” Dövrana qarşıdır; “Divanəliy”lə rədd edir, inkar edir Dövranı Füzuli; – Gerçəkliyi ötür, Müqəddəsliyə çatır.

***Ey Füzuli, çox məlamətdən məni mən etməgil,***
***Mən nihali-gülşəni-dərdəm, məlamətdir bərim.***

Füzuli Dərdi Dövrana qarşıdır; Dərd gücüylə Dövranla döyüşür Füzuli, Gerçəkliyi ötür, Müqəddəsliyə çatır.

***Biz cahan məmurəsin mənidə viran bilmişiz,***
***Afiyət küncün bu viran içrə pünhan bilmişiz.***

Füzuli İmtinası Dövrana qarşıdır: İmtinayla rədd edir, inkar edir Dövranı Füzuli, Gerçəkliyi ötür, Müqəddəsliyə çatır.

***Əgər su damənin tutdum, rəvan döndərdi üz məndən,***
***Və gər güzgüdən umdum sidq, əksi-müddəa gördüm.***

Füzuli Fəlakəti Dövrana qarşıdır: Fəlakətiylə rədd edir, inkar edir Dövranı Füzuli; Döyüşür Dövranla; Gerçəkliyi ötür, Müqəddəsliyə çatır.

Dövranı vəsf edən şeiriyyət olmur, çünki Müqəddəs Dövran olmur; Şeiriyyətin Məqsədi – Müqəddəslikdir; – Müqəddəslik gerçəklikdən Yüksəkdir; bu səbəbdən də Şeiriyyət Gerçəkliyi ötür.

## V

Hafizdə Meyxanə – Məscidə, Aşiqlik – Zahidliyə, İnsan – Dövrana qarşıdır.

Meyxanə – Eşqi, Həqiqəti təmsil eləyir; Məscid – Xurafatı, Yalanı; İnsan – Ülviyyəti; Dövran – Fəlakəti; Hafiz Eşqində, Həqiqətində Gerçəkliyi ötür, Mahiyyətə çatır.

***Taqi, rəvaqi, mədrəsəni, qilü-qalı biz***
***Etdik fəda o camilə, saqilə işrətə.***

Eşq, Həqiqət Meyi-Xülyaya qarşıdır, Məhəbbət Saqiliyi Mədrəsə Vaizliyini rədd edir: Sevgi Dərsi Ehkam Tədrisinə qarşıdır: Eşq adlı Kitabı var Hafizin, Ehtizaz adlı Halı – Gerçəklikdən Üstün.

***Ömrü sərf eyləmişəm yar ilə, meyxanə ilə,***
***Tozlu-torpaqlı məscidlər bucağından nə olur?***

Eşq məkanə – Dövrana qarşıdır Hafizdə; Yarla görüş – Yalanla görüşə qarşıdır: Eşq adlı Məkanı var Hafizin, Yarla görüş adlı Müqəddəs Halı var – Gerçəklikdən Üstün.

***Tərk edib var-dövləti, Hafiz, keçir əyyamı-xoş,***
***Sən demə ömr eyləyər dünyada o sultan gözəl.***

Məhəbbət Sultanlığa qarşı durur Hafizdə; Məhəbbət adlı Sultanlığı var Hafizin – Gerçəklikdən Üstün.

***Canan ayağını öpmək olsa sənə müyəssər,***
***Artıq o şahdan artıq, Hafiz, sənin cəlalın.***

Aşiqlik Şahlığa qarşı qoyulur Hafizdə; Aşiqlik adlı Şahlığı var, cəlalı var Hafizin – Gerçəklikdən Üstün.

***Tərk eylə, gülüm, dini; geyin rind libası,***
***Pak qəlbin ilə cəhd elə məşhuri-cahan ol.***

Eşq Paklığı – Xurafat Yalanına qarşı durur Hafizdə, Aşiqlik adlı Paklığı var Hafizin – Gerçəklikdən Üstün.

***Bu cahandan bizə bir sevgili canan bəsdir,***
***Bu çəməndən bizə bir sərvi-xuraman bəsdir.***

Eşq cahandan artıqdır Hafizdə, Eşq adlı Cahanı var Hafizin – Gerçəklikdən Üstün.

***Mən riya əhli ilə ülfəti qət eyləmişəm,***
***Mey ilə olsa əgər dostluğa imkan, bəsdir.***

Eşq sərməstliyi Riyaya qarşıdır Hafizdə, Eşq adlı Sərməstliyi var Hafizin – Riyadan uzaq, Gerçəklikdən Üstün.

***Var-dövlətin dalınca şahlar qaçar həmişə,***
***Bəxşiş olub əzəldən dövləti dərvişlərin.***

Aşiqlik səxavəti – Hökmran Sərvətinə qarşı qoyulur Hafizdə; Səxavət adlı Sərvəti var Aşiqin – Gerçəklikdən Üstün.

***Qəm gələndə sel kimi, möhkəm dayan, sən dağ kimi,***
***Yıxmasın dövran səni, dünya əgər tufan ola.***

Aşiqlik – Dövran selinə qarşıdır Hafizdə, Hafizin Aşiqlik adlı Dağı var – Gerçəklikdən Üstün.

***Soydu bu dövran bizi, yox qorxumuz heç kimsədən,***
***Müflisik, müflisləri qorxutmayın divan ilə.***

Hafiz Müflisliyi Dövrana qarşıdır: Müflislik adlı möhtəşəmlik var Aşiqlikdə – Gerçəklikdən Üstün.

***Fələk həmişə verir İqtidarı nadanə,***
***Sən əhli-fəzlsən, ancaq budur günah sənə.***

Aşiq İqtidarsızlığı Dövrana qarşıdır; Aşiq İqtidarsızlığı – İqtidardır – Gerçəklikdən Üstün.

***Aşiqəm, məstanəyəm, Hafiz, bunu təkrar elə,***
***Aşiqəm yarə; işim yox küfr ilə, İman ilə.***

Aşiqlik Dövran İmanına qarşıdır: Eşq adlı İnamı var Hafizin – imandan, küfrdən artıq – Gerçəklikdən Üstün.

***Demə Hafiz fəqirdir, ey dost,***
***Qəlbi bir xəznədir məhəbbətinə.***

Aşiq Fəqirliyi Dövrana qarşıdır; Fəqirlik adlı Xəzinə gəzdirir ömründə Aşiq – Gerçəklikdən Üstün.

***Gözlərindən sənin, ey əqli sönük, kor zahid,***
***Xilqətin sirri müdam dəhrdə pünhan olacaq.***

Aşiq İdrakı Zahid İdrakına qarşıdır: Eşqsiz – Kordur, Mənanı görmür; Aşiq – Gerçəkliyi ötür, bu səbəbdən də Mənanı görür.

***Verməröm mən yolunun torpağını dildarın,***
***Zahidin hurisinə, qılmanına, cənnətinə.***

Aşiqlik – Qaranlığa qarşıdır – hurilər, pərilər, cənnət-cəhənnəm Qaranlığına; – Yalan Qaranlığına qarşıdır; Aşiqlik – Həqiqətə çatır, çünki Gerçəkliyi ötür.

***Çörəyini yemə gəl sən fələyin, rədd eylə,***
***Bu qara süfrəlinin hörməti yox mehmana.***

Sevməyi bacaran İmtinanı bacarar: Eşqə çatan – Dünyanı ötər; Aşiqin öz Dünyası olur – Gerçəklikdən Üstün.

***Unutma hiylə ilə fitnə yağdırır əyyam,***
***Müyəssər eylə nigarınla bir qədəh badə.***

Aşiqlik Fitnə və hiyləyə qarşıdır: Aşiqin Eşq adlı Saflığı var – Gerçəklikdən Üstün.

***Bütlərin eşqi zamandır ki, mənim dinimdir,***
***Bu yolun dərdi bütün qəmlərə təskinimdir...***

Aşiqlərin Eşq adlı Dini var – Rəsmi Dinə qarşı duran; – Gerçəkliyi ötən; Aşiqlik – Dindarlıqdır – Rəsmi Dindarlığa qarşı duran – Gerçəkliyi ötən; – Aşiqlik adlı Müqəddəslik var – Gerçəklikdən Üstün.

***Sən güman etmə ki, dünyada səbat olmalıdır,***
***Bu bir karxanadır ki, gecə-gündüz dəyişir.***

Eşq – Səbatlıq Timsalıdır, Dünya – Dəyişkənlik Timsalı.
Eşq Dünya Dəyişkənliyinə qarşıdır – Gerçəklikdən Üstündür.

***Uçar həyatda bütün qəsrlər, imarətlər,***
***Məhəbbətin sarayı heç zaman xarab olmaz.***

Aşiqlik – ötəriyə, keçiciyə, sonluya, qeyri-kamilə qarşıdır – Gerçəklikdən Üstündür.

Şeiriyyət – Gerçəklikdən Üstün olan Mahiyyətin Dərki və İzharıdır.

## VI

Şeiriyyət – İnsanı təsvir etmir, Mahiyyətə çatdırır, onda Görünməyəni Görsədir, Bilinməyəni bildirir;

***Məni məndə demə: məndə deyiləm,***
***Bir mən vardır məndə məndən içəri.***

*(Yunus İmrə)*

Şeiriyyət Zahiri İnsanı ötüb – İçəri İnsana çatır: İçərilik – Zahirə sığmayan Mahiyyətdir – Təzahürdən artıq; Şeiriyyət İçəriliyə Yüksələ bilir, bu səbəbdən də Gerçəkliyi ötür.

***Sevirəm mən səni candan içəri,***
***Yolum vardır bu ərkandan içəri.***

*(Yunus İmrə)*

İnsanda Candan, Ömürdən, Aqibətdən, Görünəndən, Bilinəndən artıq, böyük, yüksək olan var: İnsanilik – Cana, Ömrə, Aqibətə, Görünənə, Bilinənə sığmır, – Gerçəklikdən Üstün olur.

***Süleyman quş dilin bilir dedilər,***
***Süleyman var Süleymandan içəri.***

İnsanilik Tükənməzlik istəyir, İnsan Ömrü, Təzahürü, Aqibəti isə tükənir; İnsanilik Əbədilik istəyir – İnsan Ömrü, Təzahürü, Aqibəti isə keçicidir; İnsanilik – Sonsuzluq istəyir, İnsan Ömrü, Təzahürü, Aqibəti isə sonludur; İnsanilik Mütləqilik istəyir, İnsan Ömrü,

Təzahürü, Aqibəti isə nisbidir; İnsan İçəriliyi – sirli, sehrli bir Dünyadır – Gerçəkliyə sığmayan; – Hikmətdən artıq.

***Bir saray yapmaq gərək,***
***Kimsə əldən almaz ola.***
***Bir gül ələ almaq gərək,***
***O gül heç vaxt solmaz ola.***

*(Yunus İmrə)*

Alınmayan, dağılmayan saray tanımır Gerçəklik, ancaq İnsanilik Gerçəkliyi ötür; alınmayan Saray diləyir; Solmayan gül tanımır Gerçəklik, ancaq İnsanilik Gerçəkliyi ötür, solmayan gül diləyir.

***Mənim burda qərarım yox,***
***Mən burdan getməyə gəldim.***

İnsanilik Gerçəkliyə sığmır, sığa bilməz, çünki Gerçəklik Nisbiliyi, Keçiciliyi, Sonluluğu, Qeyri-Kamilliyi ifadə eləyir; İnsanilik isə – Mütləqiliyin, Sonsuzluğun, Əbədiliyin, Kamilliyin rəmzidir: Gerçəklik İnsaniliyə yaramır – İnsan Gerçəkliyi ötür, Ötməlidir.

Şeiriyyət – İnsaniliyin dərki və izharıdır; bu səbəbdən də Gerçəkliyi ötür, Ötməlidir.

## VII

Şeiriyyət – Sadəlik tanıyır, Adilik tanımır; Şeiriyyətdə Adilik – Mənaya çatdırılır; Adiliyin Qeyri-Adi Mahiyyəti ifadə olunur; Şeiriyyətdə Adi Adiliyindən çıxır; – Adi Mahiyyət olmur – bu səbəbdən də Adi Şeiriyyət olmur.

***Payızın fəslində bostan içində,***
***Şamamanın tağı yadıma düşdü.***

*(S.Vurğun)*

Burada adi anım Kənd həyatının Rəmzi səviyyəsinə qalxır, cismani cismaniliyindən çıxır; – Ruhani Mahiyyət kəsb edir:

Şeiriyyət Adiliyi ötür – Qeyri-Adiliyə çatır.

***Ceyranın duruşu, durnanın gözü,***
***Kəkliyin ayağı yadıma düşdü.***

*(S.Vurğun)*

Burada cismani Ruhanilik ifadə edir; Kənd Həyatının Mahiyyəti aşkara çıxır; Şeiriyyət Adiliyi ötür – Qeyri-Adiliyə çatır.

***Bizim gəlinlərin bayram qabağı***
***Fəsəli yaymağı yadıma düşdü.***

*(S.Vurğun)*

Burada Maddi Ruhanini ifadə eləyir: cismani cismaniliyindən çıxıb: Şeiriyyət Adiliyi ötüb, Qeyri-Adiliyə çatıb.

***Nişanlı qızların görüşdən qabaq***
***Telini saymağı yadıma düşdü.***

*(S.Vurğun)*

Burada Adi Hal Mahiyyət səviyyəsinə yüksəlib, Adilik Qeyri-Adiliyə çatıb.

***Qışın buz qatığı, yazın ayranı,***
***Payızın qaymağı yadıma düşdü.***

Burada Adilik Mahiyyət ifadəsi səviyyəsinə qalxır, cismani Ruhani Məna kəsb edir; Kənd Həyatı – Rəmzləşir: Şeiriyyət Adiliyi ötür, Qeyri-Adiliyə çatır.

## VIII

İnsanilik Gerçəkliyə sığmır, İnsan İstəyi Ömrə sığmır: –İnsan İdrakında, Duyğularında Gerçəkliyi Ötür.

***Gah olur ki, ovçu könlüm dağlar aşaraq,***
***Asta gedib, ağır gəzib, ellər dolanır,***

***Səssiz keçən günlərimlə vidalaşaraq,***
***Haray çəkib, qıy qoparıb, çöllər dolanır.***
*(S.Vurğun)*

İnsanilik – Hala sığmır, Vaxta sığmır, Zamana sığmır, Məkana sığmır; Hədsizliyə, Sədsizliyə can atır – Şeiriyyət gerçəkliyi ötür.

***Gah da açıb qollarını bir ruzgar kimi,***
***Karvanımı eldən-elə sürüb köçürəm,***
***Ürəyimdə bir dünyanın gücü var kimi***
***Dənizlərdən dənizlərə üzüb keçirəm.***
*(S.Vurğun)*

İnsanilik gerçək, nisbi, məhdud imkana sığmır – Mütləq imkana çatır – Şeiriyyət Gerçəkliyi ötür.

***Bu boyda dalğaların polad cərgəsi,***
***Sinəm üstdən aşıb keçir neçə qatarla.***
***Neyləyəcək iradəmə dəniz lərzəsi,***
***Kim istəməz çarpışmağa fırtınalarla?***

Gerçəklik İnsanilik üçün azdır; İnsanilik – İstəkdə, Arzuda daha tam aşkarlanır; Şeiriyyət Gerçəkliyə sığmayan İstəyi, Arzunu ifadə eləyir; bu səbəbdən də Gerçəkliyi ötür.

***Arabir də sakit axan bir su yanında***
***Fikrə gedib danışıram yalnız ürəklə.***
***Arzularım çaylar kimi axır qanımda,***
***Kimin qəlbi döyünməyir min bir diləklə?***

Daxili Dünya – Qəlb Dünyası – Zahiri Dünyaya sığmır, İnsanilik – Ürəkdə daha tam aşkarlanır: bu səbəbdən də İnsaniliyi ifadə eləyən Şeiriyyət Gerçəkliyi ötür.

***Deyirəm ki, uzaq yolda susuzluq çəkən***
***Bir insanın yollarında bulaq olaydım.***

***Bir quşcuğun yuvasını yıxanda ruzgar,***
***Dimdiyimdə çör-çöp yığıb yuva quraydım.***

*(S.Vurğun)*

İnsanilik – Sonsuzluq Ehtirasıdır; Gerçəklikdən artıq, yüksək, böyük: Sonsuzluq Ehtirasını ifadə edən Şeiriyyət – Gerçəkliyi ötür.

***Bu dünyaya neçə min il gəlib sonradan,***
***Gücüm çatıb uzadaydım günün ömrünü.***
***Göy üzündə Günəş ilə qoşa gəzəydim,***
***Yer üzündə mən olaydım hüsnü xilqətin.***

*(S. Vurğun)*

İnsanilik – Gerçəklikdən böyükdür, yüksəkdir; İnsan bu böyüklüyü, yüksəkliyi Mütləq İstək halında yaşadır: İnsaniliyi ifadə eləyən Şeiriyyət – Gerçəkliyi ötür.

***Deyirəm ki, bayram günü çöldə, çəməndə,***
***Ürəklərə nəğmə tutan bir ney olaydım.***
***Mən özümü bu dünyada, dünyanı məndə***
***Dərk eləyib məna dolu hər şey olaydım.***

*(S.Vurğun)*

Dünyanın Mənasını özündə gəzdirən İnsan "hər şey olmaq" istəyir; Ömür, Həyat buna imkan vermir; İstək ömrü üstələyir; – İnsaniliyi ifadə eləyən Şeiriyyət Gerçəkliyi ötür.

***... Xoş olsa da bu düşüncələr,***
***Bir kainat bir ürəyə sığışa bilməz.***

*(S.Vurğun)*

İnsanilik adlanan Kainat Ürəyə sığır əslində; Ürək Gerçəkliyi ötməsə – Ürək olmaz: – Şeiriyyət Gerçəkliyi ötməsə –Şeiriyyət olmaz.

## IX

Adam – İnsanilik üçün azdır; Adam İnsaniliyi ifadə edə bilmir; Şeiriyyət Adamdan artıq olan İnsaniliyi ifadə edir – Gerçəkliyi ötür.

***İnsanların mahnıları özlərindən,***
***Gözəldir, özlərindən ümidli,***
***Özlərindən kədərli.***
***Daha uzun ömürlü özlərindən.***
***Sevdim insanlardan çox mahnılarını.***

*(N. Hikmət)*

İnsanların mahnıları özlərindən gözəldir, çünki İnsanilik Adamdan gözəldir; Məna – Təzahürdən gözəldir; Əbədi – Keçicidən gözəldir; Əzəli – Ötəridən gözəldir; Sonsuz – Sonludan gözəldir; Kamil – Qeyri-Kamildən gözəldir.

***İnsanların çoxu ac olsa da,***
***Çoxu çirkin,***
***Çoxu utanmaz,***
***Çoxu oğru olsa da,***
***Məni aldada bilməzsiniz!***
***Dünya bu deyil.***

*(F.H. Dağlarca)*

Dünya Təzahürdə Mahiyyətdən aşağı olur; Dünyanın Mahiyyəti Dünyadan artıqdır, böyükdür, yüksəkdir; Dünya əslində Mahiyyətdir – Gerçəklikdən Üstün: Şeiriyyət – Mahiyyətə çatır, Gerçəkliyi ötür.

## X

Gerçəklikdə qalan Şer – Şeiriyyətə çatmır.

*24 Qar Ayı, 13-cü il. Bakı.*
*(Yanvar, 1992).*

# ÖZÜNDƏN YÜKSƏK

## (On dördüncü Müqəddəs Kitab)

# İLAHİLİK

## I

Dünya özündə özündən Yüksək olanı gəzdirir.
Həyat özündə özündən Yüksək olanı gəzdirir.
İnsan özündə özündən Yüksək olanı gəzdirir.

## II

Torpaqda Torpaqdan Yüksək olan Var.
Göydə Göydən Yüksək olan Var.
Dağda Dağdan Yüksək olan Var.
Ağacda Ağacdan Yüksək olan Var.
Çiçəkdə Çiçəkdən Yüksək olan Var.
Yolda Yoldan Yüksək olan Var.

## III

Ömürdə Ömürdən Yüksək olan Var.
Ölümdə Ölümdən Yüksək olan Var.
İstəkdə İstəkdən Yüksək olan Var.
Niskildə Niskildən Yüksək olan Var.
Əzabda Əzabdan Yüksək olan Var.
Fərəhdə Fərəhdən Yüksək olan Var.

## IV

Gözdə Gözdən Yüksək olan Var.
Dodaqda Dodaqdan Yüksək olan Var.
Üzdə Üzdən Yüksək olan Var.
Ürəkdə Ürəkdən Yüksək olan Var.
Səsdə Səsdən Yüksək olan Var.
Sözdə Sözdən Yüksək olan Var.
Ülfətdə Ülfətdən Yüksək olan Var.
Həsrətdə Həsrətdən Yüksək olan Var.
Heyrətdə Heyrətdən Yüksək olan Var.
Zamanda Zamandan Yüksək olan Var.

Məkanda Məkandan Yüksək olan Var.

**V**

Dünyada Dünyadan Yüksək olan – İlahilikdir.
Həyatda Həyatdan Yüksək olan – İlahilikdir.
İnsanda İnsandan Yüksək olan – İlahilikdir.

**VI**

Dünyadan kənarda İlahilik Yoxdur, – İlahilik Dünyanın özündədir.
Həyatdan kənarda İlahilik Yoxdur, – İlahilik Həyatın özündədir.
İnsandan kənarda İlahilik Yoxdur, – İlahilik İnsanın özündədir.

**VII**

Dünyanı yaradan Allah yoxdur.
Dünya – öz İlahiliyini yaradandır.

Həyatı yaradan Allah yoxdur.
Həyat – öz İlahiliyini yaradandır.

İnsanı yaradan Allah yoxdur.
İnsan – öz İlahiliyini yaradandır.

**VIII**

Allah İlahilikdən məhrumdur, – çünki Dünyadan aralıdır.
Allah İlahilikdən məhrumdur, – çünki Həyatdan aralıdır.
Allah İlahilikdən məhrumdur, – çünki İnsandan aralıdır.

**IX**

Allah Dünyanı görmür – bu səbəbdən də Dünyaya hökm eləyir – özündə özündən Yüksəyi gəzdirənə Hökm eləməzlər!

Allah Həyatı görmür – bu səbəbdən də Həyata hökm eləyir – özündə özündən Yüksəyi gəzdirənə Hökm eləməzlər.

Allah İnsanı görmür – bu səbəbdən də İnsana hökm eləyir – özündə özündən Yüksəyi gəzdirənə Hökm eləməzlər!

**X**

Dünya özünü unudur – özündəki özündən Yüksəyi unudur, – bu səbəbdən də Allahı özünə hökmran sayır.

Həyat özünü unudur – özündəki özündən Yüksəyi unudur, – bu səbəbdən də Allahı özünə hökmran sayır.

İnsan özünü unudur – özündəki özündən Yüksəyi unudur, – bu səbəbdən də Allahı özünə hökmran sayır.

**XI**

Dünya öz Yüksəkliyini unudur, – Özgə Yüksəkliyinə tapınır.
Həyat öz Yüksəkliyini unudur, – Özgə Yüksəkliyinə tapınır.
İnsan öz Yüksəkliyini unudur, – Özgə Yüksəkliyinə tapınır.

**XII**

İlahilik öz İşığıyla İşıqlanır – Dünyaya, Həyata, İnsana İşıq saçır – İşıqdan Yüksək.

**XIII**

Dünya özündə özündən Yüksəyi gəzdirdiyindən – özündən Yüksək olub.

Həyat özündə özündən Yüksəyi gəzdirdiyindən – özündən Yüksək olub.

İnsan özündə özündən Yüksəyi gəzdirdiyindən – özündən Yüksək olub.

Sirr Yaranıb, Sehr Yaranıb, – Dünya, Həyat, İnsan Sirrə, Sehrə qərq olub.

## XIV

Dünyanı Dünyaya bərabər sayanlar – Dünyanı itirirlər – Dünyanın özündə gəzdirdiyi Yüksəkliyi itirirlər.

Həyatı Həyata bərabər sayanlar – Həyatı itirirlər – Həyatın özündə gəzdirdiyi Yüksəkliyi itirirlər.

İnsanı İnsana bərabər sayanlar – İnsanı itirirlər – İnsanın özündə gəzdirdiyi Yüksəkliyi itirirlər.

## XV

Dünyadan Yüksək olan – Mənadır; Dünya – Mənadan yaranıb – Dünyadan Yüksək.

Həyatdan Yüksək olan – Mənadır; Həyat – Mənadan yaranıb – Həyatdan Yüksək.

İnsandan Yüksək olan – Mənadır; İnsan – Mənadan yaranıb – İnsandan Yüksək.

## XVI

Dünya özündə öz Mənasını gəzdirir – özündən Yüksək!
Həyat özündə öz Mənasını gəzdirir – özündən Yüksək! İnsan özündə öz Mənasını gəzdirir – özündən Yüksək!

## XVII

Dünya Mənadan Doğub, Mənalı Doğulub – Dünyadan Yüksək!
Həyat Mənadan Doğub, Mənalı Doğulub – Həyatdan Yüksək!
İnsan Mənadan Doğub, Mənalı Doğulub – İnsandan Yüksək!

## XVIII

Bu səbəbdən də Dünyanın mənasına dalmaq –
Dünyadan Yüksəyə qalxmaqdır.
Həyatın mənasına dalmaq –
Həyatdan Yüksəyə qalxmaqdır.
İnsanın mənasına dalmaq –
İnsandan Yüksəyə qalxmaqdır.

## XIX

Dünyada Dünyadan Yüksək – Dünyanın Mənasıdır ki, ölmür, itmir, sönmür, tükənmir, –

Dünyanın ölümsüzlüyü, itimsizliyi, sönməzliyi, tükənməzliyi!

Həyatda Həyatdan Yüksək – Həyatın Mənasıdır ki, ölmür, itmir, sönmür, tükənmir, –

Həyatın ölümsüzlüyü, itimsizliyi, sönməzliyi, tükənməzliyi!

İnsanda İnsandan Yüksək – İnsanın Mənasıdır ki, ölmür, itmir, sönmür, tükənmir, –

İnsanın ölümsüzlüyü, itimsizliyi, sönməzliyi, tükənməzliyi!

## XX

Dünyadakı Dünyadan Yüksəyi dərk etmək üçün
İdrakdan Yüksək İdrak gərək!
Həyatdakı Həyatdan Yüksəyi dərk etmək üçün
İdrakdan Yüksək İdrak gərək!
İnsandakı İnsandan Yüksəyi dərk etmək üçün
İdrakdan Yüksək İdrak gərək!
***İlahiliyi dərk etmək üçün İlahi İdrak gərək!***

## XXI

Dünyadakı Dünyadan Yüksəyi duymaq üçün
Duyğudan Yüksək Duyğu gərək!
Həyatdakı Həyatdan Yüksəyi duymaq üçün
Duyğudan Yüksək Duyğu gərək!
İnsandakı İnsandan Yüksəyi duymaq üçün
Duyğudan Yüksək Duyğu gərək!
***İlahiliyi Duymaq üçün İlahi Duyğu gərək!***

## XXII

Dünyadakı Dünyadan Yüksəyi Təsdiq etmək üçün
İradədən Yüksək İradə gərək!
Həyatdakı Həyatdan Yüksəyi Təsdiq etmək üçün

İradədən Yüksək İradə gərək!
İnsandakı İnsandan Yüksəyi Təsdiq etmək üçün
İradədən Yüksək İradə gərək!
***İlahiliyi təsdiq etmək üçün İlahi İradə gərək!***

## XXIII

Dünyanın mənası – Dünyadan Yüksəkdir – Dünyanın Yüksəkliyi elə bundadır.

Həyatın mənası – Həyatdan Yüksəkdir – Həyatın Yüksəkliyi elə bundadır.

İnsanın mənası – İnsandan Yüksəkdir – İnsanın Yüksəkliyi elə bundadır.

## XXIV

Bu səbəbdən də
Görünən hələ Dünya deyil, Həyat deyil, İnsan deyil;
Bilinən hələ Dünya deyil, Həyat deyil, İnsan deyil.

## XXV

Dünya özündə özündən Yüksək Mənanı gəzdirir, ancaq ona çatmır.

Həyat özündə özündən Yüksək Mənanı gəzdirir, ancaq ona çatmır.

İnsan özündə özündən Yüksək Mənanı gəzdirir, ancaq ona çatmır.

## XXVI

Bu səbəbdən də
Dünyadakı hər bir Hadisənin özündən Yüksək Mənası var.
Həyatdakı hər bir Hadisənin özündən Yüksək Mənası var.
İnsandakı hər bir Hadisənin özündən Yüksək Mənası var.

## XXVII

Bu səbəbdən də
Dünyanı dərk eləmək üçün
Dünyadan Yüksəyə qalxmalısan.
Həyatı dərk eləmək üçün
Həyatdan Yüksəyə qalxmalısan.
İnsanı dərk eləmək üçün
İnsandan Yüksəyə qalxmalısan.

## XXVIII

Dünyanın özündən Yüksək olması –
Dünyanın İlahiliyidir.
Həyatın özündən Yüksək olması –
Həyatın İlahiliyidir.
İnsanın özündən Yüksək olması –
İnsanın İlahiliyidir.

## XXIX

Bu səbəbdən də
Gerçəklik Dünyanı ifadə eləmir –
Dünya Gerçəklikdən Yüksəkdir.
Gerçəklik Həyatı ifadə eləmir –
Həyat Gerçəklikdən Yüksəkdir.
Gerçəklik İnsanı ifadə eləmir –
İnsan Gerçəklikdən Yüksəkdir.

## XXX

İlahilik –
Dünyanın özündən Yüksək olmaq İmkanıdır.
Həyatın özündən Yüksək olmaq İmkanıdır.
İnsanın özündən Yüksək olmaq İmkanıdır.

***İlahilik Dünyanın Həyatın, İnsanın***
***Əzəli, Əbədi Mənasıdır –***
***Dünyadan, Həyatdan, İnsandan Yüksək.***

*8 Qismət günü, Sərt Ay, 11-ci il. Bakı.*

## DƏYİŞMƏZLİK

**1**

Dəyişən ölür.
Dünyanın mənası dəyişsəydi –
Dünya ölərdi.

**2**

Dəyişən tükənir.
Dünyanın mənası dəyişsəydi –
Dünya tükənərdi.

**3**

Məna dəyişmir – çünki Mütləqdir,
Nisbi Dəyişir.
Məna dəyişmir – çünki Kamildir,
naqis Dəyişir.
Məna dəyişmir – çünki Bütövdür,
natam Dəyişir.

**4**

Dünya nisbi Mənanın üstündə
dayana bilməzdi – Uçardı.
Dünya naqis Mənanın üstündə
dayana bilməzdi – Uçardı.
Dünya natam Mənanın üstündə
dayana bilməzdi – Uçardı.

**5**

***Hər şey dəyişsəydi – heç şey olardı.***

**6**

Həqiqət Dəyişsəydi –
Həqiqətsizliyə çevrilərdi.
Ədalət Dəyişsəydi –
Ədalətsizliyə çevrilərdi.

Ləyaqət Dəyişsəydi –
Ləyaqətsizliyə çevrilərdi.
Qeyrət Dəyişsəydi –
Qeyrətsizliyə çevrilərdi.

**7**

Nisbi Həqiqət olmur.
Naqis Həqiqət olmur.
Natam Həqiqət olmur.

**8**

Nisbi Ədalət olmur.
Naqis Ədalət olmur.
Natam Ədalət olmur.

**9**

Nisbi Ləyaqət olmur.
Naqis Ləyaqət olmur.
Natam Ləyaqət olmur.

**10**

Nisbi Qeyrət olmur.
Naqis Qeyrət olmur.
Natam Qeyrət olmur.

**11**

***Dəyişməzliyə çatmaq üçün Dəyişilirsən.***
***Dəyişilirsən ki, Mənaya çatasan –***
***Dəyişilməyəsən! – Dəyişilməzliyi qoruyasan.***

**12**

Vicdanı Dəyişkənlikdən qoruyursan –
Vicdanlı olursan.
Amalı Dəyişkənlikdən qoruyursan –
Amallı olursan.
Məhəbbəti Dəyişkənlikdən qoruyursan –
Məhəbbətli olursan.
İlqarı Dəyişkənlikdən qoruyursan –
İlqarlı olursan!

**13**

Vicdanını Dəyişmirsən,
Amalını Dəyişmirsən,
Məhəbbətini Dəyişmirsən,
İlqarını Dəyişmirsən.

**14**

***Dünya Əzəli Dəyişməzdir,***
***çünki özülü Dəyişməzdir.***

**15**

Dünyada Dəyişilən nə varsa – Dəyişməzdən aşağıdır.
Dəyişilən Fikirlər –
Dəyişməz Fikirdən aşağıdır.
Dəyişilən Əməllər –
Dəyişməz Əməldən aşağıdır.
Dəyişilən İdeallar –
Dəyişməz İdealdan aşağıdır.
Dəyişilən Qanunlar –
Dəyişməz Qanunlardan aşağıdır.

**16**

Yalnız Dəyişməz – Mənaya çatır,
Dəyişilən – Mənaya çatmır.

**17**

Dünya daim təzələnir,
Məna daim təzə qalır.

Bu səbəbdən də Dünya mənalı təzələnir;
Məna dəyişsəydi – Dünya mənasızlaşardı.

**18**

***Dünya təzələnir, məna köhnəlmir.***
Dəyişməzlik – Əbədi təzəlikdir.
Dünya buna çatmır,
bu səbəbdən də daim təzələnir.
Dünya Mənadan aşağıdır,
Ona görə dəyişkəndir.

***Dünya Dəyişməz məna üzərində Dəyişir,***
***Ona görə də Yıxılmır.***

**19**

Dünyanı Dəyişən Mənaya
Etibar etmək olmazdı.

**20**

Dəyişən – köhnəlir, köhnəlməyən – Dəyişmir.
Əvvəlin Axırı var, Əzəlin Axırı yoxdur.
Sonlunun Sonu var, Sonsuzun Sonu yoxdur.
Dəyişməyən – köhnəlmir.
Dünya Mənaca Dəyişmir,
Bu səbəbdən də köhnəlmir.

**21**

Köhnə Dövran olur, köhnə Dünya olmur,
çünki Dünyanın mənası dəyişmir, –
Dəyişməzlikdə Köhnəlik olmur.

Köhnə Adam olur, köhnə Bəşər olmur,
çünki Bəşərin mənası dəyişmir, –
Dəyişməzlikdə Köhnəlik olmur.

Köhnə Ağac olur, köhnə Təbiət olmur,
çünki Təbiətin mənası dəyişmir, –
Dəyişməzlikdə Köhnəlik olmur.

**22**

Köhnəlik Dəyişkənlikdən yaranır,
Dəyişkənlik Köhnəlik yaradır.

**23**

Hadisələr dəyişir, köhnəlir, ölür;
Məna dəyişmir, köhnəlmir, ölmür:

Dəyişmədən Təzə qalır,
Köhnəlmədən – Qədimləşir, –
Dünyaya Dayaq olur.

**24**

İnsanilik Mənaya bənzəyir –
Dünyaya bənzəmir.
Həqiqət Mənaya bənzəyir – Dünyaya bənzəmir:
dəyişmir, köhnəlmir, ölmür.
Ədalət Mənaya bənzəyir – Dünyaya bənzəmir:
dəyişmir, köhnəlmir, ölmür.
İnam Mənaya bənzəyir – Dünyaya bənzəmir:
dəyişmir, köhnəlmir, ölmür.
Məhəbbət Mənaya bənzəyir – Dünyaya bənzəmir:
dəyişmir, köhnəlmir, ölmür.

**25**

Hərcayilik Mənaya bənzəmir –
Dünyaya bənzəyir:
***Həqiqətsizlik*** Mənaya bənzəmir –
Dünyaya bənzəyir:
dəyişir, köhnəlir, ölür.
Ədalətsizlik Mənaya bənzəmir –
Dünyaya bənzəyir:
dəyişir, köhnəlir, ölür.

İnamsızlıq Mənaya bənzəmir –
Dünyaya bənzəyir:
dəyişir, köhnəlir, ölür.

Məhəbbətsizlik Mənaya bənzəmir –
Dünyaya bənzəyir:
dəyişir, köhnəlir, ölür.

**26**

Dəyişkənlər Dünyası Mənasız Dünyadır.
***Dünyanın Mənası Dəyişsə – Dünya ölər.***

*9 Murad günü, Sərt Ay, 11-ci il.*
*Bakı.*



# DÜNYADAN ÜSTÜN

## (Otuz dördüncü Müqəddəs Kitab)

## I. Dünya Əksikliyi

Dünya İnsanilik üstə Qurulmayıb – bu səbəbdən də Əksikdir.
Dünya İnam üstə Qurulmayıb – bu səbəbdən də Əksikdir.
Dünya İdrak üstə Qurulmayıb – bu səbəbdən də Əksikdir.
Dünya Mənəviyyat üstə Qurulmayıb – bu səbəbdən də Əksikdir.
Dünya İradə üstə Qurulmayıb – bu səbəbdən də Əksikdir.
İnsanın yaratdığı Dünya – İnsaniliyə yaramayıb.
***Dünya İnsanilikdən əksik olub, – O, Özündən Üstün olmalıdır ki, İnsaniliyə Yarasın.***

## 2. Xalq – Cəmiyyət

Cəmiyyəti Xalqın ayağına bağlayırlar.
***Əslində Cəmiyyət xalqdan özünə ayaq düzəldib.***
***Xalq cəmiyyəti olmur – Xalq üstü cəmiyyət olur.***
Ağalıq cəmiyyəti olur.
Nökərlik cəmiyyəti olur.
Təbəqə cəmiyyəti olur.
Özgəçilik cəmiyyəti olur.
Cəmiyyət Birlik yaratmır əslində – Yadlıq yaradır.
Ağalıq Yadlığı Yaradır.
Nökərlik Yadlığı Yaradır.
Təbəqə Yadlığı Yaradır.
***Cəmiyyət – Özgəçilik Cəmi yaradır, – Birliyə Yad.***
***Cəmiyyət – İnsanları Birləşdirmir – Cəmləşdirir.***
***Yadlar cəmliyində – Birlik olmur.***
Cəmiyyət adlı Dünyanı Yaradan İnsan – cəmiyyətdə əksilir.
Cəmiyyətdən Üstün olmaq Tələbi yaranır; – Dünyadan Üstün Dünya Tələbi yaranır.
***Cəmiyyət Xalqa Yaramır; – Cəmlik Xalqa Yaramır, – Xalqa Birlik Yarayır – cəmiyyətdən Üstün.***

## 3. Xidmət – Hakimiyyət

***Hakimiyyəti Xalqa Xidmət sayırlar.***

***Əslində isə Hakimlik – özünə xidmətdir – xudbinlik əməlidir...***

Hakimlik – xalq üzərində Ağalıqdır, xalqın Ağaya xidmətçiliyidir.

***Ağalıq xidməti – xalq xidmətçiliyidir.***

***Hakimiyyət – xalq adından xalq üzərində Ağalıqdır – Ağalıq "xidmətidir".***

Hakimiyyət xidmətindən Nökərlik yaranır.

Nökər Ağaya xidmət eləyir və buna hakimiyyət xidməti deyirlər.

Hakimiyyətə Nökərlik xidməti göstərilir və bunu hakimiyyət xidməti sayırlar.

Hakimiyyətçilik – Ağalıqdır, ancaq bunu Fədakarlıq kimi qələmə verirlər.

***Hakimiyyət – xidmət sayılanda – Nökərlik də Fədakarlıq sayılar.***

Hakimiyyət – Nökərlik Tələbidir – Nökərlik "xidməti" – Tələbidir, Nökərlik "Xidməti"nin Təsdiqidir.

Hakimiyyət "xidməti" – Nökərlik "Xidməti" Yaradır.

Zaman keçdikcə Nökərliyin Biçimi dəyişir, ancaq Mahiyyəti Dəyişmir; o, Ağalığa xidmət olaraq qalır.

Zaman keçdikcə, Ağalığın Biçimi dəyişir, ancaq Mahiyyəti Dəyişmir; o Nökərlərin xidmətçiliyi olaraq qalır.

***Hakimiyyət – xidmət deyil – xidmətçiliyə sahib olmaqdır.***

***Hakimiyyətçilik "xidmətindən" Təbəqəçilik yaranır.***

Təbəqəçilik "xidməti" Adamları bir-birinə qarşı çevirir.

"Xidmət" Şər Yaradır; Adamlara Ziyançılıq "xidməti" göstərir;

Hakimiyyət Yadlaşmağa xidmət edir.

Yadlaşma İnsaniliyə qarşıdır.

Hakimiyyət İnsaniliyə Yaramır.

Hakimiyyəti Xidmətlə əvəz etmək gərək, – Xidmət – Fədakarlıq Tələb eləyir – Fədakarlığa Yetmək gərək.

## 4. Siyasət – Əxlaq

***Siyasətin Əxlaqı Mənfəətdir...***

Siyasət Mənfəətdən başqa Əxlaq tanımır.

Siyasət Mənfəət naminə bütün Əxlaqsız Vasitələrdən istifadə edir.

***Siyasət – Oyundur; onun Məqsədi Udmaqdır.***

Udmağa gərək olan nə varsa – Siyasətdə Əxlaqlı sayılır.

Siyasi "Əxlaq" – xüsusi Əxlaqdır;

Burada Xeyir – Mənfəətə bərabərdir.

Ədalət – Mənfəətə bərabərdir.

Həqiqət – Mənfəətə bərabərdir.

***Siyasi "Mərifət" – xüsusi Mərifətdir.***

Burada Mərifət Fürsətə bərabərdir.

Fürsəti əldən vermək – Mərifətsizlik sayılır.

***Siyasət – Mənfəətə həsr olunan Oyundur.***

***Əxlaqa Zidd olanın Əxlaqlı görünməsidir.***

***Yalanın Həqiqət bilinməsidir.***

***Xudbinliyin Fədakarlıq bilinməsidir.***

***Riyakarlıq "məharətidir".***

***Riyakar olmayan siyasətçi – sadəlövh sayılır.***

***"Siyasi Dostluq"*** – xüsusi "Dostluqdur".

Mənfəətli, Təmənnalı Dostluqdur, – Dostluq Oyunudur; Dostluq vasitəsiylə Rəqibə qalib gəlmək üsuludur.

***"Siyasi Məhəbbət"*** – xüsusi "Məhəbbətdir", Mənfəətli Məhəbbətdir, – Məhəbbət Oyunudur; – Məhəbbət vasitəsiylə Rəqibə qalib gəlmək üsuludur.

***"Siyasi Sədaqət"*** – xüsusi "Sədaqətdir", Mənfəətli Sədaqətdir, – Sədaqət Oyunudur; – Sədaqət vasitəsiylə Rəqibə qalib gəlmək üsuludur.

***"Siyasi Ləyaqət"*** – xüsusi "Ləyaqətdir", Mənfəətli Ləyaqətdir, – Ləyaqət Oyunudur; – Ləyaqət vasitəsiylə Rəqibə qalib gəlmək üsuludur.

***Siyasət – Rəsmiləşmiş Əxlaqsızlıqdır əslində.***

***Bəşər Siyasətə qapılıb, qatılıb.***

***Siyasət – Bəşəri pozur.***

***Siyasəti Ruhanilik əvəz etməlidir; Bəşər indiki səviyyəsindən Üstün olmalıdır – Sabahkı Dünya indiki Dünyadan Üstün olmalıdır.***

## 5. Bəşər – Millət

***Bəşəri yaşadan – Millətlərdir.***

***Bəşəri millətlərə qarşı qoyurlar.***

Millətlərin bir-birinə qovuşması adıyla, Vahid Ümumbəşəri Dövlət adıyla – millətlərdən “azad olmaq” istəyirlər.

Milliliyi əksiltməklə Ümumbəşəriliyi zənginləşdirmək istəyirlər.

***Əslində Bəşərin Zənginləşməsi, Yüksəlməsi – Millətlərin Zənginləşməsi, Yüksəlməsiylə bağlıdır.***

***Millət əksiləndə – Bəşər də Əksilir.***

***Millət Yüksəlirsə – Bəşər də Yüksəlir.***

***Millətlərdən Təcrid olunmuş Bəşər – Ölü Bəşərdir.***

***Beynəlmiləlçiliyi milliliyə qarşı qoyurlar.***

Beynəlmiləlçiliyin Birinciliyindən – Milliliyin İkinciliyindən danışırlar.

***Əslində Beynəlmiləlçilik – Millətlər Birliyi ideyasıdır.***

Millətlər olmasa – Beynəlmiləlçilik olmaz.

Millətçiliyi lənətləyirlər, onu Zəbtçiliklə, Fəthçiliklə eyniləşdirirlər.

***Əslində Millətçilik – Milləti Ali Dəyər saymaqdır.***

Milləti Ali Dəyər saymaq – onu Bəşərə qarşı qoymaq deyil, Bəşərin Təməlini Ali Dəyər saymaqdır.

***Bəşərin Təməli – Millətdir.***

***Bəşər – Millətlərin Birliyidir.***

Birlik – Müxtəliflikdən Yaranır.

Müxtəlifsiz Birlik həvəsi yaşayır Dünyada.

Millətsiz Bəşər Yalanı yaşayır Dünyada.

“Dünya Vətənliyi” hədyanı yaşayır Dünyada; Kosmopolitizmi Dirildirlər; – Dünyanı Təməlindən Ayırırlar – Dünyaçılıq adıyla Vətənsizlik yaradırlar.

Bütün Bəşər bir Dövlətdə, bir Millətdə Birləşəcək deyirlər.

Bəşərə Ölüm Sabahı cızırlar.

Bəşərin Sabahı Bu gündən Üstün olmalıdır – Yüksələn Millətlər Bəşəri Yüksəltməlidir.

## 6. Mədəniyyət – Mənəviyyat

Mədəniyyət – Yüksək Bilik yaratdı, Yüksək Sənət yaratdı, Yüksək Maddiyyat yaratdı, Yüksək Varidat yaratdı, – Yüksək Mənəviyyat yaratmadı.

Vicdana Yetmədi
Təmənnasızlığa Yetmədi.
Fədakarlığa Yetmədi.
Mütləq İnama Yetmədi.
Mütləq İdraka Yetmədi.
Mütləq İradəyə Yetmədi.

Mədəniyyət – Sünilik yaratdı.
Süni Ünsiyyət yarandı.
Süni Səmimiyyət yarandı.
Duyğu Oyunu yarandı.
Davranış Oyunu yarandı.
Zahiri Daxilini Üstələdi.
Biçim Məzmunu Üstələdi.

Mədəniyyəti Mənəviyyata Yüksəltmək gərək – Mədəni Adamdan – Mənəvi İnsan Yetirmək gərək.

## 7. Pozğunluq – Qayda

***Cəmiyyətin yaratdığı Qayda – əslində Pozğunluqdur – İnsaniliyin Pozulmasıdır.***

***Ağalıq*** – Pozğunluqdur – İnsaniliyin Pozulmasıdır.
***Nökərlik*** – Pozğunluqdur – İnsaniliyin Pozulmasıdır.
***Təbəqəlik*** – Pozğunluqdur – İnsaniliyin Pozulmasıdır.
***Yadlaşma*** – Pozğunluqdur – İnsaniliyin Pozulmasıdır.

Cəmiyyət Qaydalarında İnam Pozulur, İdrak Pozulur, Mənəviyyat Pozulur, İradə Pozulur.

***Hakimiyyətin*** yaratdığı Qayda Pozğunluqdur – İnsaniliyin Pozulmasıdır.

Hakimiyyətdə İnam Pozulur, İdrak Pozulur, Mənəviyyat Pozulur, İradə Pozulur.

***Siyasətin*** yaratdığı Qayda Pozğunluqdur – İnsaniliyin Pozulmasıdır.

Siyasətdə İnam Pozulur, İdrak Pozulur, Mənəviyyat Pozulur, İradə Pozulur.

***Cəmiyyət İnamında*** – İnam Pozulur – Pozğun İnam Yaranır.

***Cəmiyyət İdrakında*** – İdrak Pozulur – Pozğun İdrak Yaranır.

***Cəmiyyət Mənəviyyatında*** – Mənəviyyat Pozulur – Pozğun Mənəviyyat Yaranır.

***Cəmiyyət İradəsində*** – İradə Pozulur – Pozğun İradə Yaranır.

***Hakimiyyət İnamında*** – İnam pozulur – Pozğun İnam Yaranır.

***Hakimiyyət İdrakında*** – İdrak Pozulur – Pozğun İdrak Yaranır.

***Hakimiyyət Mənəviyyatında*** – Mənəviyyat Pozulur – Pozğun Mənəviyyat Yaranır.

***Hakimiyyət İradəsində*** – İradə Pozulur – Pozğun İradə Yaranır.

***Siyasət İnamında*** – İnam Pozulur – Pozğun İnam Yaranır.

***Siyasət İdrakında*** – İdrak Pozulur – Pozğun İdrak Yaranır.

***Siyasət Mənəviyyatında*** – Mənəviyyat Pozulur – Pozğun Mənəviyyat Yaranır.

***Siyasət İradəsində*** – İradə Pozulur – Pozğun İradə Yaranır.

***Cəmiyyətdən Üstün Qayda gərək*** – İnsaniliyə Yarayan – İnam üstə Yaradılan, İdrak üstə Yaradılan, Mənəviyyat üstə Yaradılan, İradə üstə Yaradılan – Hakimiyyətdən Üstün olan, Siyasətdən Üstün olan.

***İnsanilik Qaydası gərək Dünyaya.***

## 8. Demokratiya – Diktatura

Demokratiya – Qapalı Diktaturadır, Diktator Məzmununun Demokratiya Biçimində Qorunmasıdır.

Demokratiya ***Ağalığı*** Rədd etmir, Təlqin edir – Zorla qəbul etdirmir, ***Seçdirir*** – Yaşadır.

Xalq Hakimiyyəti Ağalığı “xəlqiləşdirir”.

Demokratiya ***Təbəqəliyi*** Rədd etmir, Təlqin edir – Zorla qəbul etdirmir, ***Seçdirir*** – Yaşadır.

Demokratiya ***Nökərçiliyi*** Rədd etmir, Təlqin edir – Zorla qəbul etdirmir, ***Seçdirir*** – Yaşadır.

Demokratiya ***Yadlaşmanı*** Rədd etmir, Təlqin edir – Zorla qəbul etdirmir, ***Seçdirir*** – Yaşadır.

Diktatura – Xalqı əzir, Demokratiya – Xalqı oynadır; Xalqı oynatmaq – Xalqı əzmək Üsulu olur əslində.

Xalq Parlamentə özünə Ağalar seçir; Xalq nümayəndələri – Xalq Ağaları olur.

***Parlament – Demokratik Ağalar Yığnağıdır, – Ağalığın Demokratik Biçimidir.***

***"Xalq Hakimiyyəti" – xalq üzərində hakimiyyətdir.***

***Bazar İqtisadiyyatı Xalq üzərində Bazar Ağalığıdır.***

Söz Azadlığı – Demokratik Ağalığı qoruyur – əslində Əsarəti qoruyur.

***Demokratiya – Əsarətə yarayan Azadlıq Oyunudur.***

***Demokratik İnam*** – Ağalığa İnamdır, Nökərliyə İnamdır, Təbəqəçiliyə İnamdır, Yadlaşmaya İnamdır.

***Demokratik İdrak*** – Yalanın Həqiqət Biçimində Təlqinidir.

***Demokratik Mənəviyyat*** – Mənəviyyatsızlığın Mənəviyyat Biçimində Təlqinidir.

***Demokratik İradə*** – Xalqı İradəsizləşdirmə Səyidir.

***Demokratik Haqlar – Haqq Oyunundan başqa bir şey deyil.***

***Demokratiya əslində bircə haqq tanıyır: Maddi Bərabərsizlik Haqqı.***

***Bəşərə Xəlqi Birlik gərək – Demokratiyadan Üstün olan, Diktaturanı ləğv edən – İnsaniliyə xidmət edən.***

## 9. Kütləvilik – Fərdilik

***Kütləviliyi – Cəmiyyət Yaradır.***

Ağalığa Kütləvilik gərəkdir.

Nökərliyə Kütləvilik gərəkdir.

Təbəqəliyə Kütləvilik gərəkdir.

Yadlaşmaya Kütləvilik gərəkdir.

İnamçılıq əvəzinə – Dinçilik.

İdrakçılıq əvəzinə – Cəfəngiyyatçılıq.

Mənəviyyatçılıq əvəzinə – Xurafatçılıq.

İradəçilik əvəzinə – İtaətçilik.

***Kütləvilikdə Fərdilik itir.***

Özünəməxsusluq, Bənzərsizlik itir.
Kütləvilik – Fərdsizlik Cəmidir.
Cəmiyyət – Fərdə qarşıdır, özünəməxsusluğa qarşıdır.
***Xalq – Fərdlər Birliyidir.***
Cəmiyyət – Xalqa qarşıdır.
***Onun Məqsədi – Xalqı Kütləviləşdirməkdir, Xalqdan Kütlə yaratmaqdır.***
Cəmiyyət Xalqdan Kütlə Yaratdı ki, Yaşasın.
***Kütləvilik – Xalqın Cəmiyyətləşmə Halıdır,*** – onun Fərddən Ayrılması, özümlüyünü itirməsi halıdır.
Fərdlər Birliyi olan Xalq – Kütlədə özünü itirir.
Xalqla Cəmiyyət arasında Ziddiyyət Yaranır.
Xalq Fərdlərə əsaslanır, cəmiyyət Kütləyə.
Xalqı Kütləylə Eyniləşdirirlər – onu cəmiyyətləşdirirlər.
Əslində isə Cəmiyyət – Xəlqilik qarşısında Maniədir.
Xalq cəmiyyətdə özünü natam ifadə edir, cəmiyyət xalqın özünüifadəsinə mane olur, onu kütləviləşmə halına salır.
Cəmiyyət – xalqı rəiyyətləşdirir.
***Rəiyyət – Xalq deyil – Kütlədir.***
Məqsəd – Xalqı kütləvilik halından çıxarmaqdır, onu Fərdsizlik Bəlasından qurtarmaqdır, cəmiyyətdən Üstün olan Fərdlər Birliyini Təsdiq etməkdir.

## 10. Vətən – Qurum

Vətəni İctimai Qurumla eyniləşdirirlər – Yalan Yaradırlar.
Quldarlıq Vətəni olmur.
Feodallıq Vətəni olmur.
Kapitalist Vətəni olmur.
***Sosialist Vətəni uydurmuşdular – Yaramadı.***
Vətən – Müqəddəsləşən Yurddur.
Müqəddəs Quldarlıq olmur.
Müqəddəs Feodalçılıq olmur.
Müqəddəs Kapitalizm olmur.
***Müqəddəs Sosializm Uydurmuşdular – Yaramadı.***
Vətəndaşı Qurumdaşla eyniləşdirirlər – Vətənsevər – Qurumsevər olmur.

Quldarlıq sevən olmur.
Feodallıq sevən olmur.
Kapitalizm sevən olmur.
***Sosializm sevənlər Yaranmışdı – Yaramadı.***
Vətən – İnsaniliyin ifadəsidir.
Qurum – İnsaniliyi ifadə etmir.
– İnam ifadə eləmir.
– İdrak ifadə eləmir.
– Mənəviyyat ifadə eləmir.
– İradə ifadə eləmir.
Qurum ötəridir, Vətən – Əzəli.
Qurum keçicidir, Vətən – Əbədi.
Qurum sonludur, Vətən – Sonsuz.
Qurum qeyri-kamildir, Vətən – Kamil.
***Vətən – Qurumdan Üstündür;***
***Vətəndaşlıq – Qurumdan Üstünlükdür;***
***Vətənsevərlik – Qurumdan Üstün olanı sevməkdir.***

## 11. İdarəçilik – Rəiyyətçilik

İdarəçilik – Adamlardan ***Rəiyyət*** yaradır.
***Rəiyyət – özünə sahib olmur; Rəiyyətə İdarəçilər sahib olurlar.***
İdarəçilər – ***Rəiyyət İnamına*** sahib olurlar.
***Rəiyyət İdrakına*** sahib olurlar.
***Rəiyyət Mənəviyyatına*** sahib olurlar.
***Rəiyyət İradəsinə*** sahib olurlar.
***İdarəçilik – Rəiyyətin özünüidarə səlahiyyətini əlindən alır.***
Rəiyyət – özünəməxsusluğunu itirir – o, əslində İdarəçiyə məxsus olur.
***İdarəçilər Rəiyyətin özünəməxsusluğunu mənimsəyirlər.***
İdarəçilər özümlüyü – Rəiyyət özümsüzlüyündən yaranır.
Rəiyyəti idarə edənlər – Rəiyyəti özümsüzləşdirirlər.
İdarəçilər Rəiyyəti özümsüzləşdirdikləri dərəcədə idarə edirlər.
***İdarəetmə – özümsüzləşdirmə demək olur əslində.***
Özümlüyü mənimsəyənlər və özümsüzləşənlər Təzadı yaranır – İnsaniliyə Zidd.

***Rəiyyətçilikdən azad olmaq Tələbi yaranır: – İdarəçiliyin – özünüidarəylə əvəz olunması Tələbi yaranır – İnsaniliyə Uyğun.***

## 12. Həyatçılıq – İdealçılıq

İdealdan Ayrılmış – Həyat yaradırlar.
Həyatdan Ayrılmış – İdeal Yaradırlar.
Həyatı İdealsızlaşdırırlar – İdealı Həyatsızlaşdırırlar.
***Təzahürü Mahiyyətsizləşdirirlər Həyatçılar.***
Hadisəni Mənasızlaşdırırlar.
Nisbi Xeyirə tapınırlar – Şərləşirlər.
Nisbi Ədalətə tapınırlar – Ədalətsizləşirlər.
Nisbi Həqiqətə tapınırlar – Yalanlaşırlar.
Nisbi İnama tapınırlar – İnamsızlaşırlar.
Nisbi İdraka tapınırlar – İdraksızlaşırlar.
Nisbi Mənəviyyata tapınırlar – Mənəviyyatsızlaşırlar.
Nisbi İradəyə tapınırlar – İradəsizləşirlər.
***Mahiyyəti Təzahürləşdirirlər İdealçılar.***
***Mənanı Hadisəsizləşdirirlər.***
Xeyiri gerçəklikdən Ayırırlar.
Həqiqəti gerçəklikdən Ayırırlar.
Ədaləti gerçəklikdən Ayırırlar.
İnamı gerçəklikdən Ayırırlar.
İdrakı gerçəklikdən Ayırırlar.
Mənəviyyatı gerçəklikdən Ayırırlar.
İradəni gerçəklikdən Ayırırlar.
***Gerçəksizləşirlər.***
***Həyatçılıq və İdealçılıq Təzadından Ayrılmaq gərək, İdeallaşan Həyat və Həyatlaşan İdeal Üstünlüyünə çatmaq gərək.***

## 13. Opportunizm – Avantürizm

Opportunizm – Gerçəkliyə Uyğunlaşır, – Avantürizm ***gerçəkliyi nəzərə almır.***

***Gerçəkliyə Uyğunlaşmaq – Gerçəklik Ağalığını qəbul etməkdir.***

***Gerçəkliyi nəzərə almamaq – Gerçəklik üzərində İnsanın Ağalıq cəhdidir – əslində.***

Opportunist – gerçəkliyə qapılır;

Avantyurist – gerçəklik tanımır;

***Opportunizmdə*** – gerçəklik İnsanın Ağası olur.

***Avantürizmdə*** – İnsan gerçəkliyin Ağası olmaq istəyir.

Həm Opportunizm, həm Avantürizm – İnsansızlıqdır əslində.

Opportunizm – İnsana inanmır; Avantürizm – gerçəkliyə.

***Hər ikisində Əksiklik Təsdiq olunur, Üstünlük Təsdiq olunmur.***

Opportunizm – İnsanı əksildir, Avantürizm – gerçəkliyi.

***Opportunizm*** İnsanı gerçəkliyin ayağına bağlayır – Avantürizm Gerçəkliyi İnsanın ayağına bağlayır.

Hər ikisində İnsan – gerçəklikdən Üstün olmaq əvəzinə – gerçəklikdən əksik olur.

Opportunizmdə Gerçəklik İnsanı əksildir, Avantürizmdə İnsan gerçəkliyi.

***Avantyurist Üstünlüyü*** – əslində Yalançı Üstünlükdür – mahiyyətcə Əksiklikdir; gerçəkliyi nəzərə almamaq – gerçəklikdən Üstün olmaq deyil – gerçəklikdən əksik olmaqdır.

***Opportunizm*** gerçəkliyi İnsaniliyə Yüksəltmək əvəzinə – İnsanı gerçəkliyə əksildir.

***Avantürizm*** – gerçəkliyi İnsaniliyə Yüksəltmir, onu rədd edir; gerçəkliyi rədd etməklə – İnsan Yüksəlmir – əksilir.

***Opportunist*** – gerçəklik naminə İnsanı əksildir, – ***Avantyurist*** – İnsan naminə gerçəkliyi.

Hər ikisində həm gerçəklik əksilir, həm İnsan.

***Opportunizm*** əslində İnsansız Gerçəklik yaradır – həm gerçəkliyi, həm də İnsanı əksildir.

***Avantürizm*** – gerçəkliksiz İnsan yaradır – həm gerçəkliyi, həm də İnsanı əksildir.

Bəşər Opportunizmlə Avantürizm arasında qalıb – bu səbəbdən də gerçəklikdən Üstün ola bilmir.

***Gerçəklikdən Üstün olmaq üçün – həm Opportunizmi, həm də Avantürizmi aradan qaldırmaq gəgərk, Gerçəkliyi İnsaniliyə yüksəltmək gərək, İnsan üzərində Gerçəklik Ağalığını, Gerçəklik üzərində İnsan Ağalığını rədd etmək gərək; İnsaniliyə Yetən gerçəklik, Gerçəkliyi İnsaniliyə Yetirən İnsan yaratmaq gərək.***

## 14. Əməl – Qiymət

***Əməlin Qiyməti – Əməlin Daxilindədir.***
Əməli Xaricdən Qiymətləndirirlər – Mükafatlandırırlar, Təltifləndirirlər.
Şöhrətçilik – Əməlçiliyi üstələyir.
Özgəçilik Özümlüyü üstələyir.
Mükafat üçün Əməl həvəsi hakim olur Adamlara.
Təltif üçün Əməl həvəsi hakim olur Adamlara.
Əməl – Zahiriləşir.
İnam – Zahiriləşir.
***Mükafata, Təltifə həsr olunan İnam yaranır.***
***Mükafat ölçüsünə, Təltif ölçüsünə sığan əksik İnam yaranır.***
***Mükafata, Təltifə həsr olunan İdrak yaranır.***
***Təltif ölçüsünə, Mükafat ölçüsünə sığan əksik İdrak yaranır.***
Mükafata, Təltifə həsr olunan Mənəviyyat yaranır.
Mükafat ölçüsünə, Təltif ölçüsünə sığan əksik Mənəviyyat yaranır.
Mükafata, Təltifə həsr olunan İradə yaranır.
Mükafat ölçüsünə, Təltif ölçüsünə sığan əksik İradə yaranır.

Mükafatçılıq Əməlçiliyi əksildir.
Əməl Vasitəyə çevrilir – Mükafat Məqsədə.
***Daxili – Vasitəyə çevrilir, Zahiri – Məqsədə.***
Mükafata həsr olunan ***Ədalət*** yaranır.
Mükafata həsr olunan ***Həqiqət*** yaranır.
Mükafata həsr olunan ***Xeyir*** yaranır.
***Mükafatçılar*** – Mükafatdan böyük Ədalət tanımırlar.
Mükafatdan böyük Həqiqət tanımırlar.
Mükafatdan böyük Xeyir tanımırlar.
***Əməl – Mükafatdan asılı olur.***
Mahiyyət Təzahürdən asılı olur.
Məna Hadisədən asılı olur.

Qiymət – Əməli əksildir.
***Mükafatçılıqda Əksilən Əməli – Əməlçiliyə Yüksəltmək gərək, – Əməli Yüksəltmək gərək.***

## 15. Ailə – Ailəsizlik

***Adamların çoxu Ailə qurur, həm də Adamların çoxu Ailəsizdir.***

Çünki Ailə – cəmiyyəti Təqlid edir.

***Çünki Ailədə çox vaxt Atalıq əvəzinə Ağalıq Təsdiq olunur; –*** Analıq əvəzinə Xanımlıq Təsdiq olunur.

Ata Evdə Ağalıq eləyir; Qadının, Evladın Ağası olmağa can atır.

Ailədə çox vaxt Xanımlıq Analığı əvəz eləyir; Qadın Ərinin, Evladının Xanımı olmağa can atır.

***Ağalıq, Xanımlıq Ailəyə Yadlıq gətirir.***

Ağalıq, Xanımlıq artdıqca – Ailədə Doğmalıq azalır.

Doğmalıq azaldıqca Evdə münaqişə artır.

***Evladlar Valideynlərin "Ağa–Xanım" Halında böyüyürlər, həmin halı mənimsəyirlər. Ailədə "Ağa–Xanım" ənənəsi yaranır – Nəsildən Nəsilə keçən.***

Ailə Adamları cəmiyyətdən qoruya bilmir – cəmiyyət münasibətləri Ailəyə daxil olur; cəmiyyət halı Ailə Həyatını müəyyən edir.

***Ailəlilər – Ailəsizləşirlər.***

***Doğmalar – Yadlaşırlar.***

Gərək Ailə – Özümləşsin, cəmiyyətə bənzəməsin – Atalıq Ağalıqdan Ayrılsın, Analıq Xanımlıqdan, Evlad – Rəiyyətçilikdən – İnsaniliyə Yarayan, İnsaniliyi Yaşadan Doğmalıq Yaransın.

## 16. Dəyişkənlik – Dəyişməzlik

Cəmiyyət daim dəyişir, ancaq ***Ağalıq*** Dəyişməz qalır.

Ağalığın Biçimi Dəyişir – Mahiyyəti Dəyişmir.

***Cəmiyyət Mahiyyətcə Dəyişməz qalır.***

Cəmiyyət daim Dəyişir, ancaq ***Nökərlik*** Dəyişməz qalır.

Nökərliyin Biçimi Dəyişir – Mahiyyəti Dəyişmir.

***Cəmiyyət Mahiyyətcə Dəyişməz qalır.***

Cəmiyyət daim Dəyişir, ancaq ***Təbəqəlik*** Dəyişməz qalır.

Təbəqəliyin Biçimi Dəyişir – Mahiyyəti Dəyişmir.

***Cəmiyyət Mahiyyətcə Dəyişməz qalır.***

Cəmiyyət daim Dəyişir, ancaq ***Yadlaşma*** Dəyişməz qalır.

Ydlaşmanın Biçimi Dəyişir – Mahiyyəti Dəyişmir.

***Cəmiyyət Mahiyyətcə Dəyişmir.***

Çünki Adam İnsaniliyə çatmır.

İnama çatmır.

İdraka çatmır.

Mənəviyyata çatmır.

İradəyə çatmır.

***İnsan Dəyişməsə – Dünya Dəyişməz.***

İnsan Ağalığı Daxilindən silməsə – Ağalıq Dünyadan silinməz.

İnsan Nökərliyi Daxilindən silməsə – Ağalıq Dünyadan silinməz.

İnsan Təbəqəliyi Daxilindən silməsə – Ağalıq Dünyadan silinməz.

İnsan Yadlaşmanı Daxilindən silməsə – Ağalıq Dünyadan silinməz.

***Adamdan Üstün olan İnsan Yaranmalıdır ki, cəmiyyətdən Üstün olan Xəlqi Birlik Yaransın.***

## 17. Maddiyyatçılıq – Təbiət

Maddiyyatçılıq – İnsanın Təbiət üzərində Ağalığını yaradır – İnsan Təbiətin Yağısına çevrilir.

Maddiyyatçılıq Təbiətə Ölüm Təhlükəsi gətirir – Təbiətin ölümü İnsanın ölümü deməkdir – əslində.

***Maddiyyatçılıq İnsanın Təbiətə məhəbbətinin qarşısına sədd çəkir.***

***İnsanın Təbiətə qarşı Yırtıcılığı Aşkarlanır.***

Təbiət üzərində Ağalıq – İnsanı Təbiətsiz Qalmaq Fəlakətiylə üzləşdirir.

***İnsan Zənginləşdikcə – Yoxsullaşır.***

Madddiyyatçılıq artdıqca – Təbiət əksilir – Təbiətə ***İdraklı münasibət, Mənəvi münasibət*** azalır; Zorakı İradə – İradəsizlik yaradır; – ***Təbiəti Dağıtmaq əslində İradəsizlikdir.***

***Maddiyyatçılığı Ruhaniyyatçılıqla əvəz etmək gərək; Təbiətə Münasibətdə İnsaniliyə çatmaq gərək, İnsan-Təbiət Birliyinə Yüksəlmək gərək.***

## 18. Biliksizlik – Bilik

***Adam*** – Təzahürü Bilir – Mahiyyəti Bilmir.
Hadisəni Bilir – Mənanı Bilmir.
Nisbini Bilir – Mütləqi Bilmir.
Ötərini Bilir – Əzəlini Bilmir.
Keçicini Bilir – Əbədini Bilmir.
Sonlunu Bilir – Sonsuzu Bilmir.
Qeyri-Kamili Bilir – Kamili Bilmir.
Zahirini Bilir – Daxilini Bilmir.
Özgəliyi Bilir – Özümlüyü Bilmir.
Adamlığı Bilir – İnsanlığı Bilmir.
***Adamın Biliyi – Mahiyyətcə Biliksizlikdir.***
***Adam Xeyiri Bilmir.***
***Ədaləti Bilmir.***
***Həqiqəti Bilmir.***
***Adam – Bilikli olduğu dərəcədə Biliksizdir.***
***İnsan Adamdan Üstün olmalıdır ki, Biliyə çatsın – Biliksizliyi ötsün.***

## 19. Sünilik – Əsillik

***Cəmiyyət – Süni Həyat Yaradır.***
***Ağalıq*** – Süni Sədaqət Yaradır.
***Nökərlik*** – Süni Xidmət Yaradır.
***Təbəqə*** – Süni Vəhdət Yaradır.
***Yadlıq*** – Süni Cəmlik Yaradır.
***Cəmiyyət İnamı*** – Süni İnamdır.
***Cəmiyyət İdrakı*** – Süni İdrakdır.
***Cəmiyyət Mənəviyyatı*** – süni Mənəviyyatdır.
***Cəmiyyət İradəsi*** – Süni İradədir.
***İctimailik – Sünilikdir.***
***Cəmiyyətdə Əsillik Həsrəti yaranır.***
Əsil Sədaqət Həsrəti.
Əsil Xidmət Həsrəti.
Əsil Vəhdət Həsrəti.
Əsil İnam Həsrəti.

Əsil İdrak Həsrəti.
Əsil Mənəviyyat Həsrəti.
Əsil İradə Həsrəti.

***Sünilikdən çıxmaq, Əsilliyə çatmaq üçün – cəmiyyətdən Üstün olmaq gərək.***

***Özgəçiliyi rədd edib, – özümləşmək gərək.***

## 20. Köhnəlik – Təzəlik

Cəmiyyət Təzələnmir – bu səbəbdən də həmişə köhnədir.

***Ağalıqsız*** cəmiyyət olmur – bu səbəbdən də cəmiyyət – Ağalıq qədər Köhnədir.

***Nökərliksiz*** cəmiyyət olmur – bu səbəbdən də cəmiyyət – Nökərlik qədər Köhnədir.

***Təbəqəsiz*** cəmiyyət olmur – bu səbəbdən də cəmiyyət – Təbəqəlik qədər Köhnədir.

***Yadlıqsız*** cəmiyyət olmur – bu səbəbdən də cəmiyyət – Yadlıq qədər Köhnədir.

Cəmiyyət Köhnəliyi Qədimliyə qarşıdır – çünki Qədimlik həmişə Təzədir; cəmiyyət həmişə Köhnədir.

Qədimlik – Ülvidir, cəmiyyət – Bəsitdir.

***İnam*** – həmişə Təzədir, Din daim Köhnədir.

***Həqiqət*** – həmişə Təzədir, Cəfəngiyyat – daim Köhnədir.

***Mənəviyyat*** – həmişə Təzədir, Xurafat – daim Köhnədir.

***İradə*** – həmişə Təzədir, İtaət – daim Köhnədir.

***Mütləq*** – daim Təzələnir, ***Nisbi*** – daim Köhnəlir.

***Məna*** – daim Təzələnir, ***Hadisə*** – daim Köhnəlir.

***Əzəli*** – daim Təzələnir, ***Ötəri*** – daim Köhnəlir.

***Əbədi*** – daim Təzələnir, ***Keçici*** – daim Köhnəlir.

***Sonsuz*** – daim Təzələnir, ***Sonlu*** – daim Köhnəlir.

***Kamil*** – daim Təzələnir, ***Qeyri-Kamil*** – daim Köhnəlir.

***Dünya çoxdan köhnəlib, ancaq Dünyadan Üstün olan İnsanlar Yoxdurlar ki, onu Təzələsinlər.***

***Dünyadan Üstün İnsanlar yarananda Dünya Təzələnəcək.***

## 21. Yalan – Doğru

Cəmiyyəti Yaşadan – Yalandır.
Yalan olmasa – Cəmiyyət ölər.
Həqiqət cəmiyyəti öldürər.
***Cəmiyyətin Təməli – Yalandır.***

İnamı – Yalandır.
İdrakı – Yalandır.
Mənəviyyatı – Yalandır.
İradəsi – Yalandır.
Xeyiri – Yalandır.
Ədaləti – Yalandır.
Həqiqəti – Yalandır.

Doğru – Yalana qarşıdır; – bu səbəbdən də cəmiyyətə qarşıdır.
Doğru İnam – Yalançı İnama qarşıdır.
Doğru İdrak – Yalançı İdraka qarşıdır.
Doğru Mənəviyyat – Yalançı Mənəviyyata qarşıdır.
Doğru İradə – Yalançı İradəyə qarşıdır.
Doğru Ədalət – Yalançı Ədalətə qarşıdır.
Doğru Həqiqət – Yalançı Həqiqətə qarşıdır.
Doğru Xeyir – Yalançı Xeyirə qarşıdır.
***Cəmiyyət Yalandan başqa Doğru tanımır.***

Ağalığı Doğruldur.
Nökərliyi Doğruldur.
Təbəqəliyi Doğruldur.
Yadlaşmanı Doğruldur.

***Cəmiyyət Yalandan Yaranıb – Cəmiyyəti Yalandan Qoruyur.***
***Cəmiyyətdən Üstün olan Doğruçuluq gərək Dünyaya – Yalanın Qənimi.***

## 22. Qanun – Qanunsuzluq

***Cəmiyyət Qanunları Qanunsuzluğu Təsdiq edir.***
***Ağalıq*** – Qanunsuzluqdur, cəmiyyət Qanunları Ağalığı Təsdiq edir.
***Nökərlik*** – Qanunsuzluqdur, cəmiyyət Qanunları Nökərliyi Təsdiq edir.

***Təbəqəlik*** – Qanunsuzluqdur, cəmiyyət Qanunları Təbəqəliyi Təsdiq edir.

***Yadlıq*** **–** Qanunsuzluqdur, cəmiyyət Qanunları Yadlığı Təsdiq edir.

***Cəmiyyət İnamı*** – Qanunsuzluqdur; cəmiyyət Qanunları həmin Qanunsuzluğu Təsdiq edir.

***Cəmiyyət İdrakı*** – Qanunsuzluqdur; cəmiyyət Qanunları həmin Qanunsuzluğu Təsdiq edir.

***Cəmiyyət Mənəviyyatı*** – Qanunsuzluqdur; cəmiyyət Qanunları həmin Qanunsuzluğu Təsdiq edir.

***Cəmiyyət İradəsi*** – Qanunsuzluqdur; cəmiyyət Qanunları həmin Qanunsuzluğu Təsdiq edir.

***Cəmiyyət – Qanunsuzluğu Qanunlaşdırır.***

***İnsanilik Hökmünə Yüksəlməli, Qanunsuzluğu rədd etməli, İnsanilik əsasında Yaşamalı, Yaratmalı.***

## 23. Haqq – Haqsızlıq

Cəmiyyət – Haqsızlıq haqqına əsaslanır.

***Ağalıq Haqqı*** – Haqsızlıqdır; cəmiyyət Ağalıq Haqsızlığını Haqq sayır.

***Nökərlik Haqqı*** – Haqsızlıqdır; cəmiyyət Nökərlik Haqsızlığını Haqq sayır.

***Təbəqə Haqqı*** – Haqsızlıqdır; cəmiyyət Təbəqə Haqsızlığını Haqq sayır.

***Yadlaşma Haqqı*** – Haqsızlıqdır; cəmiyyət Yadlaşma Haqsızlığını Haqq sayır.

İnsaniliyə Zidd nə varsa – Haqsızlıqdır.

***İctimai Xeyir*** İnsaniliyə Ziddir; cəmiyyət onu Haqq sayır – Haqsızlıq Haqq sayılır.

***İctimai Ədalət*** İnsaniliyə Ziddir; cəmiyyət onu Haqq sayır – Haqsızlıq Haqq sayılır.

***İctimai Həqiqət*** İnsaniliyə Ziddir; cəmiyyət onu Haqq sayır – Haqsızlıq Haqq sayılır.

***İctimai İnam*** İnsaniliyə Ziddir; cəmiyyət onu Haqq sayır – Haqsızlıq Haqq sayılır.

***İctimai İdrak*** İnsaniliyə Ziddir; cəmiyyət onu Haqq sayır – Haqsızlıq Haqq sayılır.

***İctimai Mənəviyyat*** İnsaniliyə Ziddir; cəmiyyət onu Haqq sayır – Haqsızlıq Haqq sayılır.

***İctimai İradə*** İnsaniliyə Ziddir; cəmiyyət onu Haqq sayır – Haqsızlıq Haqq sayılır.

***Cəmiyyət "Haqqını" – İnsanilik Haqqıyla əvəz etmək – Haqqsızlığı rədd etmək, Haqqı Yüksəltmək – Haqqa Yüksəlmək gərək.***

## 24. Nikbinlik – Təskinlik

İndiki Nikbinliklər – Mahiyyətcə Təskinliklərdir – çünki İnsaniliyə əsaslanmır.

Nikbinliyin meyarı – İnsanilikdir.

Dünya Təzələnməsə – Yaşamaz.

Adam – İnsanilәşməsə – Dünya Təzələnməz.

***Dünya Özündən Üstün olmasa – Tükənər.***

*23 Arzu günü, Ata Ayı, 18-ci il. Bakı.*



# BÜTÖVLÜK HƏQİQƏTİ

## (Otuz birinci Müqəddəs Kitab)

## 1. PARÇALANMA – PARALANMA

İnsan Həyatı Parçalanır, Paralanır; ***Cəmiyyət*** İnsan Həyatını Parçalayır, Paralayır; ***Din*** İnsan Həyatını Parçalayır, Paralayır; ***Fəlsəfə*** İnsan Həyatını Parçalayır, Paralayır. ***Dolanış Tərzi*** İnsan Həyatını Parçalayır, Paralayır.

İnsanı Bəndə sayırlar – Parçalayırlar – Paralayırlar.

İnsanı "Düşünən Heyvan" adlandırırlar – Parçalayırlar – Paralayırlar.

İnsanı "Siyasi Varlıq" adlandırırlar – Parçalayırlar – Paralayırlar.

İnsanı "İctimai Varlıq" adlandırırlar – Parçalayırlar – Paralayırlar.

İnsanı cinsi Ehtiras Aləti sayırlar – Parçalayırlar – Paralayırlar.

İnsanı Qəddar, Amansız, Əxlaqsız "Fövqəlinsan" Aləti sayırlar – Parçalayırlar – Paralayırlar.

İnsan – ***Ağalaşır*** – Parçalanır, Paralanır.

***Nökərləşir*** – Parçalanır, Paralanır.

***Təbəqələşir*** – Parçalanır, Paralanır.

İnsandakı Mütləqiliyi danırlar. İnsanın Şəraitdən, Mühitdən, Zamandan, Cəmiyyətdən Üstünlüyünü danırlar, Özümlüyünü danırlar, – Kamilləşmə İmkanını danırlar.

İnsanın özündə Mütləqilik – yəni Əzəli, Əbədi, Sonsuz, Kamil Xeyir – gəzdirdiyinə, yaşatdığına İnanmırlar.

İnsanı Bütöv görmürlər – İnsanda Bütövlük görmürlər.

***İnsan özündə Mütləqilik gəzdirən, bu səbəbdən də Şəraitdən, Mühitdən, Zamandan, Cəmiyyətdən Üstün olan, Mütləqləşməyə can atan və Mütləqləşməyə Qadir olan Ruhani Varlıqdır – bunu görmürlər.***

Şəraitçi İnsan yaradırlar, – İnsanı Parçalayırlar, Paralayırlar.

Mühitçi İnsan yaradırlar, – İnsanı Parçalayırlar, Paralayırlar.

Zamançı İnsan yaradırlar, – İnsanı Parçalayırlar, Paralayırlar.

Cəmiyyətçi İnsan yaradırlar, – İnsanı Parçalayırlar, Paralayırlar.

İnsanı Şərait Alətinə çevirirlər – Parçalayırlar, Paralayırlar.

İnsanı Mühit Alətinə çevirirlər – Parçalayırlar, Paralayırlar.

İnsanı Zaman Alətinə çevirirlər – Parçalayırlar, Paralayırlar.

İnsanı Cəmiyyət Alətinə çevirirlər – Parçalayırlar, Paralayırlar.

Ötəridə Əzəlini itirirlər, – Həyatı Parçalayırlar, Paralayırlar.

Keçicidə Əbədini itirirlər, – Həyatı Parçalayırlar, Paralayırlar.

Sonluda Sonsuzu itirirlər, – Həyatı Parçalayırlar, Paralayırlar.

Qeyri-Kamildə Kamili itirirlər, – Həyatı Parçalayırlar, Paralayırlar.

Parçalanmış, Paralanmış İnsan yaranır.

Parçalanmış, Paralanmış Həyat yaranır.

Bütövlük Ehtiyacı yaranır – Qəti, Tam.

## 2. MATERİYAÇILIQ – İDEYAÇILIQ

Fəlsəfəni İdeyaçılığa (İdealizmə) və Materiyaçılığa (Materializmə) bölürlər, – Parçalayırlar, Paralayırlar.

Həyat ***Cismanilikdən*** ibarətdir – deyir materialistlər.

Həyat ***İdeyalardan*** ibarətdir – deyir idealistlər.

***İdeyanı cisimdən, cismi ideyadan ayırırlar.***

***Dünyaya baxış Parçalanır, Paralanır...***

***Cismanilik Fəlsəfəsi, İdeyaçılıq Fəlsəfəsi*** yaranır – Fəlsəfə Həqiqətdən uzaq düşür, çünki Parçalanan, Paralanan həqiqət – həqiqət olmur.

***Dünyaya, Həyata, İnsana Bütöv görüm – Mütləqilik görümü lazımdır.***

***Dünya*** – İdeyadan ibarət deyil, çünki İdeya Mahiyyətin, Mənanın özü deyil, ifadəsidir.

***Həyat*** – İdeyadan ibarət deyil, çünki İdeya Mahiyyətin, Mənanın özü deyil, ifadəsidir.

***İnsanilik*** – İdeyadan ibarət deyil, çünki İdeya Mahiyyətin, Mənanın özü deyil, ifadəsidir.

Dünya, Həyat, İnsanilik – cismanidən ibarət deyil, çünki cismani ötəridir, keçicidir, sonludur, qeyri-kamildir – bu səbəbdən də ölümlüdür.

***Dünya – öz Mütləq Özümlüyündən, Mahiyyətindən, Mənasından yaranıb.***

Dünyadakılar həmin Mütləqiliyin Təzahürüdür, İdeyalar onun İfadəsidir.

Mütləqilik cismaniliyi İdeyalara qarşı, İdeyaları cismaniliyə qarşı qoymur.

***O, Dünyaya Bütöv nəzərlə baxır:*** Cismanilik – Mahiyyətin Təzahürü, İdeyaçılıq – Mahiyyətin İfadəsi sayılır.

Dünya – ***Dünyalıq*** adlı Mahiyyətə əsaslanır: Cismanilik Dünyalığın Təzahürü, İdeyaçılıq – Dünyalığın ifadəsidir.

Həyat – ***Həyatlıq*** adlı Mahiyyətə əsaslanır: Cismanilik Həyatlığın Təzahürü, İdeyaçılıq Həyatlığın İfadəsidir.

İnsan – ***İnsanilik*** adlı Mahiyyətə əsaslanır: Cismanilik İnsaniliyin Təzahürü, İdeyaçılıq – İnsaniliyin İfadəsidir.

***Dünya, Həyat, İnsanilik – cismanilik də deyil, ideyaçılıq da, – o, Mütləqçilikdir – Mahiyyətçilikdir, Mənaçılıqdır, Özümçülükdür.***

Dünyanın Mütləq Əsası – Özümlüyü var; o, özgəliyə əsaslanmır; Dünya Özümlüyündən doğur, onun Yaradana, Allaha ehtiyacı yoxdur.

***Mütləqilik Dünyanın Özümlüyündədir.***

Materializm və İdealizm – Parçalanan, Paralanan İdrakdır, bu səbəbdən də Həqiqətə Yetmir, çünki Həqiqət Bütövdür – Parçalanmır, Paralanmır.

***Mütləqçilik*** İdrak Bütövlüyüdür, bu səbəbdən də Həqiqətə çatır. ***Bütöv İdrak – Bütöv Həqiqətə Yetir.***

## 3. DƏRK EDƏN – DƏRK OLUNAN

*(Subyekt – Obyekt)*

Dərk edənlə (Subyekt) Dərk olunan (Obyekt) arasında Təzad yaradırlar – ***İdrakiliyi*** Parçalayırlar, Paralayırlar ***Materialistlər.***

Dərk edəndən başqa Dərk olunan bilmirlər – Subyektdən başqa Obyekt görmürlər, Dərk olunanı Dərk edəndə itirirlər ***Subyektiv İdealistlər*** – İdrakiliyi Parçalayırlar, Paralayırlar.

"Dərk edən Dərk olunanı yaradır" deyirlər ***Kantçılar*** – İdrakiliyi Parçalayırlar, Paralayırlar.

Əslində isə Dərk edənlə Dərk olunan arasında Mahiyyət Birliyi var – Dünyalıqla İnsanilik arasında Mahiyyət Birliyi var.

Həyatlıqla İnsanilik arasında Mahiyyət Birliyi var.

***Xarici Aləm mahiyyətcə Daxili Aləmlə Təndir.***

Dünyanı Dərk edən – Mahiyyətcə İnsanı Dərk edir – İnsaniliyi Dərk edir. (Zəkaçılar)

Dünya Təzahürləriylə İnsana Özgədir, Mahiyyətiylə İnsanla Birdir.

***Dünyada İnsanilik var – İnsanda Dünyalıq.***

Həm Dünya, həm İnsan – Əzəli, Əbədi, Sonsuz, Kamil Mahiyyətə malikdir.

Dünyayla İnsan arasında Təzahür Özgəliyi var – Mahiyyət Özgəliyi yoxdur.

Dünyayla İnsan arasında Hadisə Özgəliyi var – Məna Özgəliyi yoxdur.

***Dünyadakılar*** İnsandan Xaricdədirlər; Dünyanın Mahiyyəti İnsanla Birdir.

***Dünyadakıları dərk edən Elm Xaricdəkiləri dərk edir; subyekt-obyekt əlaqələri yaradır; – Təzahürü Mahiyyətdən ayırır, – bu natamam İdrakilikdir əslində.***

Əsil İdrakilik – Dərk edən və Dərk olunan; İnsan və Dünya Birliyinə Yetməkdir; Dünyaya Bütöv Münasibət bəsləməkdir.

***Bu vəzifəni Mütləqçilik Fəlsəfəsi yerinə yetirir.***

Həm Dünyanın, həm də İnsanın əsası – Mütləq Mahiyyətdir; – yəni Əzəli, Əbədi, Sonsuz, Kamil Xeyirdir.

Yəni Dünya və İnsan Mahiyyətcə Birdir.

İdrak əslində Yaxını Uzaqlaşdırmaq yox, Uzağı Yaxınlaşdırmaq məqsədi güdür.

İnsan Dünyanı dərk etdikcə – ona yaxınlaşır; "özgələşdikcə" "özümləşir".

Mütləqçilik – İnsan–Dünya Bütövlüyünü dərk edir; İnsan-Dünya münasibətlərini Bütöv görür.

Materializmin "xariciləşmə" yönü – Dünyanı böyütmür, kiçildir, – burada Dünya İnsanı itirir.

"Subyektiv İdealizm"in İnsaniləşmə Yönü – İnsanı Böyütmür, Kiçildir – onu Dünyasız qoyur. Kantçılığın "İdrak Dünyanı yaradıb" iddiası – Dünyanı Təməlsiz qoyur; İdrakı mahiyyətsizləşdirir: Özünə qapılan İdrak Dünya adlı Təməlini itirir, Böyüdən görünür, əslində kiçildir.

***Dünyanı dərk etmək onun Mütləqiliyini dərk etməkdir.***

***Mütləqçilikdə – Dünyaçılıq–İnsançılıq Birliyi Təsdiq olunur.***

## 4. ZƏKA – DUYĞU

Duyğudan ayrılmış Zəka Fəlsəfəsi Yaradırlar ***Rasionalistlər*** (Zəkaçılar).

Zəkadan ayrılmış Duyğu Fəlsəfəsi Yaradırlar ***Sensualistlər*** (Duyğuçular).

Duyğusuz Zəka Fəlsəfəsi yaradırlar.

Zəkasız Duyğu Fəlsəfəsi yaradırlar.

Duyğusuzluq Fəlsəfəsi yaradırlar.

Zəkasızlıq Fəlsəfəsi yaradırlar.

Duyğunu Parçalayırlar, Paralayırlar.

Zəkanı Parçalayırlar, Paralayırlar.

***Əslində Duyğu – Zəka Çayıdır; Zəka – Duyğu Dağıdır.***

***Rasionalizm*** – Zəkanı Dondurur.

***Sensualizm*** – Duyğunu Dağıdır.

***Zəka – Duyğu məcrasındadır.***

***Duyğu – Zəka axarındadır.***

***Zəka Duyğunu nizamlayır.***

***Duyğu Zəkanı bəhrələyir.***

***Zəkanın Duyğu Zənginliyi var.***

***Duyğunun Zəka Zənginliyi var.***

Duyğu Zənginliyindən məhrum olan Zəka – Yoxsulluqdur.

Zəka Zənginliyindən məhrum olan Duyğu Yoxsulluqdur.

***Duyğusuz Zəka – Yoxsulluqdur.***

***Zəkasız Duyğu Yoxsulluqdur.***

Duyğusuz Zəka vasitəsiylə Həqiqətə Yetmək olmaz.

Çünki Duyulmayan Həqiqət – Həqiqət deyil.

Zəkasız Duyğu vasitəsiylə Həqiqətə Yetmək olmaz, çünki İdraksız Həqiqət olmur.

***İdraklı Həqiqət – Duyulur.***

***Duyulan Həqiqət – Dərk olunur.***

Duyğusuz Zəka vasitəsiylə İnama Yetmək olmaz.

Çünki Duyulmayan İnam olmur.

Zəkasız Duyğu vasitəsiylə İnama Yetmək olmaz.

Çünki İdraksız İnam olmur.

Duyğusuz Zəka vasitəsiylə Mənəviyyata Yetmək olmaz.

Çünki Duyulmayan Mənəviyyat olmur.

Zəkasız Duyğu vasitəsiylə Mənəviyyata Yetmək olmaz.
Çünki İdraksız Mənəviyyat olmur.
Duyğusuz Zəka vasitəsiylə İradəyə Yetmək olmaz.
Çünki Duyulmayan İradə olmur.
Zəkasız Duyğu vasitəsiylə İradəyə Yetmək olmaz.
Çünki İdraksız İradə olmur.
Rasionalizm və Sensualizm İdrakı Parçalayır, Paralayır.
***Sırf Zəka Fəlsəfəsi*** – Əskik İdrak Fəlsəfəsidir.
***Sırf Duyğu Fəlsəfəsi*** – Əskik İdrak Fəlsəfəsidir.
Hər ikisində İdrak öz Bütövlüyünü itirir.
***Mütləqçilik*** Zəka–Duyğu Birliyini – İdrak Bütövlüyünü Təsdiq edir; Duyğulu Zəka, Zəkalı Duyğu Həqiqətinə əsaslanır.

## 5. ŞÜUR – ŞÜURSUZLUQ

***Şüursuzluğu, Şüuraltılığı*** Şüura qarşı qoyurlar; İnsan Həyatının əsasını Şüursuz meyllərdə, cinsi ehtiraslarda, kollektiv instinktlərdə görürlər Freydçilər; İnsanla Heyvan, sağlamla xəstə arasında Fərqsizlik tapırlar; İnsanı Heyvanlaşdırırlar, Sağlamı Xəstələndirirlər.

Əslində isə Şüursuzluq, Şüuraltılıq adlanan nə varsa – Şüurun aşağı pilləsidir; İnsanın Heyvandan, Sağlamın Xəstədən Fərqi Tamdır, Bütövdür; İnsan Həyatının Təməli Şüurdur – (Duyğu da Şüurun Xassəsidir); "Şüursuzluq", "Şüuraltılıq" İnsan Psixologiyasının Dərinliyində yox – Üzdədir; – Freydin, Yunqun yaratdıqları Dərinlik Psixologiyası əslində Səthilik Psixologiyasıdır. İnsanın – Heyvani Təməli yoxdur, İnsani Təməli var; Xəstə Təməli yoxdur – Sağlam Təməli var.

İnsanı Şüur idarə eləyir – İnstinkt idarə eləmir; Freydçilik – Elmi Nəzəriyyə deyil – Elmi əsatirdir – İnsan üzərində Libido (cinsi meyl) Diktatorluğu – Uydurmadır; İnsanı Əksiltməkdir; "Psixoloji" Dindir, bioloji Qismətçilikdir: İnsan üzərində Şüursuzluq, Şüuraltılıq Ağalığı – iddiası Allah Qadirsizliyidir; cəmiyyətçiliyin Psixologiyaya şamil edilməsidir.

Özündə Mütləqilik gəzdirən Xilqəti Şüursuzluğa, Şüuraltılığa bağlamaq – onu Anlamamaqdır.

Şəraitdən, Mühitdən, Zamandan, Cəmiyyətdən Üstün olanı – Şüursuzluğa, Şüuraltılığa bağlamaq – onu Anlamamaqdır.

Mütləqiliyə can atan və Kamilliyə qadir olan Xilqəti – Şüursuzluğa, Şüuraltılığa bağlamaq – onu Anlamamaqdır.

***"Şüursuzluq Psixologiyası" İnsanı dərk etmir, Qeyd edir və Qeyd əsasında geniş konsepsiya Uydurur.***

***Şüursuzluq Psixologiyası – Anlamamaq Anlağıdır.***

"Edip kompleksi" iddiası (uşağın anasına şüuraltı cinsi meyli və atasına rəqabət duyğusu haqqında uydurma) Nəzəriyyə deyil, Mifoloji quraşdırmadır.

İnsanın fitri nevrotikliyi, əxlaqın İnsan Təbiətini tapdaması haqqında iddia bulanıq Xəyalın məhsuludur.

"Şüursuzluq Psixologiyası" İnsanı süni surətdə İkiləşdirir.

Əslində isə İnsan naqislikdən xali olmasa da – Mahiyyətcə birdir, Bütövdür; – Şüursuzluq, Şüuraltılıq adlanan nə varsa, – Şüurun Təzahürüdür.

***İnsanda İnstinkt bu və ya digər dərəcədə Şüurludur.***

Şüursuzluq Psixologiyasının yazılması səbəbi – İnsana İnamsızlıqdır.

Freydizm – Fəlsəfə deyil – haldır, ovqatdır – İnamsızlıq halıdır, ovqatıdır.

***Mütləqçilik*** – Bütöv İnsan Fəlsəfəsidir, İnsana İnam Ruhaniliyidir, İnsançılıq Həqiqətidir.

## 6. GERÇƏKLİK – İDEAL

Gerçəklik vasitəsiylə İdealı rədd edirlər.

İdeal vasitəsiylə Gerçəkliyi rədd edirlər.

***İdealsız Gerçəklik yaradırlar, – Gerçəkliksiz İdeal yaradırlar. Gerçəkliyi İdealsızlaşdırırlar; İdealı – Gerçəksizləşdirirlər.***

***İdealsız Gerçəklik – Mahiyyətsiz, Mənasız Gerçəklikdir.***

***Gerçəkliksiz İdeal – Təzahürsüz İdealdır.***

İdeal – Gerçəkliyin Mahiyyətinə, Mənasına çatır; Gerçəkliyi rədd etmir, Təsdiq edir.

Gerçəklik İdealı rədd etmir, həyata keçirir.

Həyat Mənasızlaşanda – İdealsızlaşır.

İdeal – Həyatsızlaşanda – Cansızlaşır.

İdealın ***canlılığını*** Gerçəklik ifadə edir. Gerçəkliyin Mənalılığını İdeal ifadə edir.

***İdeal Gerçəklikdə canlanır.***

***Gerçəklik İdealda Mənalanır.***

***İdeal – canlı Mənadır.***

***Gerçəklik – Mənalı canlılıqdır.***

***Gerçəklik*** İdealla Bütövdür, İdealsız Parçalanmış, Paralanmış haldadır.

***İdeal*** – Gerçəklikdə Bütövdür, Gerçəkliksiz Parçalanmış, Paralanmış haldadır.

***İdeal Gerçəklikdən Üstündür, çünki Gerçəkliyin Mənası Gerçəklikdən Üstündür; İdeal Gerçəkliyin Mənasından Üstün deyil, bu səbəbdən də Gerçəkliyi rədd etmir.***

İdeal Gerçəklikdən Üstündür, həm də Gerçəkliklə Birdir; İdeal Gerçəkliyin Mahiyyətiylə Birdir; bu səbəbdən də İdeal Üstünlüyü Gerçəkliklə Birliyi rədd etmir, Təsdiq edir.

Gerçəklik İdealdan əskikdir; ancaq Mənaya qarşı deyil, ona meyl edir, mahiyyətcə onunla Birdir; İdeal Gerçəkliyi Mənaya Yüksəldir.

Gerçəklik İdeal vasitəsiylə Mənaya yüksəlir.

***İnam*** – İdeal gerçəkliyidir, gerçəklik İdealıdır.

***İdrak*** – İdeal gerçəkliyidir, gerçəklik İdealıdır.

***Mənəviyyat*** – İdeal gerçəkliyidir, gerçəklik İdealıdır.

***İradə*** – İdeal gerçəkliyidir, gerçəklik İdealıdır.

İdeal gerçəkliyə enmir, Gerçəklik İdeala Yüksəlir.

***İdeal – Gerçəklikdən Üstün olduğu dərəcədə gərək olur.***

Gerçəkliyə İdeal Üstünlüyü gərək olmur.

***Mütləqçilik*** İdeal – Gerçəklik Birliyinə əsaslanır, gerçəkləşən İdeal – İdeallaşan Gerçəklik Bütövlüyünü Təsdiq edir.

## 7. AZADLIQ – ZƏRURƏT

Dünya Gedişatını ***Zərurətlə*** bağlayırlar – Deterministlər (Zərurətçilər).

Dünya Gedişatını ***Azadlıqla*** bağlayırlar – İndeterministlər (Azadlıqçılar).

Əslində isə Dünyanın Mahiyyətində Azadlıq Zərurəti yaşayır – Bütöv, Möhkəm, Dönməz.

Əzəli olan – Azaddır.
Əbədi olan – Azaddır.
Sonsuz olan – Azaddır.
Kamil olan – Azaddır.
***Mahiyyət Azaddır.***
Mahiyyət həm də Zəruridir.
Mahiyyət – Azadlıq Zəruriyyətidir.

***Təzahür*** – Mahiyyət deyil, bu səbəbdən də Azad deyil, ancaq Mahiyyətə can atır, Azadlıq Zərurətini Təsdiq edir.

***Ötəri*** – Azad deyil, ancaq Azadlığa – Əzəliyə can atır – Azadlıq Zərurətini Təsdiq edir.

***Keçici*** – Azad deyil, ancaq Əbədiyə can atır – Azadlıq Zərurətini Təsdiq edir.

***Sonlu*** – Azad deyil, ancaq Sonsuzluğa can atır – Azadlıq Zərurətini Təsdiq edir.

Qeyri-Kamil – Azad deyil, ancaq Kamilliyə can atır – Azadlıq Zərurətini Təsdiq edir.

***Azadlıq Zərurəti*** – Təzahürü Mahiyyətlə Birləşdirir.
Ötərini Əzəliylə Birləşdirir.
Keçicini Əbədiylə Birləşdirir.
Sonlunu Sonsuzla Birləşdirir.
Qeyri-Kamili Kamillə Birləşdirir.
***İnsanilik – Azaddır.***

***İnam*** – Azaddır – İnsanda İnam Zərurəti yaşayır; – Azadlıq Zərurəti yaşayır.

***İdrak*** – Azaddır – İnsanda İdrak Zərurəti yaşayır; – Azadlıq Zərurəti yaşayır.

***Mənəviyyat*** – Azaddır – İnsanda Mənəviyyat Zərurəti yaşayır; – Azadlıq Zərurəti yaşayır.

***İradə*** – Azaddır – İnsanda İradə Zərurəti yaşayır; – Azadlıq Zərurəti yaşayır.

Zərurəti Azadlıqdan Ayırırlar – Qismətçilik yaranır (Dinçilik).

Azadlığı Zərurətlə bərabərləşdirirlər – Qismətçilik yaranır (Hegelçilik).

***Mütləqçilik*** – Azadlıq Zərurətini Təsdiq edir, onu Dünya Gedişatının əsası sayır, onun gerçəkləşməsinə çalışır...

## 8. XARİCİ – DAXİLİ

Gerçəklikdən Üstün olanı – Gerçəkliyə qarşı qoyurlar Transendentçilər (“Xaricçilər”).

Gerçəkliyi Gerçəklikdən Üstün olana qarşı qoyurlar İmmanentçilər (“Daxilçilər”).

***Əslində isə Gerçəklikdən Üstün olan Gerçəkliyin Daxilindədir.***

***Mütləqi*** Nisbiyə qarşı qoyurlar – Nisbidən Xaricdə axtarırlar – əslində isə Mütləq Nisbinin Daxilindədir – Mahiyyətində, Mənasındadır.

***Mahiyyəti*** Təzahürə qarşı qoyurlar – onu Təzahürdən Xaricdə axtarırlar – əslində isə Mahiyyət Təzahürün Daxilindədir.

***Əzəlini*** Ötəriyə qarşı qoyurlar – onu Ötəridən Xaricdə axtarırlar – əslində isə Əzəli Ötərinin Daxilindədir.

***Əbədini*** Keçiciyə qarşı qoyurlar – onu Keçicidən Xaricdə axtarırlar – əslində isə Əbədi Keçicinin Daxilindədir.

***Sonsuzluğu*** Sonluya qarşı qoyurlar – onu Sonludan Xaricdə axtarırlar – əslində isə Sonsuz Sonlunun Daxilindədir.

***Kamilliyi*** Qeyri-Kamilə qarşı qoyurlar – onu Qeyri-Kamildən Xaricdə axtarırlar – əslində isə Kamillik Qeyri–Kamilin Daxilindədir.

***Nisbidən Üstün olanın*** Nisbinin daxilində olması Ağıla sığmır.

***Təzahürdən Üstün olanın*** Təzahürün daxilində olması Ağıla sığmır.

***Ötəridən Üstün olanın*** Ötərinin daxilində olması Ağıla sığmır.

***Keçicidən Üstün olanın*** Keçicinin daxilində olması Ağıla sığmır.

***Sonludan Üstün olanın*** Sonlunun daxilində olması Ağıla sığmır.

***Qeyri-Kamildən Üstün olanın*** Qeyri-Kamilin daxilində olması Ağıla sığmır.

Əslində isə ***Nisbinin əsası*** – Mütləqdir – Nisbidən Üstün olandır.

***Təzahürün əsası*** – Mahiyyətdir – Təzahürdən Üstün olandır.

***Hadisənin əsası*** – Mənadır – Hadisədən Üstün olandır.

***Keçicinin əsası*** – Əbədilikdir – Keçicidən Üstün olandır.

***Sonlunun əsası*** – Sonsuzluqdur – Sonludan Üstün olandır.

***Qeyri-Kamilin əsası*** – Kamillikdir – Qeyri-Kamildən Üstün olandır.

***Mütləqilik*** Nisbiliyi yaşadır.

***Mahiyyət*** Təzahürü yaşadır.

***Məna*** Hadisəni yaşadır.
***Əzəlilik*** Ötərini yaşadır.
***Əbədilik*** Keçicini yaşadır.
***Sonsuzluq*** Sonlunu yaşadır.
***Kamillik*** Qeyri-Kamili yaşadır.
***Transendentçilər*** – Mahiyyəti Təzahürdən məhrum edirlər.
***İmmanentçi*** Mahiyyət-Təzahür Birliyini Təsdiq edir.

## 9. BİRLİK – MÜXTƏLİFLİK

Birliyi Müxtəlifliyə qarşı qoyurlar, Müxtəliflikdən təcrid olunmuş Birlik arzulayırlar – "Tərəqqiçilər".
Müxtəliflik Birliyindən başqa Birlik yoxdur.
Müxtəliflik Yoxsa – Birlik də Yoxdur.
Müxtəlifliyi İnkar edən Birlik Yoxdur.
Müxtəlifliyi inkar etmək – Birliyi inkar etməkdir.
***Mütləq*** – Birdir; ***Nisbilər*** – Müxtəlif.
Mütləq – Nisbilər Birliyi Yaradır. Nisbilər Mütləqdən yaranır, Mütləqi Yaşadır.
***Nisbilər olmasa – Mütləq Yaşamaz.***
***Müxtəliflik olmasa – Birlik Yaşamaz.***
***Mahiyyət*** – Birdir; ***Təzahürlər*** – Müxtəlif.
Mahiyyət – Təzahürlər Birliyi yaradır.
Təzahürlər Mahiyyətdən Yaranır, Mahiyyəti Yaşadır.
***Təzahürlər olmasa – Mahiyyət Yaşamaz.***
***Müxtəliflik olmasa – Birlik Yaşamaz.***
***Məna*** Birdir – ***Hadisələr*** Müxtəlif.
Məna Hadisələr Birliyi yaradır.
Hadisələr – Mənadan Yaranır, Mənanı Yaşadır.
***Hadisələr olmasa – Mahiyyət Yaşamaz.***
***Müxtəliflik olmasa – Birlik Yaşamaz.***
***Nisbilər*** Mütləqə can atır – Birlik yaranır.
***Təzahürlər*** Mahiyyətə can atır – Birlik yaranır.
***Hadisələr*** Mənaya can atır – Birlik yaranır.
***Ötərilər*** Əzəliyə can atır – Birlik yaranır.
***Keçicilər*** Əbədiyə can atır – Birlik yaranır.
***Sonlular*** Sonsuza can atır – Birlik yaranır.

***Qeyri-Kamillər*** Kamilə can atır – Birlik yaranır.
Dünya Birdir – Dünyadakılar Müxtəlif.
Müxtəlif Dünyadakılar Bir Dünyada Birləşir.
***Həyat*** – Birdir, ***Həyatdakılar*** – Müxtəlif.
Müxtəlif Həyatdakılar Bir Həyatda Birləşir.
***İnsanilik*** Birdir – ***İnsanlar*** Müxtəlif.
Müxtəlif İnsanlar Bir İnsanilikdə Birləşir.
***Bəşər*** Birdir – ***Millətlər*** Müxtəlif.
Müxtəlif Millətlər Bir Bəşərdə birləşir; Millət ölsə, Bəşər də ölər.
Bir Millətə çevrilən Bəşər – ölər.
Bir Dövlətdə Birləşən Bəşər – ölər.
***Ümumbəşəri Dövlət ideyası Ölümcül ideyadır.***
***Müxtəlifliyə qarşı Birliyi qoyurlar "Tərəqqiçilər".***
***Müxtəliflik Birliyini Təsdiq edir Mütləqçilik – Birlik Bütövlüyünü, Zənginliyini, Həqiqiliyini.***

## 10. İNSAN – CƏMİYYƏT

İnsanı cəmiyyətin ayağına bağlayırlar ***cəmiyyətçilər.***
***Ağalığın*** Ayağına bağlayırlar.
***Ağalıq*** – İnsaniliyə Ziddir.
***İnama Ziddir*** – İnam Ağalığı rədd edir.
***İdraka Ziddir*** – İdrak Ağalığı rədd edir.
***Mənəviyyata Ziddir*** – Mənəviyyat Ağalığı rədd edir.
***İradəyə Ziddir*** – İradə Ağalığı rədd edir.
***İnsaniliyə Zidd olandan İnsan xilaskarı Uydururlar.***
İnsanı ***Nökərliyin*** Ayağına bağlayırlar.
***Nökərlik*** İnsaniliyə Ziddir.
***İnama Ziddir*** – İnam Nökərliyi rədd edir.
***İdraka Ziddir*** – İdrak Nökərliyi rədd edir.
***Mənəviyyata Ziddir*** – Mənəviyyat Nökərliyi rədd edir.
***İradəyə Ziddir*** – İradə Nökərliyi rədd edir.
***İnsaniliyə Zidd olandan İnsan xilaskarı Uydururlar.***
İnsanı ***Təbəqəçiliyin*** Ayağına bağlayırlar.
***Təbəqəçilik*** İnsaniliyə Ziddir.
***İnama Ziddir*** – İnam Təbəqəçiliyi rədd edir.
***İdraka Ziddir*** – İdrak Təbəqəçiliyi rədd edir.

***Mənəviyyata Ziddir*** – Mənəviyyat Təbəqəçiliyi rədd edir.
***İradəyə Ziddir*** – İradə Təbəqəçiliyi rədd edir.
***İnsaniliyə Zidd olandan İnsan xilaskarı Uydururlar.***
İnsanı ***Özgələşmənin*** Ayağına bağlayırlar.
***Özgələşmə*** İnsaniliyə Ziddir.
***İnama Ziddir*** – İnam Özgələşməni rədd edir.
***İdraka Ziddir*** – İdrak Özgələşməni rədd edir.
***Mənəviyyata Ziddir*** – Mənəviyyat Özgələşməni rədd edir.
***İradəyə Ziddir*** – İradə Özgələşməni rədd edir.
***İnsaniliyə Zidd olandan İnsan xilaskarı Uydururlar.***
İnsan ***Ağalıqda*** Özümlüyündən Ayrılır – Özgələşir, özünə yad olur.
***Nökərlikdə*** Özümlüyündən Ayrılır – Özgələşir, özünə yad olur.
***Təbəqəçilikdə*** Özümlüyündən Ayrılır – Özgələşir, özünə yad olur.
Cəmiyyət İnamı Yaradırlar – İnama Zidd.
Cəmiyyət İdrakı Yaradırlar – İdraka Zidd.
Cəmiyyət Mənəviyyatı Yaradırlar – Mənəviyyata Zidd.
Cəmiyyət İradəsi Yaradırlar – İradəyə Zidd.
Cəmiyyət İnsan Birliyi deyil – İnsan Cəmidir.
***Cəmlə Birliyi Eyniləşdirirlər.***
***Cəm*** – Birlik yaratmır – Yığın yaradır, Mərəkə yaradır.
***Birlik*** – İnsanilik üstə qurulur; – İnam üstə qurulur, İdrak üstə qurulur, Mənəviyyat üstə qurulur, İradə üstə qurulur.
Hələlik İnsanilik Yığın səviyyəsindədir, Mərəkə səviyyəsindədir. Xəlqi Birlik hələ yaranmayıb, onun ayrı-ayrı ünsürləri var; camaat xalqa çevrilməyib – buna cəmiyyət mane olur.
Ağalıq olan yerdə Xəlqi Birlikdən danışmaq olmaz.
Ağalığa – Xəlqi Birlik gərək deyil – Mərəkə gərək, Yığnaq gərək.
Nökərlik olan yerdə Xəlqi Birlikdən danışmaq olmaz.
Nökərliyə – Xəlqi Birlik gərək deyil – Yığnaq gərək, Mərəkə gərək.
Təbəqəçilik olan yerdə Xəlqi Birlikdən danışmaq olmaz.
Təbəqəçiliyə – Xəlqi Birlik gərək deyil –Mərəkə gərək, Yığnaq gərək.
Özgələşmə olan yerdə Xəlqi Birlikdən danışmaq olmaz.
Özgələşməyə – Xəlqi Birlik gərək deyil –Yığnaq gərək, Mərəkə gərək.

***Cəmiyyət İnsanilik əskikliyindən yaranıb.***
İnam əskikliyindən yaranıb.
İdrak əskikliyindən yaranıb.
Mənəviyyat əskikliyindən yaranıb.
İradə əskikliyindən yaranıb.

***Cəmiyyətçilik*** İnsani əskikliyi, natamlığı, – insanilik məziyyəti kimi qələmə verir, ona bəraət qazandırır, onu yaşadır.

***Mütləqçilik*** – İnsani Bütövlüyü, Əsilliyi Təsdiq edir; – Mərəkə əvəzinə, Yığın əvəzinə – Xəlqi Birlik İnsaniliyini.

## 11. FƏRDİLİK – XUDBİNLİK

Fərdiliyi Xudbinliklə eyniləşdirirlər; əslində Fərdilik Xudbinliyə qarşıdır.

***Xudbinlik – Mənəmlikdir, Mənəmlik Mənliyə qarşıdır.***

***Fərdilik – Mənliyin ifadəsidir.***

Mənlik – Özümlüyün ifadəsidir, Mənəmik Özümsüzlüyün.

Xudbinlikdə İnsan Özümlüyündən ayrılır, bu səbəbdən də özgələşir.

Xudbinlik – Özgələşən Mənlikdir.
Cəmiyyət – Xudbinlər Yığnağıdır;
Xalq – Fərdlər Birliyidir.
Xudbinlik – Rəqabət yaradır,
Fərdilik – Ləyaqət.
Xudbinlik – Mənfəətçidir;
Fərdilik – Mərifətçi.
Xudbinlik Ağalığa can atır; Fərdilik Atalığa.
Xudbinlik Xanımlığa can atır; Fərdilik Analığa.
Xudbin – cəmiyyətçidir; Fərd – İnsançı.
Xudbin – Hakimiyyətçidir; Fərd – Həqiqətçi.
Din – Xudbinlikdən yaranıb, İnam – Fərdilikdən.

Fərdilik özündə İnsaniliyi yaşadır, Xudbinlik özümsüzləşən “Mənliyi”.

Xudbin əslində kollektivçidir; xudbin niyyət əsasən kollektiv vasitəsiylə həyata keçirilir.

***Kollektiv çox hallarda Xudbinlər Birliyidir.***

Fərdlər Aşkarlanmağa meyl göstərir; Xudbinlik gizlənməyə.

Fərdiyyətçilik adlanan Naqislik yoxdur – Xudbinlik adlı Naqislik var.

Fərdilik Ləyaqəti var, – Xudbinlik qəbahəti var.

Xudbinlik – Fərdsizlikdir əslində, Mənəmliyin Mənlikdən məhrum olmasıdır; Şəxsiyyətin – Parçalanması, Paralanması – Bütövlüyünü itirməsidir.

Fərdilik – Şəxsiyyət Bütövlüyüdür – Xudbinliyə qarşı çevrilən.

Mütləqçilik – Fərdiliyin Xudbinliyə zidd Təbiətini dərk edir, Təsdiq edir.

## 12. İNSAN MAHİYYƏTİ – İNSAN TƏBİƏTİ

İnsan Mahiyyəti – Bütövdür, – İnsan Təbiəti – Qarışıq.

İnsan Mahiyyəti – Vahiddir; İnsan Təbiəti – Ziddiyyətlidir.

İnsanın Mahiyyətini Təbiətiylə Eyniləşdirirlər və bədbinliyə qapılırlar.

***İnsan Təbiətinin Mahiyyətə Yüksəlməsinə İnanmırlar.***

İnsan Mahiyyəti – Mütləqdir, – İnsan Təbiəti Mütləqlə Nisbinin Qarışığından ibarətdir.

Ancaq İnsan öz Təbiətindən Üstün ola bilər – Bütövlüyə Yetə bilər, – yəni özünü yarada bilər.

***Özünü Yaratmaq – İnsanilik Məqsədidir.***

İnsanın Mahiyyəti Əzəlidir, Təbiəti Əzəliylə Ötərinin qarışığından ibarətdir.

Ancaq İnsan öz Təbiətindən Üstün ola bilər – Bütövlüyə yetə bilər; Ziddiyyətdən üstün ola bilər – Vahidliyə yetə bilər – özünü Yarada bilər.

Özünü Yaratmaq – İnsanilik Məqsədidir.

İnsanın Mahiyyəti Əbədidir, Təbiəti Əbədiylə Keçicinin Qarışığından ibarətdir.

Ancaq İnsan öz Təbiətindən Üstün ola bilər – Bütövlüyə yetə bilər; Ziddiyyətdən Üstün ola bilər – Vahidliyə yetə bilər – özünü Yarada bilər.

***Özünü Yaratmaq – İnsanilik Məqsədidir.***

İnsanın Mahiyyəti Sonsuzdur, Təbiəti Sonsuzla Sonlunun Qarışığından ibarətdir.

Ancaq İnsan öz Təbiətindən Üstün ola bilər – Bütövlüyə Yetə bilər; Ziddiyyətdən Üstün ola bilər – Vahidliyə Yetə bilər – özünü Yarada bilər.

***Özünü Yaratmaq – İnsanilik Məqsədidir.***

İnsanın Mahiyyəti Kamildir, Təbiəti Kamilliklə Qeyri-Kamilliyin Qarışığıdır.

Ancaq İnsan öz Təbiətindən Üstün ola bilər – Bütövlüyə yetə bilər; Ziddiyyətdən Üstün ola bilər – Vahidliyə Yetə bilər – özünü Yarada bilər.

***Özünü Yaratmaq – İnsanilik Məqsədidir.***

İnsanı Tiplərə, Temperamentlərə bölürlər.

Ancaq müxtəlif Temperamentlər, Tiplər Vahid Mahiyyətin təzahürləridir. Tip, Temperament Fərqi Şərti Səciyyə daşıyır.

***Mahiyyətə yetmək tələbi bütün Tiplərə, Temperamentlərə aiddir.***

***İnsanı İnsan eləyən – İnamdır.***

İnsan Təbiətində İnamla yanaşı, İnamsızlıq da Yaşayır.

İnsan İnamsızlıqdan Üstün ola bilər, olmalıdır – İnama Yetə bilər – Yetməlidir, bu onun İnsanilik Məqsədidir.

***Özünü Yaratmaq – İnam Əməlidir.***

İnsanı İnsan eləyən – İdrakdır.

İnsanda İdrakla yanaşı, İdraksızlıq da yaşayır, həqiqətə meyllə yanaşı cəfəngiyyata meyl də yaşayır.

İnsan İdraksızlıqdan Üstün ola bilər, bilməlidir – İdraka Yetə bilər – Yetməlidir, bu onun İnsanilik Məqsədidir.

***Özünü Yaratmaq – İdrak Əməlidir.***

***İnsanı İnsan eləyən – Mənəviyyatdır.***

İnsanda Mənəviyyatla yanaşı, Mənəviyyatsızlıq da yaşayır.

İnsan Mənəviyyatsızlıqdan Üstün ola bilər – bilməlidir – Mənəviyyata Yetə bilər – Yetməlidir; bu onun İnsanilik Məqsədidir.

***Özünü Yaratmaq – Mənəviyyat Əməlidir.***

***İnsanı İnsan eləyən – İradədir.***

İnsanda İradəylə yanaşı, İradəsizlik də Yaşayır.

İnsan İradəsizlikdən Üstün ola bilər – bilməlidir, İradəyə Yetə bilər – Yetməlidir, bu onun İnsanilik Məqsədidir.

***Özünü Yaratmaq – İradə Əməlidir.***

İnsan Mahiyyəti – İnsan Təbiətini Üstələyir.

İnsanda Mahiyyətə Yetmək Tələbi Yaşayır.

***İnsan Təbiət–Mahiyyət Bütövlüyünə can atır.***

## 13. TƏRƏQQİ – TƏNƏZZÜL

Mənəvi Tənəzzül bahasına Yaranan maddi Tərəqqini Tərəqqi sayırlar. Tərəqqini İnsanilikdən Ayırırlar – ***maddiyyatçılar.***

Maddi Tərəqqini rədd edirlər – İnsaniliyi Maddiyata qarşı qoyurlar – ***Mənəviçilər.***

Əslində isə Tərəqqi Birdir, Bütövdür; o, – İnsanilik Tərəqqisidir.

Əslində isə Tənəzzül Birdir, Bütövdür; o, İnsanilik Tənəzzülüdür.

***Maddi Tərəqqi*** – İnsaniliyə xidmət etdiyi dərəcədə – Tərəqqidir.

***Maddi Tərəqqi*** – İnsaniliyə Zidd olduğu dərəcədə – Tənəzzüldür.

***Tərəqqinin Meyarı – İnsanilikdir.***

Maddi Tənəzzül heç vaxt İnsaniliyə xidmət eləmir.

Lakin maddi Tərəqqi də heç vaxt İnsaniliyə xidmət etmir; bu halda o, Tənəzzülə çevrilir.

***İnsanilik Tərəqqisi – İnam Tərəqqisidir.***

İnama xidmət etməyən Tərəqqi Tənəzzüldür əslində.

***İnsanilik Tərəqqisi – İdrak Tərəqqisidir.***

İdraka xidmət etməyən Tərəqqi Tənəzzüldür əslində.

***İnsanilik Tərəqqisi – Mənəviyyat Tərəqqisidir.***

Mənəviyyata xidmət etməyən Tərəqqi Tənəzzüldür əslində.

***İnsanilik Tərəqqisi – İradə Tərəqqisidir.***

İradəyə xidmət etməyən Tərəqqi Tənəzzüldür əslində.

İnsanilik Tərəqqisi – Ədalətçilik Tərəqqisidir.

Ədalətçiliyə xidmət etməyən Tərəqqi Tənəzzüldür əslində.

İnsanilik Tərəqqisi – Həqiqətçilik Tərəqqisidir.

Həqiqətçiliyə xidmət etməyən Tərəqqi Tənəzzüldür əslində.

***Tərəqqinin Məqsədi İnsanilikdir.***

***Tərəqqi növləri...***

***Elmi-Texniki Tərəqqi*** – İnsaniliyə xidmət etdiyi dərəcədə Tərəqqidir.

İnsaniliyə xidmət etməyən Elmi-Texniki Tərəqqi – Tənəzzüldür əslində.

***İctimai Tərəqqi*** – İnsaniliyə xidmət etdiyi dərəcədə Tərəqqidir.

İnsaniliyə xidmət etməyən İctimai Tərəqqi – Tənəzzüldür.

***Tərəqqinin Məqsədi – İnsanilikdir.***

***Tərəqqi növləri həmin Məqsədi həyata keçirən Vasitələrdir.***

## 14. İMKAN ÜSTÜNLÜYÜ...

Imkanı – Gerçəkliklə Eyniləşdirirlər; Gerçəklikdən Üstün İmkan görmürlər.

***Mahiyyət İmkanı görmürlər.***

Mahiyyət – Gerçəklikdən Üstündür.

Bu səbəbdən də Gerçəklikdən Üstün olan İmkan Var – bunu görmürlər.

Imkanı Gerçəkliyə bərabər sayırlar.

Əslində isə Təzahürlərdə Mahiyyət İmkanı Var – Təzahürlərdən Üstün.

***Hadisələrdə*** Məna İmkanı Var – Hadisələrdən Üstün.

***Ötərilərdə*** – Əzəlilik İmkanı Var – Ötərilərdən Üstün.

***Keçicilərdə*** – Əbədilik İmkanı Var – Keçicilərdən Üstün.

**Sonlularda** – Sonsuzluq İmkanı Var – Sonlulardan Üstün.

Qeyri-Kamillərdə – Kamillik İmkanı Var – Qeyri-Kamillərdən Üstün.

İmkan əslində ***Gerçəklik*** həddindən Artıqdır.

***Təzahür*** həddindən Artıqdır.

***Hadisə*** həddindən Artıqdır.

***Ötərilik*** həddindən Artıqdır.

***Keçicilik*** həddindən Artıqdır.

**Sonluluq** həddindən Artıqdır.

***Qeyri-Kamillik*** həddindən Artıqdır.

***Şərait*** həddindən Artıqdır.

***Mühit*** həddindən Artıqdır.

***Zaman*** həddindən Artıqdır.

***Cəmiyyət*** həddindən Artıqdır.

İnsanı Mahiyyətdən Ayırırlar – Mahiyyətsizləşdirirlər.

Ötəriləşdirirlər.

Keçiciləşdirirlər.

Sonlulaşdırırlar.

Qeyri-Kamilləşdirirlər.

Şəraitləşdirirlər.

Mühitləşdirirlər.

Zamanlaşdırırlar.

Cəmiyyətləşdirirlər.

***İmkan – əksilir, parçalanır, paralanır.***

Ötəri İmkana tapınırlar.
Keçici İmkana tapınırlar.
Sonlu İmkana tapınırlar.
Qeyri-Kamil İmkana tapınırlar.
Şərait İmkanına tapınırlar.
Mühit İmkanına tapınırlar.
Zaman İmkanına tapınırlar.
Cəmiyyət İmkanına tapınırlar.
İnam İmkanına Yetmirlər.
İdrak İmkanına Yetmirlər.
Mənəviyyat İmkanına Yetmirlər.
İradə İmkanına Yetmirlər.
İnsanilik İmkanına Yetmirlər.
Gerçəklik İmkanı – natam İmkandır.
İnsanın Bütöv İmkana – Mahiyyət İmkanına Yetmək İmkanı Var – Hünər və Müdriklik tələb edən.

## 15. HƏQİQƏT – CƏFƏNGİYYAT

***Həqiqət*** – Mahiyyətin ifadəsidir
***Cəfəngiyyat*** – Mahiyyətsizliyin.
Həqiqət – Mənanın ifadəsidir
Cəfəngiyyat – Mənasızlığın.
İnsanın – Həqiqətə də meyli var, Cəfəngiyyata da; Mənaya da meyli var, Mənasızlığa da.
Həqiqət – İdrakın məhsuludur, Cəfəngiyyat – İdraksızlığın.
İnsan – ***Mahiyyətcə*** – Həqiqətçidir, Təbiətcə həm Həqiqətçidir, həm də Cəfəngiyyatçıdır.
İnsanın ***Qarışıq Təbiətində*** Həqiqətə də meyl var – cəfəngiyyata da.
İnsan Mahiyyətə Yetməyə can atır, həm də Mahiyyətsizliyə Uyur.
***Xəyal İdrakla Birləşəndə Həqiqətə Yetir.***
***Xəyal İdrakdan Ayrılanda – Cəfəngiyyata Uyur.***
İdrak–Xəyal Birliyi yarananda – İnsan Həqiqətə Yetir.
İdrak–Xəyal Birliyi pozulanda – İnsan Cəfəngiyyata Uyur.
Cəfəngiyyatın Mənası – Mənasızlıqdır, Mahiyyəti – Mahiyyətsizlikdir.

Xəyal İdraksızlaşanda – Cəfəngləşir.

İdrakdan Ayrılmış Xəyalda – cəfəngiyyat İnamlı görünür, İdraklı görünür, Mənəviyyatlı görünür, İradəli görünür.

Mənasız Məna yaranır.

Mahiyyətsiz Mahiyyət yaranır.

Xəyal İdrakla bağlı olmayanda cəfəngiyyat əsarətinə düşür.

Xəyal İdrakla bağlı olanda – Həqiqət azadlığına yetir.

Daxili Aləm Bütövlüyünü itirəndə cəfəngiyyata qapılır.

Daxili Aləm Bütöv olanda Həqiqətə çatır.

## 16. ÜMİD – XÜLYA

Ümid – Gerçəkliyi ötür, Xülya – Gerçəklikdən Qaçır.

Ümid – Mahiyyətdən Güc alır, Xülya – Mahiyyətdən Qaçır.

Ümid – Mənadan Güc alır, Xülya – Mənadan Qaçır.

Ümid – İnamdan Güc alır, Xülya – İnamdan Qaçır.

Ümid – İdrakdan Güc alır, Xülya – İdrakdan Qaçır.

Ümid – Mənəviyyatdan Güc alır, Xülya – Mənəviyyatdan Qaçır.

Ümid – İradədən Güc alır, Xülya – İradədən Qaçır.

Ümid – Gerçəklikdən Üstündür, Xülya – Gerçəklikdən Məhrumdur.

Ümid – Təzahürdən Üstündür, Xülya – Təzahürdən Məhrumdur.

Ümid – Hadisədən Üstündür, Xülya – Hadisədən Məhrumdur.

***Ümid Xülyasız olduğu dərəcədə Qüdrətlidir.***

Ümid – Xülyayla Birləşəndə Ümidsizləşir.

Xülya – Mahiyyətdən Ayrılmış Ümiddir, – əslində Ümidsizlikdir.

Mənadan Ayrılmış Ümiddir – əslində Ümidsizlikdir.

İnamdan Ayrılmış Ümiddir – əslində Ümidsizlikdir.

İdrakdan Ayrılmış Ümiddir – əslində Ümidsizlikdir.

Mənəviyyatdan Ayrılmış Ümiddir – əslində Ümidsizlikdir.

İradədən Ayrılmış Ümiddir – əslində Ümidsizlikdir.

Bütövlüyünü itirmiş, Parçalanmış, Paralanmış, Təməlsiz Ümiddir – əslində Ümidsizlikdir.

İnsanda Ümidə də meyl var, Xülyaya da.

***İnsan Bütövləşdikcə – Mahiyyətləşdikcə – Ümidləşəcək, Xülya əskikliyindən Azad olacaq – İnsaniliyə Yetəcək.***

## 17. İNSANSIZLIQ – İNSANİLİK

***Ağalıq*** – İnsanın İnsanilikdən Ayrılması, ona qarşı çevrilməsidir, İnsanın İnamsızlaşmasıdır.

Ağa – İnsana Alət kimi baxır.

Ağalığa İnanan – İnsana İnanmaz.

Ağalıq İnamı – İnamsızlıqdır.

Ağalıq İdraksızlıqdır.

İnsanı Alətləşdirmək – Qəddar İdraksızlıqdır.

Ağalıq İdraksız olduğu dərəcədə – İnamlıdır.

Ağalıq – Mənəviyyatsızlıqdır – İnsanın Vicdandan Ayrılmasıdır.

Qəddar Təmənnaçılıqdır.

Mənəviyyat – Ağalığa mane olur.

Ağalıq – Mənəviyyatdan keçir.

Ağalıq – İradəsizlikdir.

İradənin Məqsədi – İnsaniliyi Təsdiq etməkdir.

İnsaniliyi rədd etmək – İradəsizlikdir – İradə deyil; İqtidarsızlıqdır – İqtidar deyil; Gücsüzlükdür – Güc deyil.

Ağalığı Təsdiq etmək – Güc deyil – Gücsüzlükdür.

***Cəmiyyət*** Ağalığa Əsaslanır; Ağalığı Yaşadır; İnsansızlığa Yarayır, İnsaniliyə Yaramır.

***Nökərlik*** – İnsanın İnsanilikdən Ayrılması, ona qarşı çevrilməsidir.

İnsanın İnamsızlaşmasıdır.

Nökər – Özümlüyünə inanmır, özündəki İnsana İnanmır, onu əksildir, təhqir edir.

Nökərləşmə – Qəti Özümsüzləşmədir.

Nökərlik – İdraksızlıqdır.

İdrak – Nökərliyi qəbul etməz – Rədd edər.

Nökərliyi seçən – İdrakdan keçir.

Nökərlik – Mənəviyyatsızlaşmadır.

Vicdan – Nökərliyi qəbul etməz.

Nökərliyi qəbul edən – Vicdandan keçir.

Nökərlik – İradəsizlikdir.

İradəsizlik – Nökərliyi yaşadır; Nökərlik İradəsizləşdikcə Yaşayır.

Cəmiyyət – Nökərliyə əsaslanır; Nökərliyi yaşadır – İnsansızlığa Yarayır – İnsaniliyə Yaramır.

***Təbəqəçilik*** – İnsanın İnsanilikdən Ayrılması, ona qarşı çevrilməsidir.

Təbəqəçilik – İnamsızlıqdır.

Təbəqəçiliyə İnanan – İnsana İnanmaz.

Təbəqəçilik Üstünlüyü – İnsani Əskiklikdir.

Yüksək Təbəqə – Aşağı İnamdır.

Təbəqəçilik – İdraksızlıqdır. İdrak Təbəqəçiliyi qəbul etməz.

Təbəqəçi İdrakdan keçir.

İdraksızlıq Təbəqəçiliyə gərək olur.

Təbəqəçilik – Mənəviyyatsızlıqdır.

Vicdan Təbəqəçiliyi qəbul etməz.

Təbəqəçiliyi seçən – Vicdandan keçir.

Vicdansızlıq Təbəqəçiliyə gərək olur.

Təbəqəçilik – İradəsizlikdir.

İradə Təbəqəçiliyi rədd edərdi.

Təbəqəçilik İradəsizliyə əsaslanır; İradəsizlik – Təbəqəçiliyə gərək olur; Təbəqəçiliyi yaşadır – Təbəqəçilik İradəsizlikdə yaşayır. Cəmiyyət Təbəqəçiliyə əsaslanır, Təbəqəçiliyi yaşadır – İnsansızlığa Yarayır – İnsaniliyə Yaramır.

İnsan – Ağalıqda Özgələşir, Nökərlikdə – Özgələşir, Təbəqəçilikdə – Özgələşir.

İnsan İnamlaşdıqca, İdraklaşdıqca, Mənəviyyatlaşdıqca, İradələşdikcə, İnsaniləşdikcə – Ağalıqdan, Nökərlikdən, Təbəqəçilikdən, Özgələşmədən Azad olacaq – Bütöv Özümlüyünü – İnsaniliyini Təsdiq edəcək.

## 18. HƏYAT – ÖLÜM

Ölümü Həyatla Bərabərləşdirirlər, həyata qarşı qoyurlar Ölümçülər, Bədbinlər.

Əslində isə Ölüm – Bütöv həyatın bir hissəsidir.

O, həyatı yaşatmaq üçün Var olub, onun öz Varlığı Yoxdur.

***Ölüm olmasaydı, həyat yaşamazdı.***

Ölüm Həyat üçün Yaşayır – onun öz Həyatı Yoxdur.

Ölüm Var – ancaq Ölümə İnam Yoxdur – Həyata İnam Var.

Ölüm həmişə olub – ancaq Əzəli deyil, Əzəli olan Həyatdır.

***Həyat olmasaydı – Ölüm olmazdı.***

Ölüm həmişə olacaq – ancaq Əbədi deyil, Əbədi olan Həyatdır.
Həyat olmasa – Ölüm olmaz.
Ölüm Həyatla yanaşı yaşayır – onun öz həyatı yoxdur.
Həyatı – Həyatlıq yaşadır; Ölümü – Həyat.
Həyat Mahiyyətdən yaranıb – Ölümün öz Mahiyyəti Yoxdur.
Həyat Mənadan yaranıb – Ölümün öz Mənası Yoxdur.
Ölüm Var olsa da, yaşamır – yaşayan Həyatdır.

## 19. KAMİLLİK TƏLƏBİ

Bütövlüyə Yetmək üçün Kamillik Tələb olunur.
Bütövləşmək üçün Kamilləşmək gərək.

*Od Ayı, 18-ci il. Bakı.*
*(İyul, 1996-cı il).*

**İçərisi**

**Dünya İçindən Yaranır.........................................5**

**İnsanlaşmaq........................................................9**

**Dünyaçılıq – İnsançılıq.......................................11**

**Kamilləşmə Əməli...............................................19**

**Daxildən Gerçəkləşmək......................................27**

**Gerçəkliyi Ötmək................................................37**

**Özündən Yüksək.................................................57**

**Dünyadan Üstün.................................................71**

**Bütövlük Həqiqəti...............................................91**

[illegible], [illegible], [illegible]
[illegible] ([illegible]) [illegible]!

## [illegible]

### ([illegible])

[illegible] ([illegible]) [illegible] — [illegible] ([illegible]) [illegible] 30-[illegible] ([illegible] 2008-2009-[illegible]) [illegible] “[illegible] ([illegible])” [illegible]. “[illegible]” [illegible] 43 [illegible] 7 [illegible].

[illegible]; [illegible], [illegible]. [illegible].

[illegible] ([illegible]) — [illegible] — [illegible]; [illegible] ([illegible]) — “[illegible] ([illegible]) [illegible]” [illegible], [illegible], [illegible]-[illegible] [illegible]. [illegible], [illegible], [illegible], [illegible].

[illegible], [illegible], [illegible]. [illegible].

[illegible]!
[illegible]!

[illegible]
*[illegible]*

*8 [illegible], 30-[illegible]. [illegible].*

Mütləqim, Müqəddəsim, Ulu Peyğəmbərim
Asif Ataya (İnam Ataya) Ali Səcdəylə!

## MÜTLƏQƏ İNAM RUHANİYYATI
## (Qutsal Bəlgə)

Türkün (ilk) Ruhaniyyat Ocağı – Asif Atanın (İnam Atanın) Mütləqə İnam Ocağı 30-ildə (Miladın 2008-2009-ili) Asif Ata İrsi'ndən özünün, ən uca ümumbəşəri ruhani dəyər kimi, tapındığı hissəni "On Qutsal Bitiq və üç Yan Bitiq (qısaca Onluq)" adı altında nəşrə hazırladı. "Onluq" Atamızın 43 Müqəddəs Kitabını və 7 Müqəddəs Kəlamını özündə birləşdirir.

Bitiqlərin təsnifatı və sistemləşdirilməsi içlərindəki Kitabların Mütləqə İnam baxışında yerinə görə aparılmışdır; hər Bitiq Ata Təlimindəki məna ifadəsinə əsasən adlandırılmış, Ata Mətnlərinin bütövlüyü, ilkinliyi, məzmunu, dili, üslubu, cümlə quruluşu olduğu kimi saxlanılmışdır. Asif Ata İrsinə yönəlik bu prinsip həmişə və hər yerdə gözlənilməlidir. Bitiqlərin indi təqdim olunan quruluşu, biçimi, adları, sayı da toxunulmazdır.

Onluq (On Qutsal Bitiq) – hazırkı Mütləqə İnam Ocağı tərəfindən Mütləqə İnam Ruhaniyyatı – Ata Müqəddəsatı sayılır; Yan Bitiqlər (Əlavə Cildlər) – "Qutsal (Müqəddəs) İrs"ə daxil edilir, məzmunlarına görə Onluğa daxil edilmirlər, çünki Onluq Mütləqə İnam Dünyabaxışının Cövhərini və Meyarını birbaşa, Yan Bitiqlər isə onun ayrı-ayrı məqamlarını və dolayısı ilə ifadə edirlər. Bütövlükdə Ata Dilindən, Ata Qələmindən nə çıxıbsa, Mütləqə İnam Dünyabaxışının Kutsal İrsi sayılır, ancaq Onluğa daxil edilmir.

İrsin yiyəsi, qoruyucusu, sorumlusu Asif Atanın Mütləqə İnam Ocağıdır. İrslə bağlı bütün hüquqlar bu Ocağa məxsusdur.

Yükümüzdən Böyük Fərəhimiz yoxdur!
Atamız Var olsun!

**Soylu Atalı**
***Mütləqə İnam Ocağının Yükümlüsü***

*8 Köçəri Ayı, 30-il. Atakənd.*

Türkün (İlk) Ruhaniyyat Ocağı –
Asif Atanın (İnam Atanın)
Mütləqə İnam Ocağı

Asif ATA
(Əfəndiyev Asif Qasım oğlu)
On Qutsal Bitiq'in
Doqquzuncu Bitiqi: İçdən Yaranma

(Türk dilində)

Kitab Ocaq Evladlarının yatırımı ilə basılmışdır.

Bağlantı ünvanımız: www.asifataocagi.com
soyluatali@mail.ru.
nurtekin_atali@mail.ru

Tel: (051) 585-56-97;
(050) 527-70-50;
(055) 565-36-97